Xalqın qəzeti!

# Xalq qəzeti

№ 227 (30921) 23 oktyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Estoniya Azərbaycanla əməkdaşlığa böyük önəm verir

## Prezident İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahknanı qəbul edib.**

Estoniyanın xarici işlər naziri Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, bu məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi rolunu vurğuladı. Vaşinqton görüşündəki razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında nəqliyyat bağlantısının açılmasının önəminə toxundu.

Estoniyanın xarici işlər naziri Ermənistanın Qazaxıstandan idxal etdiyi taxılın Azərbaycan ərazisindən tranzit yolu ilə daşınmasına ölkəmiz tərəfindən icazə verilməsinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində mühüm addım olduğunu vurğuladı.

Nazir ölkəmizə geniş tərkibdə biznes nümayəndə heyəti ilə gəldiyini və Bakıda biznes-forumun keçirildiyini dedi, bu cür tədbirlərin ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi.

Qonaq Estoniyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrini dəstəklədiyini qeyd edərək, hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafındakı müsbət dinamikanın məmnunluq doğurduğunu dedi.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə Tirana və



Kopenhagendə görüşlərini məmnunluqla xatırladı, ölkəmizlə Avropa İttifaqı arasında enerji, nəqliyyat bağlantıları və digər sahələrdə əməkdaşlıq üçün yeni perspektivlərin açıldığını qeyd etdi.

Qonaq COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə də təbriklərini çatdıraraq, bu tədbirdə beynəlxalq iqlim gündəliyi ilə bağlı ciddi nəticələrin əldə edildiyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Ermənistanın Baş naziri Azərbaycan Prezidentinə təşəkkür edib

**Ermənistanın Baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevə Azərbaycanın Ermənistana yüklərin tranzitinə dair bütün məhdudiyyətləri aradan qaldırmasına görə təşəkkür edib. O, bunu Tbilisidə keçirilən V Tbilisi Beynəlxalq İpək Yolu Forumunda çıxışı zamanı bildirib.**

Paşinyan vurğulayıb: “Prezident İlham Əliyev dünən elan edib ki, Azərbaycan öz ərazisindən Ermənistana malların tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırır. Bu, çox mühüm bəyanatdır və mən bu addımına görə Azərbaycan Prezidentinə minnətdarlığımı bildirmək istəyirəm. Mən həm də buna görə Qazaxıstan Prezidentinə və Gürcüstanın Baş nazirinə minnətdarlığımı ifadə edirəm”.

***XQ***

# Donald Tramp “Sülhün memarı”dır



**ABŞ Prezidenti Donald Tramp 1995-ci ildə ABŞ-ın 37-ci Prezidenti Riçard Niksonun Fondu tərəfindən təsis olunmuş “Sülhün memarı” mükafatı ilə təltif olunub.**

Ağ Evin yaydığı məlumata görə, mükafatı Donald Trampa fondun İdarə Heyətinin sədri və ABŞ Prezidentinin sabiq milli təhlükəsizlik müşaviri Robert Obrayen təqdim edib.

Fondun yayımladığı bəyanatda Donald Trampın bu mükafata “onun vasitəçiliyi ilə əldə olunan atəşkəslər və sülh sazişlərinə görə” layiq görüldüyü bildirilib. Qəzza sektorunda əldə olunan sülh sazişi, Azərbaycan və Ermənistan, Pakistan və Hindistan, Ruanda və Konqo, eləcə də Tailand və Kamboca arasında münaqişələrin həlli üzrə aparılan danışıqlar, Rusiya ilə Ukrayna arasında “dayanıqlı sülhün bərqərar olunması” istiqamətindəki səylər xüsusilə qeyd olunub.

Xatırladaq ki, Riçard Nikson Fondu 1983-cü ildə ABŞ-ın sabiq Prezidenti tərəfindən yaradılıb.

***XQ***

# Astana Sammiti və regional nizamın yeni düzəni



**Astanada keçirilən Dövlətlərarası Ali Şuranın II iclasında Azərbaycan və Qazaxıstan prezidentlərinin çıxışları Türk dünyasının geosiyasi koordinasiyasının yeni mərhələsini ifadə edir. İlham Əliyev və Kasım-Jomart Tokayevin bəyanatlarında səslənən ideyalar həm regional miqyasda – Mərkəzi Asiya və Cənubi Qafqaz xəttində – həm də qlobal miqyasda formalaşan yeni güc balanslarının kontekstində xüsusi siyasi məna kəsb edir.**

Astana Sammiti Türk dünyasının geosiyasi inteqrasiyası baxımından həmrəyliyin real strateji əməkdaşlığa çevrildiyi dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Azərbaycan və Qazaxıstan prezidentlərinin bəyanatlarında səslənən mesajlar regional siyasətdə artıq “qardaşlıq ritorikası”nın yerini rasional və praqmatik qarşılıqlı asılılıq modelinə verdiyini göstərir.

*(ardı 5-ci səhifədə)*

# Cənnət Qarabağın azadlıq dastanı



Səhifə ⇨ 10

# Böyük qayıdışa qardaşlıq töhfəsi

## *Kurmanqazı mərkəzi Qazaxıstanın Azərbaycana dəstəyinin rəmzidir*

**Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda hazırda böyük tikinti-abadlıq işləri aparılır. Bu proses “Böyük Qayıdış” layihəsinin tərkib hissəsidir. Bir vaxtlar düşmən tapdağı altında inləyən torpaqlarda indi həyat canlanır. Dağıdılmış kəndlər və şəhərlər müasir planlaşdırma prinsiplərinə uyğun şəkildə yenidən salınır, yollar çəkilir, körpülər, tunellər, su elektrik stansiyaları, hava limanları inşa olunur. Bir sözlə, insan yaşayışı üçün zəruri olan müasir infrastruktur qurulur. Məqsəd azad edilmiş əraziləri qısa zamanda tam həyat məkanına çevirmək və köçkünlərin layiqli şəkildə geri qayıdışını təmin etməkdir.**



Bir sıra dost və qardaş ölkələrin bu prosesə verdikləri töhfələr ayrıca qeyd edilməlidir. Söhbət təbii ki, Mərkəzi Asiyanın türkdilli dövlətlərindən və Macarıstandan gedir. Prezident İlham Əliyev oktyabrın 7-də Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşündə çıxışı zamanı bu barədə bildirdi: “Çıxışımın sonunda Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına məktəb artıq fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi Cəbrayılda tikilən məktəbdir. Türkmən qardaşlarımızın hədiyyəsi bu gün təməli qoyulan Füzuli məscididir. Qardaş Türkiyənin şirkətləri bir çox tunellər, körpülər, yollar inşa edir. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq”.

*(ardı 5-ci səhifədə)*

# Ermənistanın “dəhliz fobiyası” yenidən gündəmdə




Səhifə ⇨ 6

# Çamadanlarınızı qablaşdırın!



Səhifə ⇨ 6

# Meşələr həyat beşiyi, tarixin xalqımıza əmanətidir



Səhifə ⇨ 13

# Prezident İlham Əliyev Yaqub Eyyubova "İstiqlal" ordenini təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Yaqub Eyyubovu qəbul edib və ona "İstiqlal" ordenini təqdim edib.**

**Yaqub Eyyubovu salamlayan Prezident İlham Əliyev dedi:**

– Hörmətli Yaqub müəllim, ilk növbədə, sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illər müxtəlif məsul vəzifələrdə işləyərkən Azərbaycanın inkişafına öz töhfənizi vermisiniz. Mən bunu yüksək qiymətləndirirəm. Siz də bilirsiniz, mən də bilirəm ki, Ulu öndər Heydər Əliyev sizə həmişə diqqət göstərmişdir. Ötən əsrin 70-ci illərində sizi gənc kadr kimi məsul vəzifələrə təyin etmişdi və sizə böyük etimad göstərmişdi. Siz də bu etimadı layiqincə doğrultmusunuz. Məhz buna görə müstəqillik dövründə Ulu öndər xalqın tələbi ilə 1993-cü ildə hakimiyyətə gələndən sonra sizi bir neçə məsul vəzifəyə təyin edərək, bir daha sizə etimad göstərmişdir. Onun sərəncamı ilə siz böyük vəzifə olan Baş nazirin birinci müavini təyin olunmusunuz və o illərdən bəri bu vəzifədə çalışırsınız.

22 il ərzində mənim prezidentlik dövrümdə də sizə dəfələrlə etimad göstərmişəm, hər prezident seçkilərindən sonra sizi həmin vəzifəyə yenidən təyin edirdim. Bu gün sizə bu dövlət mükafatını təqdim edərkən demək istəyirəm ki, mən sizin işinizdən razıyam. Siz canla-başla, sədaqətlə dövlətə, vətənə xidmət edirsiniz. Öz işinizdə həmişə tələbkarsınız və mənim göstərişlərimi layiqincə yerinə yetirirsiniz. Sizin böyük xidmətlərinizi nəzərə alaraq mən sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif etmişəm və icazə verin, bu yüksək ordeni sizə təqdim edim.

**Prezident İlham Əliyev "İstiqlal "ordenini Yaqub Eyyubova təqdim edərək dedi:** Sizi təbrik edirəm.

**Yaqub Eyyubov:** Təşəkkür edirəm.

Fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Yaqub Eyyubov Ümummilli lider Heydər Əliyev ilə bağlı xatirələrini



bölüşdü, Ulu öndərin və Prezident İlham Əliyevin ona göstərdikləri etimadı həmişə doğrultmağa çalışdığını bildirdi. O, məhz dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu qeyd edərək dedi: "Siz dahi şəxsiyyətsiniz ki, Azərbaycanın torpaqlarını geri qaytardınız. Bunu heç kim edə bilməzdi, mümkün də deyildi. Siz gözəl, yüksək bacarıqlı, dahi bir insansınız. Ona görə də bütün xalq, bütün dünya Sizi görür, Sizinlə qürur duyur".

**"İstiqlal" ordeni ilə təltif olunmasının onun üçün böyük şərəf olduğunu vurğulayan Yaqub Eyyubov bildirdi:** "Mən həyatım boyu bunu unutmaram və çalışacağam ki, imkanım daxilində, nə qədər imkan varsa, Sizə və dövlətimizə xidmət edim".

**Prezident İlham Əliyev:** Çox sağ olun.

# Yaponiyanın Baş naziri Zati-aliləri xanım Sanae Takaiçiyə

Hörmətli xanım Baş nazir,

Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Yaponiya münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Hazırda iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar mövcuddur.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, mövcud potensialdan istifadə edərək ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da genişləndirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı məsul dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 oktyabr 2025-ci il**

## Y.A.Eyyubovun "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında böyük xidmətlərinə görə Yaqub Abdulla oğlu Eyyubov "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 oktyabr 2025-ci il**

## Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2026-cı ilin fevral ayında Bakı şəhərində Birinci Türkoloji Qurultayın təşkilinin 100 ili tamam olur.

Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün Birinci Türkoloji Qurultaya ev sahibliyi etmişdir. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi.

Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı maneələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalmış, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulmuşdur. Yalnız ötən əsrin sonlarında əldə etdikləri milli müstəqillik türk xalqlarının mənəvi dirçəliş yollarını işıqlandırmış, mühüm problemlər sırasında latın qrafikalı ümumtürk əlifbasının tətbiqini bir daha aktuallaşdırmışdır.

Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. 2025-ci il oktyabrın 6–7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın və bütövlükdə türk dünyasının XX əsr elmi-mədəni həyatının parlaq səhifəsini təşkil etdiyini nəzərə alaraq, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinin təmin olunması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 oktyabr 2025-ci il**

## "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi nəzərdə tutulur.

**2.** "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədrinə verilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 oktyabr 2025-ci il**

## "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2025, № 2, maddə 104, № 5, maddə 442, № 6, maddə 533) 2-ci maddəsinə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyi" yubiley medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" yubiley medalı;".

**Maddə 2.** "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

**Maddə 3.** "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 oktyabr 2025-ci il**

*Azərbaycan Respublikasının*
*2025-ci il 10 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikası Konstitusiyasının hazırlanmasına, təkmilləşdirilməsinə və təbliğinə, qanunvericilik və hüquq sisteminin inkişafına, Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, Konstitusiya ilə təsbit olunmuş əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə, konstitusion ideya və prinsiplərin formalaşdırılması və inkişafına töhfələr vermiş, habelə Azərbaycan dövləti qarşısında xüsusi xidmətləri olan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində qeyd olunan şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının*
*2025-ci il 10 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 40 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.2. Xarici və daxili konturların arasında yuxarı qövs boyunca “AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI” sözləri, aşağı qövs boyunca sol tərəfdə “1995”, sağ tərəfdə “2025” rəqəmləri və rəqəmlərin arasında mərkəzdə səkkizguşəli ulduz, habelə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

2.3. Daxili çevrənin içərisində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, ondan aşağıda “30” rəqəmləri və “il” sözü və Azərbaycan Respublikasının Dövlət Bayrağını təsvir edən simvollar həkk edilmişdir.

2.4. Bütün yazılar, rəqəmlər və simvollar qızılı rəngdədir, qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 50 mm x 37 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin yuxarı hissəsinə üzərində ikiqatlı lent və səkkizguşəli ulduz təsvir olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.3. Xara lentin mərkəzində 11 mm enində tünd yaşıl rəngli, mərkəzdən sol və sağ kənarlara doğru ardıcıl olaraq 2,5 mm enində qızılı rəngli, 2 mm enində göy rəngli, 3,5 mm enində qızılı rəngli, 3,5 mm enində tünd yaşıl rəngli, 1,5 mm enində qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

**“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı**



# Sahibə Qafarova Estoniyanın xarici işlər nazirini qəbul edib



**Oktyabrın 22-də Milli Məclisin sədri Sahibə Qafarova Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahkna ilə görüşüb.**



Görüşdə ölkələrimizi birləşdirən dostluq münasibətlərindən və qarşılıqlı faydalı əməkdaşlıqdan söz açan parlamentin sədri dövlətlərarası münasibətlərin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, görüşlərin, eləcə də imzalanan sənədlərin mühüm rol oynadığını deyib.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüş barədə məlumat verən Estoniyanın xarici işlər naziri Marqus Tsahkna, həmçinin Azərbaycan ilə Ermənistan arasında Vaşinqton görüşündə əldə olunan nailiyyətlər münasibətilə təbriklərini çatdırıb, ölkəmizin regionda sülhün, əmin-amanlığın, eləcə də əməkdaşlığın təmin olunmasındakı rolunu yüksək dəyərləndirib.

Görüşdə parlamentlərarası əlaqələrin ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin vacib tərkib hissəsi olduğu da vurğulanıb.

***XQ***

# Vatikanda “Səmavi dinlər” layihəsinin təqdimatı





**“Səmavi dinlər” layihəsi əsasında Azərbaycan xalçaçılarının ərsəyə gətirdiyi triptix Vatikanda təqdim edilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Roma Papası XIV Leo ilə görüşündə təqdimatı olan bu sənət əsəri iudaizm, xristianlıq və İslam dinlərinə həsr edilib, dərin fəlsəfi düşüncənin, milli sənətkarlıq ruhunun təcəssümüdür.**

Hər üç xalça özündə fərqli dinləri və mədəniyyətləri simvollaşdırır, lakin bir araya gələndə insanlığın ortaq dəyərlərini – sülhü, mərhəməti və ədaləti ifadə edir. Layihə Azərbaycan mədəniyyətinin dərinliyindən gələn universal dəyərlərin, mədəni diplomatiya strategiyasının təcəssümüdür.

Triptixin həm Vatikanda, həm də dünyanın müxtəlif ölkələrində sərgilənməsi planlaşdırılır. Bu baxımdan əsərin Azərbaycanın multikultural irsinin dünyaya tanıdılması baxımından mədəni-siyasi mənası var. Bu, Azərbaycanın mədəni səsinin qlobal miqyasda eşidilməsini, Azərbaycan xalça sənətinin yalnız estetik deyil, həm də fəlsəfi dəyər daşıdığını göstərir.

***XQ***

# Tbilisidə Azərbaycan və Gürcüstan baş nazirlərinin görüşü

**Oktyabrın 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tbilisiyə işgüzar səfəri çərçivəsində Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.**



Görüş zamanı Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstanın Baş nazirinə çatdırıb.

İ.Kobaxidze Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə 5-ci Tbilisi İpək Yolu Forumunun əhəmiyyəti vurğulanıb.

Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin mehriban qonşuluq və strateji tərəfdaşlıq əsasında hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

Baş nazirlər iki ölkə arasında ticarət-iqtisadi, investisiya, nəqliyyat-tranzit, neft-qaz, yaşıl enerji, humanitar və digər istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər, müxtəlif sahələrdə həyata keçirilən birgə layihələri nəzərdən keçiriblər.

***XQ***

# Əli Əsədov 5-ci Tbilisi İpək Yolu Forumunda




**Gürcüstanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 22-də 5-ci Tbilisi İpək Yolu Forumunun açılış mərasimində iştirak edib.**

Tədbirdə çıxış edən Ə.Əsədov Tbilisi İpək Yolu Forumunun əhəmiyyətini vurğulayıb, cəmi bir neçə il ərzində forumun regional və qlobal gündəlikdə yer alan mühüm məsələlərin müzakirəsi üçün nüfuzlu və səmərəli beynəlxalq platforma kimi formalaşaraq özünü tam şəkildə təsdiq etdiyini bildirib.

Baş nazir Şərqlə Qərbi birləşdirən strateji nəqliyyat marşrutu – Böyük İpək Yolu üzərində yerləşən Azərbaycan və Gürcüstanın əsrlər boyu Avropa ilə Asiya arasında körpü rolunu oynayaraq iqtisadi-ticari əlaqələrin inkişafına, mədəni və humanitar mübadilənin möhkəmlənməsinə mühüm töhfələr verdiyini diqqətə çatdırıb.

“Bu gün Azərbaycan və Gürcüstan həmin tarixi missiyanı yeni məzmunda davam etdirərək regional əməkdaşlığın gücləndirilməsində aparıcı rol oynayırlar, Avrasiya məkanında yeni nəqliyyat və logistika marşrutlarının formalaşmasında əsas iştirakçılar qismində çıxış edirlər”, - deyə Ə.Əsədov vurğulayıb.

Bildirilib ki, Azərbaycanı və Gürcüstanı birləşdirən dostluq və strateji tərəfdaşlıq münasibətləri uzun illərdir ki, regionda sabitliyin və inkişafın mühüm dayaqlarından biridir. Bu gün iki ölkə yalnız siyasi baxımdan deyil, həm də iqtisadi, enerji və nəqliyyat sahələrində etibarlı tərəfdaşlardır.

Nəqliyyat-tranzit sahəsinin ənənəvi olaraq gündəlikdə xüsusi yer tutduğunu bildirən Ə.Əsədov ölkəmizin strateji coğrafi yerləşməsinin və nəqliyyat infrastrukturuna yatırılan böyük sərmayələrin Azərbaycanın Avrasiyada mühüm nəqliyyat-logistika mərkəzi kimi mövqeyini möhkəmləndirdiyini vurğulayıb.

“Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədilə ölkəmiz tərəfindən ardıcıl iş aparılır. Keçən il Bakı–Tbilisi–Qars dəmir yolunun daşıma qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artırılıb. Eyni zamanda, ölkənin əsas dəmir yolları və avtomobil yolları şəbəkəsinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyondan 25 milyon tonadək artırılması məqsədilə ikinci genişləndirilmə mərhələsinə start verilib. Azərbaycan Xəzərin ən böyük ticarət donanmasına, həmçinin regionun ən böyük yükdaşıma aviaşirkətinə malikdir. Cari ilin may ayında Laçında ölkəmizin 9-cu beynəlxalq hava limanı açılıb. Hazırda Ələt Azad İqtisadi Zonasında yeni beynəlxalq karqo hava limanının tikintisi davam edir. Bu və bir sıra digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirib”, - deyə Baş nazir əlavə edib.

Bütün bu layihələrin Orta dəhlizin tərkib hissəsi olduğu diqqətə çatdırılıb, dəhlizin Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı marşrut kimi artıq özünü təsdiqlədiyi bildirilib.

Qeyd olunub ki, həm coğrafi mövqelərinə, həm də müasir nəqliyyat infrastrukturuna görə Azərbaycan və Gürcüstan bu strateji nəqliyyat dəhlizinin formalaşması və inkişafında aparıcı mövqe tutur.

Dəhliz boyunca infrastrukturun genişləndirilməsi, keçid proseslərinin sadələşdirilməsi və tranzit imkanlarının artırılması istiqamətində ardıcıl və məqsədyönlü addımların atıldığını deyən Baş nazir liman və logistika mərkəzlərinin modernləşdirilməsi, rəqəmsal həllərin tətbiqi kimi layihələrin bu əməkdaşlığın bariz nümunələri olduğunu diqqətə çatdırıb.

Görülmüş tədbirlər nəticəsində son üç ildə Orta Dəhliz üzrə tranzit yük həcmləri təxminən 90 faiz artıb ki, bu, onun səmərəliliyini və artan aktuallığını nümayiş etdirir. Bununla yanaşı, dəhliz üzrə yük daşımaların tranzit müddəti əhəmiyyətli dərəcədə azalıb.

Qeyd edilib ki, bu ayın əvvəlində Azərbaycan, Gürcüstan və Qazaxıstanın dəmir yolu operatorları Orta Dəhliz üzrə daşımalar üçün vahid uzunmüddətli tarifin tətbiqinə dair razılıq əldə ediblər.

Birgə səylərin regionun nəqliyyat və logistika potensialının tam reallaşdırılmasına, ticarət dövriyyəsinin və investisiya axınının artmasına, habelə Avrasiya məkanında iqtisadi əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Bu kontekstdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyi üzrə əldə edilmiş razılaşmaların regionda davamlı əməkdaşlığın təmin olunması baxımından tarixi əhəmiyyəti vurğulanıb.

“Bölgədə kommunikasiyaların açılması, o cümlədən Azərbaycanın əsas ərazisinin ölkənin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşməsi beynəlxalq yükdaşımalar üçün regionun tranzit imkanlarının genişlənməsinə xidmət edəcək. Əminik ki, cari il avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmalara əsasən regionda açılacaq yeni marşrut Orta Dəhlizin mühüm seqmentlərindən birinə çevriləcək və onun qlobal nəqliyyat şəbəkəsində rolunun artmasına töhfə verəcək”, - deyə Ə.Əsədov qeyd edib.

Baş nazir Azərbaycanın regionda əməkdaşlığın və etimad mühitinin bərpasına sadiqliyini nümayiş etdirdiyini bildirib, Ermənistan istiqamətində yük tranziti ilə bağlı işğal dövründən qalan bütün məhdudiyyətlərin aradan qaldırılmasını Azərbaycan tərəfinin bu kontekstdə mühüm töhfəsi kimi qiymətləndirib.

“Qazaxıstan taxılının Azərbaycan üzərindən Ermənistana daşınması bu baxımdan atılmış ilk praktiki addımdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, bu, sülhün artıq yalnız sənədlərdə deyil, real həyatda da tətbiq olunduğunu göstərir”, - deyə o əlavə edib.

Ə.Əsədov, həmçinin energetika sahəsində Azərbaycan ilə Gürcüstan arasında qurulmuş uzunmüddətli səmərəli tərəfdaşlığın əhəmiyyəti barədə söhbət açıb, bu strateji tərəfdaşlığın artıq regional sərhədləri aşaraq beynəlxalq əməkdaşlığın uğurlu nümunəsinə çevrildiyini bildirib.

Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərləri və Cənub Qaz Dəhlizi kimi beynəlxalq əhəmiyyətli layihələrin energetika sahəsində uğurlu əməkdaşlığın əsasını təşkil etdiyi diqqətə çatdırılıb.

“Bu layihələr regionumuzun geosiyasi mənzərəsini dəyişmiş, enerji resurslarının təhlükəsiz və etibarlı şəkildə dünya bazarlarına çatdırılmasını təmin etmişdir. Xüsusilə də Azərbaycanın təşəbbüsü və Gürcüstanın fəal iştirakı ilə reallaşan Cənub Qaz Dəhlizi artıq Avropanın enerji təhlükəsizliyinin vacib komponentinə çevrilmişdir. Son aylarda Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı artaraq 14-ə çatıb ki, onlardan 10-u Avropa ölkəsidir”, - deyən Baş nazir yaşıl enerji sahəsində əməkdaşlığa toxunub. O, Azərbaycan və Gürcüstanın bərpa olunan enerji mənbələrinin inkişafı və “Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi” təşəbbüsü çərçivəsində də güclü tərəfdaşlar kimi çıxış etdiklərini bildirib.

Azərbaycanın regionun tranzit və enerji potensialının tam reallaşdırılması, dayanıqlı logistik zəncirlərin və yaşıl enerji dəhlizlərinin qurulması üçün bundan sonra da öz səylərini əsirgəməyəcəyi, bu istiqamətdə bütün tərəfdaşlarla açıq və qarşılıqlı faydalı əməkdaşlığa hazır olduğu diqqətə çatdırılıb.

***XQ***

# Lider, Strategiya, Qələbə



## Küveytli jurnalist Prezident İlham Əliyevin diplomatik zəfərini bu 3 amillə izah edir

**Dünyanın diqqəti müxtəlif qaynar nöqtələrə cəmlənərkən Cənubi Qafqazda son otuz ilin ən mürəkkəb düyünlərindən biri məhz memar zəkası ilə açılır və regionun gələcəyi üçün tamamilə yeni layihə cızılır. Bu tarixi transformasiyanın mərkəzində dayanan lider, şübhəsiz, Azərbaycan Prezidenti İlham Əliyevdir.**

Bu mürəkkəb, lakin son dərəcə əhəmiyyətli geosiyasi transformasiyanı kənardan, obyektiv və tərəfsiz nəzərlərlə analiz etmək üçün **Küveytin nüfuzlu "Al-Jarida" qəzetinin Beynəlxalq məsələlər şöbəsinin rəhbəri, Yaxın Şərq və Avropa siyasəti üzrə tanınmış ekspert Şarbel Bərakat** ilə söhbətləşdik.

XQ-yə verdiyi eksklüziv müsahibədə Şarbel Bərakat Prezident İlham Əliyevin Cənubi Qafqaz siyasətinin uğur sirlərini açır, Vaşinqton Paktının regional güc balansını necə dəyişdiyindən danışır, Fransanın mövqeyinin arxasındakı səbəbləri izah edir və Azərbaycanın Avropa İttifaqı üçün artan strateji əhəmiyyətini dəyərləndirir.



**– Cənab Bərakat, uzun illərdir beynəlxalq siyasəti yaxından izləyirsiniz. Son dövrlər Cənubi Qafqazda baş verən prosesləri, xüsusilə Azərbaycanın irəli sürdüyü sülh gündəmini və Vaşinqton Paktı ilə nəticələnən diplomatik prosesi necə qiymətləndirirsiniz?**

– Bu suala cavab vermək üçün klassik siyasi təhlil çərçivəsindən kənara çıxmaq lazımdır. Biz burada sadəcə bir sülh sazişinə gedən yoldan danışmırıq. Təxminən otuz il davam edən münaqişənin yekununda qalib tərəfin məğlub tərəfə sülhü, regional sabitlik və gələcək naminə yeni əməkdaşlıq formatı təklif etməsi nadir tarixi hadisədir. Vaşinqton Bəyannaməsi Prezident İlham Əliyevin diplomatik məktəbinin şah əsəridir. Niyə? Çünki bu prosesdə bir neçə fundamental hədəfə eyni anda nail olundu. Birincisi, sülh danışıqları prosesi uzun illər ona süni əngəllər törədən, qərəzli və birtərəfli mövqe sərgiləyən vasitəçilərin inhisarından tamamilə çıxarıldı. Minsk qrupunun fəaliyyətsizliyi və bəzi Avropa paytaxtlarının, xüsusən də Parisin açıq-aşkar ermənipərəst mövqeyi danışıqları dalana dirəmişdi. Azərbaycan 44 günlük müharibə və sonrakı antiterror tədbirləri ilə yaratdığı reallığı diplomatik masada da qəbul etdirdi. Sülh prosesinin birbaşa Bakı ilə İrəvan arasında aparılması Azərbaycanın taleyini özünün həll etdiyini və kənar müdaxilələrə ehtiyac duymadığını göstərən suverenlik manifesti idi. Vaşinqtonun bu prosesdə, sadəcə, məkan təmin edən tərəf kimi çıxış etməsi Bakının diplomatik çəkisinin və prinsipial mövqeyinin ABŞ kimi supergüc tərəfindən qəbul edildiyini göstərir. İkincisi, bu sənədlə birlikdə sülhün məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə qoyuldu. Artıq İrəvanın arxasında gizlənə biləcəyi heç bir vasitəçi, manipulyasiya edə biləcəyi beynəlxalq platforma qalmadı.

**– Vaşinqtondakı diplomatik zəfərdən sonra Brüsseldə Avropa liderlərinin Prezident İlham Əliyevi təbrik etməsi Qərb dünyasının Cənubi Qafqaz siyasətində dönüş nöqtəsi kimi qiymətləndirilə bilərmi? Bu təbriklərin arxasında hansı siyasi mesajlar dayanırdı?**

– Əlbəttə, Brüsseldəki o səhnə son dərəcə dərin mənalar daşıyırdı. Beynəlxalq diplomatiyada təbriklər heç vaxt, sadəcə, nəzakət əlaməti olmur. Onlar siyasi reallığın qəbul edilməsinin və yeni münasibətlər qurmaq arzusunun ifadəsidir. Avropa liderlərinin Prezident Əliyevi təbrik etməsi bir neçə fundamental səbəbdən qaynaqlanırdı.

Birincisi, bu, Avropanın Cənubi Qafqazda uzun illər davam edən qeyri-sabitlik mənbəyinin aradan qaldırılmasından duyduğu məmnunluq idi. Qarabağ münaqişəsi Avropanın qonşuluğunda partlamağa hazır barıt çəlləyi və onun hər an daha geniş regional münaqişəyə çevrilmə riski mövcud idi.

Azərbaycanın problemi öz gücünə həll etməsi və dərhal sonra sülh gündəmini irəli sürməsi Brüsseli bu başağrısından xilas etdi. Onlar gördülər ki, regionda sülhün və sabitliyin əsas təminatçısı məhz Bakıdır.

İkincisi, Azərbaycanın artan strateji əhəmiyyətinin etirafı idi. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və regional təhlükəsizlik məsələlərində Azərbaycan Avropa İttifaqı üçün əvəzolunmaz tərəfdaşa çevrilib. Belə bir tərəfdaşın regionda sabitlik yaratması və sülh prosesinin lideri olması, təbii ki, Brüsselin maraqlarına tam cavab verir.

Üçüncüsü, bu təbriklər həm də bəzi Avropa paytaxtlarına, xüsusən də Parisə göndərilən üstüörtülü mesajdır. Yəni Aİ-nin mövqeyinin Fransanın qərəzli və reallıqdan uzaq siyasətindən fərqləndiyini göstərirdi. Brüssel Parisin erməni diasporunun təsiri altında yürütdüyü siyasətin əksinə, praqmatik və strateji maraqlara əsaslanan bir yol seçdiyini nümayiş etdirdi.

**– Fransa məsələsinə toxundunuz. Sizcə, Avropa İttifaqının ümumi mövqeyi daha konstruktiv bir məcraya yönəldiyi halda, Fransa niyə Cənubi Qafqazda bu qədər destruktiv və qərəzli siyasət yürütməyə davam edir?**

– Fransanın Cənubi Qafqaz siyasəti rasional geosiyasi analizdən daha çox daxili siyasi dinamika və tarixi xülyaların məhsuludur. Bunun bir neçə səbəbi var. Əsas səbəb, şübhəsiz, Fransadakı erməni diasporunun siyasi sistem üzərindəki qeyri-mütənasib təsiridir. Yerli siyasətçilər üçün seçkilərdə erməni icmasının səslərini qazanmaq ölkələrinin Cənubi Qafqazdakı uzunmüddətli strateji maraqlarından daha önəmli görünür. İkinci səbəb Fransanın itirilmiş qlobal nüfuzunu bərpa etmək üçün yürütdüyü uğursuz cəhdlərdir.

Paris özünü hələ də qlobal güc mərkəzi kimi görmək istəyir və "insan haqları", "demokratiya" kimi anlayışlardan vasitə kimi istifadə edərək başqa regionlara müdaxiləyə çalışır. Bakının prinsipial mövqeyi, Parisin təzyiqlərinə boyun əyməməsi, Fransanın xarici siyasətinin acizliyini ortaya qoydu. Üçüncü səbəb isə geosiyasi qısqanclıqdır. Fransa Türkiyə və Azərbaycanın Cənubi Qafqazda artan nüfuzunu öz təsir dairəsinə təhdid kimi görür. O, regionda Türkiyə–Azərbaycan tandeminin yaratdığı yeni güc balansını həzm edə bilmir və bu balansı pozmaq üçün hər vasitəyə əl atır. Lakin Parisin anlamadığı odur ki, bu siyasət ilk növbədə Fransanın özünü təcrid edir.

**– Bu proseslərin fonunda Azərbaycan–Avropa İttifaqı münasibətlərinin gələcəyini necə görürsünüz? Lüksemburq toplantısı hansı yeni üfüqlər açdı?**

– Hesab edirəm ki, Azərbaycan-Aİ münasibətləri tarixində heç vaxt indiki qədər perspektivli olmayıb. Bu, artıq "Şərq Tərəfdaşlığı" kimi ümumi çərçivələrin fövqünə qalxan, konkret strateji maraqlara söykənən tərəfdaşlıqdır. Bu tərəfdaşlığın üç fundamental sütunu var: enerji, nəqliyyat və regional təhlükəsizlik. Enerji sahəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyinin əsas sütununa çevrilib. Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya nəql edilən qazın həcminin iki dəfə artırılması barədə imzalanan Anlaşma Memorandumu tərəfdaşlığın strateji dərinliyini göstərir. Nəqliyyat sahəsində isə Orta Dəhliz layihəsi vasitəsilə Azərbaycan Avropa ilə Asiya arasında ən etibarlı və qısa quru körpüsü rolunu oynayır.

Aİ-nin "Global Gateway" strategiyası çərçivəsində bu dəhlizə milyardlarla avro sərmayə yatırmağa hazırlaşması Brüsselin Bakının rolu olmadan strateji hədəflərinə çata bilməyəcəyini anladığını göstərir. Regional təhlükəsizlik sahəsində isə artıq qeyd etdiyim kimi, Azərbaycan Cənubi Qafqazda sülhün və sabitliyin əsas lokomotivinə çevrilib. Lüksemburq toplantısı bütün istiqamətləri vahid bir platformada birləşdirdi və tərəflərin maraqlarının nə qədər üst-üstə düşdüyünü bir daha təsdiqlədi. İnanıram ki, yaxın gələcəkdə biz Azərbaycan və Aİ arasında strateji tərəfdaşlıq sazişinin imzalanmasının şahidi olacağıq.

**– Sonda bütün bu uğurların arxasında dayanan əsas amil kimi Prezident İlham Əliyevin liderlik fəlsəfəsini necə xarakterizə edərdiniz?**

– Lider, Strategiya, Qələbə. Prezident İlham Əliyevin xarici siyasət fəlsəfəsini təhlil edərkən bu açar sözləri qeyd etmək lazımdır. Strateji səbir, polad iradə, praqmatizm və mükəmməl zamanlama hissi. Dövlət başçınız özünün iştirakı ilə on yeddi il davam edən danışıqlar prosesində böyük səbir göstərdi, beynəlxalq hüququn və dinc vasitələrin bütün imkanlarını sonuna qədər sınadı. Lakin eyni zamanda, ölkəsinin hərbi gücünü artıraraq, güc tətbiq etməyin lazım gələcəyi məqama hazırlaşdı. Bu, strateji səbrin polad iradə ilə vəhdətidir. 44 günlük müharibənin başlanması və dayandırılması, antiterror tədbirlərinin vaxtı və miqyası bütün bunlar mükəmməl zamanlama prosesinin nəticəsi idi. Ən əsası, hərbi qələbəni siyasi və diplomatik qələbəyə çevirməyi bacardı.

Bəzi liderlər döyüş meydanında qalib gəlsələr də, sülh masasında məğlub olurlar. Prezident İlham Əliyev isə hər iki cəbhədə qalibi kimi Azərbaycan üçün tarixi zəfəri təmin etdi. Onun liderliyi sayəsində bu gün Azərbaycan Cənubi Qafqaz regionunun gələcəyini müəyyən edən, öz qaydalarını diktə edən və beynəlxalq aləmdə sözü keçən güc mərkəzidir. Bu, müasir dünya tarixində nadir rast gəlinən liderlik hekayəsidir.

*

Küveytli ekspert Şarbel Bərakatın təhlili bir daha təsdiq edir ki, Cənubi Qafqazda cərəyan edən proseslər dərin strateji zəkaya əsaslanan, ardıcıl və məqsədyönlü siyasətin nəticəsidir. Müsahibədən çıxan əsas qənaət odur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməklə qalmayıb, həm də bütün region üçün yeni inkişaf və təhlükəsizlik paradiqması formalaşdırıb. Dünya güclü, müstəqil və sözünü deməyə qadir olan yeni Azərbaycan reallığı ilə hesablaşmağa məcburdur və bu reallığın memarı, şübhəsiz ki, Prezident İlham Əliyevdir.

***Söhbəti qələmə aldı:***
***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Sülh logistikası quran ölkə

**Sülh istəyən çoxdur, amma onu quran azdır. İlk sülh sənədi hesab olunan Kadeş müqaviləsindən başlayaraq indiyə qədər dünyada minlərlə sülh sazişi imzalanıb. Bakı ilə İrəvan arasında yaxın gələcəkdə imzalanacaq sülh müqaviləsi də məhz bu xəttin davamıdır və ümidvarıq ki, bu, dünyada sonuncu olmayacaq. Lakin burada fərq yalnız sənəddə deyil, məramdadır. Adətən sülh bağlandıqdan sonra tərəflər öz aralarında hesablaşır, zərər-ziyan bölgüsü aparır. Azərbaycan isə sülhəqədər apardığı siyasətlə davamçılarına nümunə və uğurlu presedent yaradır.**




Bakı yalnız öz maraqlarını deyil, həm qarşı tərəfin, həm də bütün Cənubi Qafqazın yenidən qurulmasını prioritet hesab edir. Prezident İlham Əliyevin bölgəni "sabitlik adası"na çevirmə konsepsiyası tədricən reallığa çevrilir. Azərbaycan bu prosesdə əsas memar və təşəbbüskar kimi çıxış edir.

Oktyabrın 21-də Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri zamanı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata bəyanatlarla çıxış etdi. Çıxışında olduqca incə və vacib bir məqama toxunan İlham Əliyev bildirdi ki, Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Birinci Qarabağ müharibəsi dövründən bəri ilk dəfə reallaşacaq bu tranzit əslində olduqca böyük məna kəsb edir. Atdığı bu addımla Bakı İrəvana təkcə kommunikasiyaları deyil, sülh qapılarını açır. Əslində, bu hadisə regionun yeni iqtisadi-siyasi xəritəsini müəyyənləşdirən dönüş nöqtəsidir. Azərbaycan sülhü ideya səviyyəsində deyil, logistika, tranzit və ticarət müstəvisində həyata keçirir. Bu, postsovet məkanında nadir modeldir: münaqişədən qalib çıxan ölkə onu illərlə təcrid etməyə çalışan qonşuya iqtisadi əlaqə kanalı açır və bunu bölgədə sırf strateji sabitlik naminə edir.

Bu addım etimadın yenidən formalaşmasıdır. Məhz ölkə başçısının bu fikirlərindən sonra Ermənistanın Baş naziri Nikol Paşinyanın Tbilisidə keçirilən V İpək Yolu Forumundakı təşəkkür bəyanatı da bu prosesin beynəlxalq rezonansını təsdiqləyir. Paşinyanın "Azərbaycanın qərarı təqdirəlayiqdir" deməsi rəsmi İrəvanın ilk dəfə real təşəkkür ritorikasına keçididir. İki ölkə arasında mövcud gərgin situasiya fonunda artıq onu deyə bilərik ki, diplomatik ton dəyişir. Təbii ki, əlaqələrin tam normallaşması bir qədər zaman alacaq. Lakin kiçik blokadaların aradan qaldırılması indiki vəziyyətdə böyük addım hesab oluna bilər. Azərbaycan artıq regionda müharibə deyil, sülh səslərinin eşidilməsini istəyir və bunun üçün real addımlar atır.

*

Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyanın açıqlamasına görə, tranzit məhdudiyyətinin aradan qaldırılması ilə birgə Qazaxıstan buğdası Aktau–Bakı dəmir yolu vasitəsilə, oradan isə Azərbaycan–Gürcüstan xətti üzərindən Ermənistana çatdırılacaq. Bu marşrut faktiki olaraq Bakının açdığı "sülh dəhlizi"nin ilk işarəsidir. Tbilisidə keçirilən V İpək Yolu Forumunda Azərbaycanın Baş naziri Əli Əsədovun səsləndirdiyi fikirlər də eyni xətti davam etdirir. Baş nazir bildirdi ki, Azərbaycan və Ermənistan arasında sülh gündəliyi üzrə əldə edilən razılaşmalar regionda dayanıqlı əməkdaşlığın təmin edilməsi baxımından tarixi əhəmiyyət daşıyır. Rəsmi Bakının işğal dövründən qalan bütün məhdudiyyətləri aradan qaldırması siyasi etimadın möhkəmlənməsi deməkdir. Bu, gələcəkdə kommunikasiyaların bərpası, sərhəd ticarətinin genişlənməsi və Zəngəzur dəhlizinin (TRIPP) açılması kimi proseslərə real zəmin yaradır.

Prezident İlham Əliyevin Qazaxıstanda həmçinin Zəngəzur dəhlizi ilə bağlı açıqlamaları regionun gələcək kommunikasiya xəritəsini müəyyənləşdirir: "Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində avtomobil və dəmir yolu əlaqəsi üzrə bütün işlər gələn ilin ortalarında başa çatdırılacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də bütün bunlar analoji sürətlə həyata keçiriləcək və belə olan halda Zəngəzur dəhlizinin açılışı 2028-ci ilin sonuna qədər baş verə bilər". Bu, Cənubi Qafqazı birləşdirən geopolitik qütb balansını dəyişən strateji dəhlizdir. Regiondakı bütün iqtisadi və diplomatik tənliklər bundan sonra bu xəttin üzərində qurulacaq. Məhz tranzit qadağasının aradan qalxması fonunda TRIPP vasitəsilə Ermənistanla növbəti illərdə tranzit əməliyyatları imkanları müzakirəyə açıq olacaq.

Azərbaycanın bu addımı klassik "postmünaqişə" dövlət modelinə sığmır. Bakı sülhü nəticə kimi deyil, proses kimi qəbul edir. Bu proses həm iqtisadi, həm psixoloji, həm də geosiyasi müstəvilərdə paralel şəkildə gedir. Cənubi Qafqazda sülh artıq təklif yox, siyasət formasıdır. Bu siyasətin memarı Azərbaycandır. Prezident İlham Əliyevin bəyanatları isə yeni reallığın siyasi kodudur. Sabitlik bir dövlətin marağı deyil, regionun gələcəyi üçün qurulan ümumi sistemə çevrilsə, daha effektiv nəticə verər. Azərbaycan məhz bu sistemi qurmaqda qərarlıdır.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Təbii ki, bu yüklər birbaşa Ermənistana daxil olmur, əvvəlcə Gürcüstana yönəlir, sonra Gürcüstandan Ermənistana keçir. Lakin Ermənistan üçün bu həyati nəqliyyat yoludur. Çünki indiyə qədər bütün yükdaşımalar, demək olar ki, Lars vasitəsilə həyata keçirilirdi. Orada yolun darlığı və ya hər hansı bir hadisəyə görə gedişin dayandırılması Ermənistan üçün ciddi çətinliklər yaradırdı.

Üstəlik, elə mallar var ki, onları yük avtomobilləri ilə daşımaq həm bahalıdır, həm də çətindir. Məsələn, daş kömür, taxta, neft məhsulları və s. Azərbaycan tərəfi təxminən 1997-1998-ci illərdə Gürcüstandan keçib Ermənistana yönələn daşınmalara qəti qadağa qoymuşdu. Bu, həm Ermənistan, həm də Azərbaycan üçün mühüm hadisədir. İndiyə qədər dəfələrlə deyirdilər ki, Azərbaycan Ermənistanı nəqliyyat blokadasında saxlayır, amma indi açıq şəkildə göstərildi ki, heç bir blokada yoxdur.

Sadəcə olaraq, dəmir yolu Zəngəzur dəhlizində (TRIPP) hələ tam bərpa olunmayıb. Avtomobil yolu isə mövcuddur və o yoldan istifadə, yəni Naxçıvanla əlaqələri yaratmaq mümkündür. Düşünürəm ki, Ermənistanla ciddi danışıq aparmaq lazımdır ki, dəmir yolu bərpa olunsun, amma avtomobil yolu da istifadə edilsin. Həmin yol üzrə 20-50 avtomobil birlikdə hərəkət edə bilər. Azərbaycan sərhədçiləri və gömrükçüləri ilə erməni tərəfi həmin prosedurları həyata keçirə bilərlər. Fərz edirəm ki, bu məsələ də müzakirə oluna bilər.

Qafan ilə Gorus arasındakı yolun 20 kilometrlik hissəsi Azərbaycan ərazisindən keçir. Bakı bir müddət bu yolu ermənilərin istifadəsinə açmışdı, lakin sonradan, məsələn, İran tərəfindən benzin daşıyan maşınlar Qarabağa Azərbaycanın icazəsi olmadan daxil olmağa çalışdıqda yol bağlandı. Hər halda, indiki mərhələdə rəsmi Bakının atdığı bu addım təqdirəlayiqdir. Demək olar ki, Azərbaycan ürək genişliyi nümayiş etdirərək, birtərəfli qaydada tranzitə icazə verdi. İndi növbə Ermənistandadır.

# Astana Sammiti və regional nizamın yeni düzəni

*(əvvəli 1-ci səhifədə)*

İlham Əliyev və Kasım-Jomart Tokayevin qarşılıqlı münasibətləri şəxsiyyətlər səviyyəsində etimad üzərində qurulub, amma bu etimad təkcə siyasi liderlər arasında deyil, dövlət institutları səviyyəsində koordinasiyaya çevrilir. Bunlar Türk Dövlətləri Təşkilatı çərçivəsində sistemli inteqrasiyanın ən vacib komponentidir – siyasi sinxronizasiya və institusional paralelləşmə.

Qazaxıstan liderinin İlham Əliyevi “tarixi miqyasda görkəmli dövlət xadimi” kimi təqdim etməsi Azərbaycanın liderlik potensialının regionda tanınması, həm də Türk dünyasında liderlik payının ədalətli bölüşdürülməsi prinsipinə əsaslanan strateji yanaşmanın göstəricisidir. Azərbaycan son illər siyasi dinamizmi, enerji təhlükəsizliyi sahəsində rolu və sülh diplomatiyasındakı təşəbbüsləri ilə faktiki olaraq Türk inteqrasiyasının siyasi lokomotivinə çevrilib.

Dövlətlərarası inteqrasiya artıq mədəni yaxınlıq və dil birliyindən daha genişdir. Burada əsas məsələ ortaq maraqların strateji çevikliyə əsaslanan müdafiəsidir. Mərkəzi Asiya və Cənubi Qafqaz regionları bu baxımdan vahid geoiqtisadi sistem kimi formalaşmağa başlayır. Azərbaycan–Qazaxıstan oxu həm Şərq–Qərb marşrutunun dayağı, həm də Türk coğrafiyasının Qərb cinahında dayanıqlı sabitlik platformasıdır.





Bununla yanaşı, inteqrasiyanın yeni mərhələsi artıq qurumlararası harmonizasiya üzərində qurulur. Enerji, nəqliyyat, rəqəmsallaşma və müdafiə sənayesi sahələrində birgə strategiyalar bu inteqrasiyanın texniki mexanizmini yaradır. Yəni ikitərəfli münasibətlər “emosional qardaşlıq”dan “funksional ittifaqa” çevrilir.

Ən mühüm məqam isə odur ki, Türk dünyası artıq qlobal siyasi sistemdə periferik mövqe tutan subyektlər toplusu deyil. TDT müxtəlif güc mərkəzləri – Qərb, Rusiya, Çin – arasında regional balans yaradan müstəqil oyunçu kimi çıxış edir. Bu baxımdan, Azərbaycan–Qazaxıstan tandemi Türk inteqrasiyasının geosiyasi laboratoriyası rolunu oynayır: burada sinxron qərarvermə təcrübələri, enerji və nəqliyyat diplomatiyasının uyğunlaşdırılması, eləcə də ortaq təhlükəsizlik vizyonu formalaşdırılır.

* * *

Astana görüşündə Orta Dəhliz anlayışı qlobal güc balansının dəyişən xəritəsində siyasi-enerji arteriyası kimi təqdim olundu. İlham Əliyev və Kasım-Jomart Tokayevin çıxışlarında layihənin vurğulanması geosiyasi təsir gücünün tranzitidir. Trans-Xəzər marşrutunda daşımaların 62 faiz artması və yaxın perspektivdə 10 milyon ton hədəfi, faktiki olaraq, Mərkəzi Asiya–Cənubi Qafqaz inteqrasiyasını Avrasiyanın əsas strateji xəttinə çevirir. Bütün bu amillər göstərir ki, Azərbaycan və Qazaxıstan enerji və logistika diplomatiyasını sinxronlaşdıraraq Avrasiya məkanında yeni iqtisadi cazibə mərkəzi formalaşdırırlar. Əgər Şimal və Cənub dəhlizləri əsasən mövcud güc mərkəzlərinin – Rusiya və Hindistanın maraqlarına xidmət edirdisə, Orta Dəhliz Türk dünyasının geoiqtisadi suverenliyini bərpa edən alternativ modeldir. Bu marşrutun strateji mahiyyəti ondan ibarətdir ki, o, Avropaya çıxış üçün enerji və ticarət yollarını şaxələndirir, eyni zamanda, Çin və Avropa arasındakı qarşılıqlı asılılığı yeni siyasi formatda tənzimləyir. Yəni Bakı–Astana oxu Avrasiyanın iqtisadi təhlükəsizlik mexanizminin mərkəzi sütunudur.

Azərbaycan bu mənzərədə koordinasiya edən dövlət funksiyasını yerinə yetirir. Bakı həm enerji ixracı, həm də nəqliyyat əlaqələrinin inteqrasiyasında “dəhliz diplomatiyasının” əsas mərkəzinə çevrilib. Qazaxıstan isə Mərkəzi Asiyanın geostrateji dayağı kimi dəhlizin kontinental sabitliyini təmin edir.

Prezident İlham Əliyevin bəyan etdiyi “Zəngəzur dəhlizi” təşəbbüsü bu konsepsiyanın ideoloji və strateji genişlənməsi kimi çıxış edir. Əslində, bu dəhlizlər geosiyasi asılılıqlardan azad olunmuş, qarşılıqlı etimad və funksional əməkdaşlıq əsasında qurulan yeni Avrasiya arxitekturasını formalaşdırır. Məhz bu arxitekturalar nə Qərbin, nə də Şərqin dominantlığına əsaslanır — onun əsas dayaq nöqtəsi Türk dövlətlərinin öz strateji identikliyini qoruyaraq ortaq maraqlar üzərində birləşməsidir.

* * *

Astanada keçirilən Dövlətlərarası Ali Şuranın II iclası bir daha göstərdi ki, Türk dövlətləri artıq qlobal siyasətdə vahid diplomatik vektora malik yeni mərkəz kimi formalaşır. Prezident İlham Əliyevin “Biz bütün beynəlxalq platformalarda demək olar ki, vahid mövqedən çıxış edirik” bəyanatı bu tendensiyanın konseptual ifadəsidir. Söhbət strateji diplomatik sinxronizasiyadan gedir. Azərbaycan və Qazaxıstanın İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi kimi çoxtərəfli platformalarda eyni mövqedən çıxış etməsi Türk diplomatik oxunun beynəlxalq sistemdə koordinasiyalı fəaliyyətə keçdiyini nümayiş etdirir. Bütün bunlar faktiki olaraq, post-Qərb mərhələsində beynəlxalq münasibətlərdə yeni “Türk multilateralizmi” modelinin yaranmasıdır.

Əgər əvvəllər Türk dünyasının beynəlxalq davranışı əsasən regional məsələlərlə məhdudlaşırdısa, indi bu yanaşma qlobal mövqeyin harmonizasiyasına çevrilib. İƏT çərçivəsində İslam dünyasının siyasi birliyi, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi daxilində isə Asiyanın təhlükəsizlik arxitekturası ilə bağlı məsələlərdə Bakı və Astana vahid diplomatik diskurs formalaşdırır.

Türk dünyasının bu yeni diplomatik xətti Qərb və Şərq arasında balanslaşdırılmış siyasət paradiqmasını təmsil edir. Yəni, Azərbaycan və Qazaxıstan nə Qərb blokuna, nə də Şərq alyansına tam mənada inteqrasiya olunmadan, müstəqil qərar mərkəzi kimi çıxış edir. Bütün bu amillər Ukrayna müharibəsi, Yaxın Şərqdəki gərginliklər və enerji təhlükəsizliyi kimi qlobal məsələlər fonunda Türk diplomatiyasının neytral, lakin təsirli vasitəçi statusunu gücləndirir.

Eyni zamanda, bu vahid mövqe dəyərlər və təhlükəsizlik baxışının yaxınlaşması ilə də izah olunur. Azərbaycan və Qazaxıstan hər iki halda milli maraqlara əsaslanan, ideoloji deyil, praqmatik diplomatiya yürüdürlər. Əslində, Astana görüşü Türk dünyasının qlobal siyasi təfəkkürdə subyektləşməsi prosesinin başlanğıc nöqtəsidir. Prezident İlham Əliyevin Astana bəyanatındakı bu fikirləri həmin strateji sinxronizasiya modelini konkret ifadə edir: “Gələn il Azərbaycan iki mühüm beynəlxalq tədbirə ev sahibliyi edəcək. Əlbəttə, əminəm ki, Kasım-Jomart Kemeleviç bizim fəxri qonaqların arasında olacaq. Bunlar İslam Əməkdaşlıq Təşkilatının Sammiti və Qazaxıstanın təşəbbüsü nəticəsində strukturu formalaşan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinin Sammitidir. Biz bütün beynəlxalq platformalarda demək olar ki, vahid mövqedən çıxış edirik. Bugünkü danışıqlar, fikir mübadiləsi və qərarlar bunu bir daha təsdiq edir”.

Beləliklə, vahid diplomatik mövqe konsepsiyası artıq real geosiyasi mexanizm halına gəlib. Türk dövlətləri bu mexanizm vasitəsilə qlobal çağırışlara kollektiv cavab verən, müstəqil dəyərlər və maraqlar üzərində qurulmuş yeni diplomatik məkan yaradırlar – bu da müasir çoxqütblü dünyanın mühüm sütunlarından birinə çevrilməkdədir.

* * *

Astanada səslənən bəyanatlar və qəbul edilən qərarlar göstərdi ki, XXI əsrin ikinci rübünə doğru post-Qərb beynəlxalq düzəni artıq yeni regional mərkəzlər üzərində qurulur. Mərkəzlərdən ən dinamik və institusional potensialı olanı isə Türk oxudur – Mərkəzi Asiya və Cənubi Qafqazı birləşdirən, müstəqil geosiyasi qərarvermə və dayanıqlı iqtisadi inteqrasiya fəlsəfəsinə əsaslanan yeni siyasi vektor.

Vektorun təməlində isə 3 əsas prinsip dayanır: müstəqillik, etimad və qarşılıqlı asılılıq. Azərbaycan–Qazaxıstan tandemi bu prinsipləri praktik səviyyəyə keçirərək, həm regional sabitliyin, həm də çoxqütblü dünyanın struktur dəyişikliklərinin lokomotivinə çevrilib. Əgər Qərb sistemi uzun müddət normativ universalizm və liberal hegemoniya üzərində qurulmuşdusa, Türk oxu praqmatik suverenlik və qarşılıqlı hörmət əsasında yeni güc modelini təklif edir.

Məhz bu səbəbdən Astana görüşü regional nizamın yeni siyasi arxitekturasının manifesti kimi qiymətləndirilir. Azərbaycan və Qazaxıstanın paralel siyasi kursu Türk Dövlətləri Təşkilatının gələcək strateji xəritəsini də müəyyənləşdirir. Türk dünyası artıq vahid maraq platforması üzərində birləşir. Orta Dəhliz kimi inteqrativ layihələr Türk oxunu Avrasiyanın enerji və nəqliyyat sinirlərinə çevirirsə, diplomatik koordinasiya mexanizmləri onu qlobal qərarvermə proseslərinin subyekti edir.

Ən mühüm siyasi nəticə isə budur: Türk dövlətləri artıq tarixə və qardaşlığa istinad edən simvolizmdən çıxaraq strateji qarşılıqlı asılılıq və institusional inteqrasiya mərhələsinə daxil olub.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Böyük qayıdışa qardaşlıq töhfəsi

*(əvvəli 1-ci səhifədə)*

Dövlətimizin başçısı oktyabrın 21-də Astanada Qazaxıstan Prezidenti ilə birgə mətbuata bəyanatında bu məsələyə bir daha toxundu: “Kasım-Jomart Kemeleviç iqtisadi-ticari qarşılıqlı fəaliyyət, nəqliyyat-logistika sahəsi, energetika sektoru, humanitar əməkdaşlıq sferası məsələlərini ətraflı işıqlandırdı. Öz tərəfimdən əlavə edərdim ki, Azərbaycanın bütün vətəndaşları, o cümlədən işğaldan azad olunmuş Qarabağda yaşayanlar Qarabağın dirçəlişində Prezident Tokayevin və qardaş Qazaxıstan xalqının rolunu həmişə minnətdarlıqla qeyd edirlər. Prezident Tokayevlə Füzulidə açılışını etdiyimiz Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi bu gün təkcə uşaqların təhsili və inkişafı ocağı deyil, həm də qardaşlığımızın və dostluğumuzun rəmzidir. Qarabağ bölgəsinə istər avtomobil nəqliyyatı ilə, istərsə də avianəqliyyatla səfər edən istənilən şəxs, – Füzulidən başqa bölgələri ziyarət etmək üçün istifadə edənlər, – Kurmanqazı adına Mərkəzin yaxınlığından keçərkən hər bir Azərbaycan vətəndaşı və ölkəmizin qonağı dost köməyinin şahidi olur. Bu, bizim, o cümlədən Qazaxıstanın qardaş köməyi sayəsində genişmiqyaslı “Böyük Qayıdış” layihəsini uğurla həyata keçirdiyimiz bir vaxtda müstəsna əhəmiyyətə malikdir”.

Füzuli şəhərində inşa olunan və qazax xalqının hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi 2024-cü il martın 12-də Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayevin iştirakı ilə istifadəyə verilib. Mərkəzin tikintisi Azərbaycan Prezidenti və xalqı tərəfindən də yüksək qiymətləndirilib. Qazaxıstan Prezidenti Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının, qarşılıqlı dəstəyinin daha bir simvoluna çevriləcəyini bildirib. Keçmiş məcburi köçkünlərin Füzuliyə qayıdışı ilə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində təhsil alan şagirdlərin də sayı artır. Mərkəz mart ayında 25 şagird və 5 müəllimlə fəaliyyətə başlamışdısa, hazırda şagirdlərin sayı 150-yə, müəllimlərin sayı isə 10-a çatır.

* * *



Xalqımız üçün ən ağır dönəmlərdə qardaş dəstəyini hiss etdiyimiz, işğal dövründə bütün beynəlxalq platformalarda ölkəmizi həmişə dəstəkləyən, bizimlə həmrəyliyə səs verən, keçmiş münaqişənin beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğun nizamlanmasına çalışan Qazaxıstan bu gün də köməyini əsirgəmir. Əlbəttə, bunun səbəbi ilk növbədə xalqlarımızı ümumi köklərə, mənəvi və mədəni ortaqlığa əsaslanan çoxəsrlik dostluğun, qardaşlığın birləşdirməsidir. Digər səbəb isə iki ölkə prezidentləri arasında formalaşmış sıx əlaqələrdir. Bu gün Azərbaycan və Qazaxıstan arasında dövlətlərarası münasibətlər də məhz bu möhkəm bünövrə üzərində qurulur. Son illər bu əlaqələr siyasi və iqtisadi sahələrlə yanaşı, humanitar sferada da yeni məzmun və dinamika qazanıb. Əminliklə demək olar ki, Prezident Kasım-Jomart Tokayevin təşəbbüsü ilə inşa edilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi iki xalq arasında dostluq körpüsünün simvoluna çevrilib. Bu mərkəz təkcə bir tikili deyil. O, Qazaxıstan xalqının Azərbaycanla həmrəylik və mənəvi bağlılığının təcəssümüdür.

Kurmanqazı mərkəzinin adında dərin rəmzi məna var. Qazax xalqının görkəmli xalq musiqiçisi, bəstəkar Kurmanqazı Sağırbayulı (1818-1896) həm musiqi, həm də milli kimlik baxımından türk dünyasının birləşdirici simalarından biridir. Mahir domra ifaçısı kimi də şöhrət qazanmış Kurmanqazının qazax musiqi mədəniyyətinin inkişafına böyük təsiri olub. Bu mədəniyyət ocağının Qarabağda yaradılması bir tərəfdən bölgənin dirçəlişinə, digər tərəfdən Türk dünyasının mədəni inteqrasiyasına töhfə verir.

Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən “Böyük Qayıdış” proqramı təkcə infrastrukturun bərpası deyil, həm də mənəvi mühitin dirçəldilməsi prosesidir. Qazaxıstanın bu prosesdə iştirakı qardaş ölkənin bölgənin yenidən qurulmasına töhfə vermək istəklərinin bariz göstəricisidir. Prezident İlham Əliyevin Astanada dediyi kimi, azad olunmuş Qarabağda yaşayanlar Prezident Tokayevin və qazax xalqının rolunu minnətdarlıqla xatırlayırlar. Əlbəttə, bu sözlər, sadəcə, diplomatik jest deyil, regionun bərpasında real əməkdaşlığın nəticəsidir.

Qazaxıstan–Azərbaycan humanitar əməkdaşlığının digər istiqamətləri də diqqətəlayiqdir. Qazaxıstanda Azərbaycan dili və ədəbiyyatı ilə bağlı tədris layihələri həyata keçirilir. Eyni zamanda, 2023-cü ildə Azərbaycanda Qazaxıstan, 2024-cü ildə isə Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günləri keçirilib. Gənclər və tələbələr arasında mübadilə proqramları genişlənir. Türk Dövlətləri Təşkilatı çərçivəsində aparılan mədəni layihələr bu iki xalqın əlaqələrinin institusional səviyyədə möhkəmlənməsinə xidmət edir. Qazax ədəbiyyatının inkişafında mühüm rolu olan Kemel Tokayevin “Gecə açılan atəş” adlı povestlər toplusu Azərbaycan dilinə nəşr olunub. Qeyd edək ki, Qazaxıstan Prezidentinin atası Kemel Tokayeviç Tokayev (1923-1986) qazax yazıçısı və redaktoru, qazax nəsrində detektiv janrın banisidir. O, İkinci Dünya müharibəsinin iştirakçısıdır. 2023-cü ildə Bakıda Kemel Tokayevin 100, Mir Cəlal Paşayevin 115 illik yubileylərinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.

Digər tərəfdən, qardaş ölkələr arasında mədəni diplomatiyanın uğurla tətbiqi həm də regionda inteqrasiya proseslərinin dərinləşməsinə təkan verir. Kurmanqazı mərkəzi kimi layihələr gələcək nəsillərin bir-birini daha yaxşı tanımasına, türk xalqları arasında ümumi dəyərlər sisteminin formalaşmasına imkan yaradır.

**Politoloq İlqar Vəlizadə** XQ-yə bildirdi ki, Qazaxıstanın Qarabağda belə bir mədəniyyət ocağı inşa etməsi iki mühüm aspekt daşıyır. Onun sözlərinə görə, birincisi, bu addım humanitar diplomatiyanın real nəticəsidir. İkincisi isə Türk dünyasında qarşılıqlı etimad mühitinin möhkəmlənməsinə xidmət edir: “Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, sadəcə, mədəniyyət layihəsi deyil, həm də strateji mesaj daşıyır. Bu, göstərir ki, Qazaxıstan Qarabağın bərpasını yalnız Azərbaycanın problemi kimi görmür. Bu, bütün Türk dünyasının ortaq məsuliyyətidir. Kurmanqazı mərkəzi vasitəsilə Qazaxıstan, əslində, mənəvi mənada bizim yanımızda olduğu mesajını verir”.

İ.Vəlizadə qeyd etdi ki, belə layihələr türk dövlətləri arasında əməkdaşlığı daha praktik səviyyəyə qaldırır: “Əgər əvvəllər əməkdaşlıq daha çox bəyanat-



lar səviyyəsində qalırdısa, indi bu, real infrastruktur və mədəni layihələrlə möhkəmlənir. Qazaxıstanın Qarabağda yaratdığı mərkəz Türk dünyasında birliyin yeni modelidir”.

Ekspert vurğuladı ki, Qazaxıstanla Azərbaycanın birgə həyata keçirdiyi bu təşəbbüs gələcəkdə digər türk ölkələri üçün də örnək ola bilər. Onun sözlərinə görə, humanitar əməkdaşlıq sahəsində atılan belə addımlar xalqlar arasında münasibətləri uzunmüddətli və davamlı edir. İ.Vəlizadənin qeyd etdiyi kimi, Füzulidəki Kurmanqazı mərkəzi təkcə uşaq yaradıcılığının deyil, Türk dünyasının həmrəyliyinin, qarşılıqlı etimad və mənəvi birliyin rəmzinə çevrilib. Bu mərkəz Qarabağın bərpası ilə yanaşı, qardaş xalqların gələcəyə birlikdə baxmaq əzmini nümayiş etdirir.

***Səxavət HƏMİD***
***XQ***

# Ermənistanın "dəhliz fobiyası" yenidən gündəmdə

## *TRIPP regionun sülh xəritəsidir, onu inkar etmək isə axara qarşı üzməkdir*

**Ermənistan yenidən Zəngəzur dəhlizi (TRIPP) məsələsini beynəlxalq gündəmə saxtalaşdırılmış nüsxə kimi təqdim etməyə başlayıb. Bu dəfə siyasi səhnədə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyandır. O, Almaniyanın "Deutsche velle" nəşrinə verdiyi müsahibəsində iddia edib ki, Azərbaycan, guya Qərbi Zəngəzurdan keçəcək dəmir yoluna üçüncü ölkənin, yəni Rusiyanın hərbi qüvvələrini yerləşdirmək istəyib. Mirzoyanın sözlərinə görə, rəsmi Bakı bu əraziyə "ekstraterritorial dəhliz statusu" verməyə çalışıb, lakin İrəvan bununla razılaşmayıb.**




Ermənistan XİN başçısının bəyanatı Hayastan rəhbərliyinin uzun illərdir apardığı ritorikanın davamı kimi qiymətləndirilməlidir. İrəvan bundan öncə də dəhlizi təhlükə kimi göstərmək, ölkəmizin regionda iqtisadi və kommunikasiya inteqrasiyasına yönəlmiş addımlarını hərbi təhdid kimi qələmə vermək istəyirdi. Əslində, məsələni dərindən analiz edəndə Mirzoyanın açıqlamasının istər tarixi, istər hüquqi, istərsə də diplomatik kontekstdə ziddiyyətli olduğunu görmək mümkündür. Sual yaranır ki, 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatda Zəngəzur dəhlizi məsələsi açıq şəkildə göstərilirsə, niyə Ermənistan tərəfi bu sənədi selektiv şəkildə oxumağa üstünlük verir? Halbuki həmin bəyanatın 9-cu bəndində açıq şəkildə kommunikasiyaların bərpası, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi təmin olunması məsələsi qeyd olunur. Bu maddə təkcə hüquqi deyil, həm də praktik öhdəlik yaradır. Rusiyaya verilən nəzarət mexanizmi hüququ isə dəhlizin təhlükəsizliyini təmin etmək məqsədi daşıyırdı. Yəni Mirzoyanın "Azərbaycan rus qoşunlarını ora yerləşdirmək istəyirdi" fikri reallığın təhrifindən başqa bir şey deyil. Əgər sənədin sözügedən bəndi qüvvədədirsə, bu elə Ermənistanın üzərinə düşən beynəlxalq məsuliyyətdir.

Ümumiyyətlə, Ermənistanın xarici siyasəti bir növ teatr səhnəsini xatırladır. Bir tərəfdə Mirzoyan "dəhliz yoxdur" deyir, digər tərəfdə isə baş nazir Nikol Paşinyan ABŞ-la "Tramp marşrutu" adlı layihə üzərində danışıqlardan bəhs edir. Paşinyan etiraf edir ki, 8 avqustda Vaşinqtonda ABŞ ilə razılaşma əldə olunub, lakin sonradan "Ukrayna və Yaxın Şərqdəki gərginlik" prosesi ləngidib. Maraqlıdır, "Tramp marşrutu" adlanan layihə sırf sülh və iqtisadi əməkdaşlıq layihəsidirsə, niyə onun ləngiməsi beynəlxalq hərbi-siyasi böhranlarla izah olunur? Bu onu göstərir ki, layihənin arxasında geosiyasi məqsədlər dayanır. Ermənistan ABŞ və Qərb tərəfdaşları vasitəsilə regiondakı tranzit xəritəsini yenidən dizayn etməyə çalışır. "Tramp marşrutu" ritorikası Zəngəzur dəhlizinə alternativ Qərb layihəsi kimi təqdim olunur. Paşinyan marşrutu beynəlxalq sülh və rifah üçün yeni yol kimi bəzəsə də, mahiyyət etibarilə, bu, regionun iqtisadi suverenliyini Qərbin nəzarətinə vermək cəhdidir. Yeri gəlmişkən, Azərbaycan üçün Zəngəzur dəhlizi tarixi ədalətin bərpası, Naxçıvanın blokadadan çıxarılması və Türk dünyasının quru əlaqəsinin təmin olunması anlamına gəlir. Lakin Ermənistan bu ideyanı hər dəfə "təhlükə" və "ekstraterritoriallıq" kimi təqdim etməklə regiondakı siyasi balansı pozmağa çalışır. Bəs 1990-cı illərdə ölkəmizin qərb rayonları ilə Naxçıvan arasında bütün yollar bağlananda bu, Ermənistan üçün "suverenlik" məsələsi idisə, indi həmin yolların açılması niyə "təhdid" kimi qələmə verilir? Deməli, həm tarixi yaddaş, həm də beynəlxalq hüquq ikili standartlarla manipulyasiya olunur.

Mirzoyanın Almaniya mediasına müsahibəsi təsadüfi deyil. Ermənistan bu gün Avropa auditoriyasına yönəlmiş yeni informasiya kampaniyasına başlayıb. Məqsəd Zəngəzur dəhlizini "Rusiya layihəsi" kimi təqdim edib Qərb ölkələrində anti-Azərbaycan rəyi formalaşdırmaqdır. Daha dəqiq desək, klassik dezinformasiya diplomatiyasıdır. Çünki Ermənistan rəhbərliyi çox yaxşı bilir ki, dəhlizin hüquqi və iqtisadi strukturu Azərbaycanın suverenliyi çərçivəsində formalaşır. Heç bir "ekstraterritorial" statusdan söhbət gedə bilməz. Əksinə, dəhliz açıldığı halda Ermənistan özü iqtisadi fayda əldə edə bilər ki, bunlara regionun tranzit mərkəzinə çevrilmək, gömrük gəlirlərindən pay almaq, Türkiyə və Azərbaycan bazarlarına çıxış qazanmaq imkanı daxildir. Lakin rəsmi İrəvan bu perspektivdən də qorxur. Çünki Zəngəzur dəhlizi (TRIPP) Ermənistanın illərlə qurduğu blokada narrativini darmadağın edir.

Azərbaycanın dəhliz siyasəti hüquqi sənədlərə və beynəlxalq öhdəliklərə əsaslanır. Rəsmi Bakı heç vaxt üçüncü ölkənin ordusunun yerləşdirilməsi kimi absurd tələb irəli sürməyib. Sadəcə, 10 noyabr sənədində nəzərdə tutulan təhlükəsizlik mexanizminin icrasını tələb edib. Dəhlizin açılması Azərbaycanla yanaşı, bütün regionun rifahına xidmət edən layihədir. İrəvanın tez-tez işlətdiyi "Tramp marşrutu" ifadəsi də, əslində, semantik manipulyasiyadır. Dəhliz anlayışı hüquqi öhdəlik daşıyır, marşrut isə sadəcə, iqtisadi niyyət. Ermənistan bu dəyişikliklə öz üzərinə düşən məsuliyyəti aradan qaldırmaq istəyir. Beynəlxalq hüquqda "terminoloji qaçış" adlanan bu davranış ölkələrin öhdəlikdən yayınmaq üçün üz tutduğu yoldur. Lakin tarix və reallıq dəyişmir. Ermənistan istəsə də, istəməsə də Qərbi Zəngəzurdan keçəcək nəqliyyat xətti regionun geosiyasi xəritəsində artıq var.

Sonda qeyd edək ki, tarixi reallıqların qarşısını informasiya manipulyasiyası ilə almaq mümkün deyil. Ermənistan rəhbərliyi nə qədər marşrut ifadəsini təkrarlasa da, dəhliz məntiqi artıq beynəlxalq hüquq və regional iqtisadiyyat səviyyəsində formalaşıb. Zəngəzur dəhlizi (TRIPP) regionun gələcək sülh xəritəsidir. Ona qarşı çıxmaq, sülhə qarşı çıxmaqdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*




**Yeganə HACIYEVA,**
**politoloq**

Ermənistan tərəfinin hələ də sülh sazişinin imzalanması məsələsində müəyyən tərəddüdləri mövcuddur. Bu tərəddüd əsasən daxildəki müxtəlif qrupların təzyiqinin nəticəsidir. Onlar formal şəkildə daxili siyasi landşaftın tərkib hissəsi olsalar da, əslində, kənar maraqların təmsilçiləridir. Ümumilikdə, elə bir təəssürat yaranır ki, Ermənistan hakimiyyətində ölkənin və xalqın maraqlarına səmimi şəkildə xidmət edən təmiz siyasətçi və ya siyasi güc, demək olar ki, yoxdur. Əksinə, "ümumerməni maraqları" adlandırılan, lakin regiona kənar müdaxiləni legitimləşdirmək məqsədi daşıyan saxta və manipulyativ ideyalar hakimiyyət səviyyəsində təmsil olunur. Bu qruplar idarəçiliyi başqa dairələrin əlində olan qüvvələrin maraqlarını "ümumerməni maraqları" adı altında təqdim edən, psevdopatriotik dairələrdir. Ona görə də Ermənistan daxilindəki həmin qruplar Azərbaycanla sülh sazişinə və Türkiyə ilə münasibətlərin normallaşmasına qarşı davamlı şəkildə müqavimət göstərirlər. Bu dirənişin səbəbi açıqdır: həm Azərbaycan, həm də Türkiyəyə qarşı əsassız ərazi iddiaları və tarixi təhriflər üzərində qurulmuş ideyalar hələ də bu qrupların ideoloji dayaq nöqtəsidir. İddialar erməni lobbiləri, diaspora təşkilatları və xaricdə fəaliyyət göstərən siyasi qurumlar tərəfindən səsləndirilir.

Məhz bu səbəbdən Ermənistan rəsmilərinin xarici auditoriyaya yönəlmiş çıxışlarında bu təsir aydın hiss olunur. Onlar çox vaxt beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə təhrif olunmuş və birtərəfli məlumatlar təqdim edirlər. Bu çıxışların əsas məqsədi regiona üçüncü qüvvələrin daxil olmasını legitimləşdirməkdir. Əslində isə regionda üçüncü ölkələrin hərbi və ya siyasi iştirakına dair təkliflərin böyük əksəriyyəti məhz Ermənistan tərəfindən irəli sürülür. Ermənistanın 42 kilometrlik yolu 98 illik icarə müqaviləsi ilə ABŞ-a vermək təşəbbüsü bu siyasətin bariz nümunəsidir. Azərbaycan isə hər hansı üçüncü qüvvənin regionda yerləşməsinə qəti şəkildə qarşı çıxıb. Bakı üçün bu, dövlətin milli maraqlarına zidd hesab olunur və buna heç vaxt razılıq verilməyib.

# Çamadanlarınızı qablaşdırın!

## *Aİ-nin "binokllu diplomatlar"ı haranı və nə üçün monitorinq etdiklərini özləri də bilmirlər*

**Ermənistanda yerləşdirilən Avropa İttifaqının (Aİ) "mülki" müşahidə missiyasının yaranma şəraiti və məramı barədə dəfələrlə bəhs etmişik. Paradoksallıq ondadır ki, Avropa siyasi texnoloqlarının özləri bu missiyanın funksiyasını nə qədər çox vurğulamağa çalışırlarsa, bir o qədər çox şübhələr yaranır. Əgər missiya həqiqətən də mülki xarakter daşısaydı, onun xarakteri bu qədər vurğulanmaz, öz-özünə anlaşılan normal hal kimi hamı tərəfindən qəbul edilərdi. İntəhası, bu missiyanın adının bunca hallanması müxtəlif suallar və maraqlı assosiasiyalar doğurur.**

Məsələn, missiyanın həqiqi məqsədləri və Ermənistandakı fəaliyyəti barədə ciddi suallar var. "Mülki" adlandırılmasına baxmayaraq, missiyanın tərkibində istefada olan hərbi mütəxəssislərin, polis jandarmlarının yer alması heç də sülhə töhfə verəcək dinc fəaliyyətindən xəbər vermir. Bu faktlar o zaman Fransanın dominantlıq etdiyi Aİ-nin regionda sabitliyi pozmaq və yeni gərginlik ocaqları yaratmaq cəhdi kimi qiymətləndirilməlidir.

Aİ-nin Ermənistandakı Monitorinq Missiyası (EUMA) sosial mediada yazı dərc edərək, həyata keçirdiyi fəaliyyətinin nəticəsini məmnun halda "böyük mərhələ" adlandırıb. Hesabatda deyilir ki, Aİ-nin 25 üzv ölkəsindən və Kanadadan olan 200 nümayəndəsi Ermənistanla Azərbaycan arasındakı sərhəddə "gecə-gündüz patrul" xidməti aparmaqla məşğuldir. İlk baxışda bu sözlərin iftixar və pafosla deyildiyi kimi səsləndiyi təsəvvürü yarana bilər. Az qala, Aİ-nin dünyanı yenicə nüvə müharibəsindən xilas etmiş kimi səslənir. Bütün diplomatik incəlikləri bir kənara qoysaq, deməliyik ki, EUMA-nın bu bəyanatı açıq şəkildə kin və təxribat xarakteri daşıyır. Bunun adı siyasi təxribat və rüsvayçılıqdır. Çünki bu missiya Azərbaycanın razılığı olmadan Ermənistan ərazisində yerləşdirilib və bununla da qonşu dövlətin suverenliyinə hörmət tələb edən beynəlxalq hüququn fundamental prinsipləri pozulub. Həm də ona görə təxribat xarakteri daşıyır ki, bu bəyanat Azərbaycanın deklorativ deyil, həqiqi sülhə hazır olduğunu və bu yöndə konkret addımlar atdığı bir vaxtda ortaya çıxıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfəri zamanı birmənalı şəkildə bəyan etdi: "Azərbaycan Ermənistana yüklərin tranzitinə işğaldan sonra mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb və ilk belə tranzit yükü Qazaxıstan taxılının daşınması olub". Başqa sözlə desək, ölkəmiz təkcə sülhdən danışmır, həm də onun əldə olunması üçün real hərəkətə keçib. Otuz ilə yaxın ərazisinin 20 faizi Ermənistanın işğalı altında olan, yerüstü, yeraltı sərvətləri vəhşicəsinə talan edilən, mədəni irsi dağıdılan Azərbaycan dövləti öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən dərhal sonra məğlub Ermənistana özünün sülh gündəmini təqdim etdi. Bu zaman Bakı dünyanın aparıcı güclərinin, o cümlədən hazırda fəaliyyətini dayandırmış ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin tutduqları erməniپərəst mövqeyə baxmayaraq, bu addımı atdı. Yeri gəlmişkən, həmin həmsədr ölkələrdən biri də üç ilə yaxındır Ermənistanda "binokllu diplomatları" yerləşdirən Fransa idi. Bəli, düçar edildiyi məhrumiyyətlərə, yaşadığı ağrılara və ədalətsizliyə baxmayaraq, Azərbaycan sülhün bərqərar olmasına sadiqliyini nümayiş etdirdi və bu gün Ermənistana yüklərin daşınması üçün dəhliz açdı. Bu fonda EUMA-nın "mülki" sərhəd patrulları ilə bağlı "qürurlu" bəyanatı nəinki tamamilə yersiz səslənir, həm də ikiüzlü və təhlükəli görünür. Çünki belə bəyanatlar regionda gərginliyin hələ də davam etdiyi, xarici müdaxilənin tələb olunduğu illüziyasını yaradır. Əlbəttə, bütün bunlar sırf manipulyasiyadır, məqsəd də kifayət qədər şəffafdır: Avropa Cənubi Qafqazın gündəminə nəzarəti öz əlində saxlamaq, özünü "sabitliyin təminatçısı" kimi göstərmək istəyir. Baxmayaraq ki, faktiki olaraq bölgədə sabitliyi pozan məhz onun müdaxiləsidir.

Bir daha xatırlatmaq istərdik ki, EUMA Azərbaycanın razılığı olmadan Ermənistanla ikitərəfli saziş əsasında fəaliyyət göstərir. Beynəlxalq hüquq nöqteyi-nəzərindən, yuxarıda qeyd edildiyi kimi, bu, ümumi qəbul edilmiş mənada müşahidəçi missiyası mandat statusuna malik olmayan birtərəfli təşəbbüsdür. Amma onun "regionda sülhün xilaskarı" kimi görünən nümayəndələri Azərbaycan sərhədində gəzir, durbinlə qonşu dövlətlərin ərazilərini seyr edirlər. Məhz bu amil kifayət qədər məntiqli suallar doğurur: "Bu gün sərhəddə sakitliyin hökm sürdüyünü İrəvan belə etiraf edirsə, Aİ missiyası Ermənistanı kimdən və necə "qorumağı" planlaşdırır?" "Doğma torpağında becərdiyi məhsulunu biçməyə çıxan azərbaycanlı fermerdən, yoxsa suveren Azərbaycan Respublikasının dövlət sərhədini qoruyan Azərbaycan sərhədçisindən?"



* * *

"Avropa İttifaqının mülki missiyası Ermənistan və Azərbaycan sərhədində fəaliyyətini davam etdirir". Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bu ilin yanvar ayında mətbuat konfransında demişdi. Onun sözlərinə görə, missiya iki ölkə arasında sərhədin tam delimitasiyasına qədər monitorinqi davam etdirəcək. Amma yanvardan altı ay sonra avqust gəldi və Vaşinqtonda imzalanan üçtərəfli Bəyannamə ilə Azərbaycanla Ermənistan arasında sülh sazişi paraflandı. Yəni tərəflərin daha nə "sülhyaradan vasitəçilərə", nə də "sərhəddə insidentlərin qarşısını almağı" planlaşdıran mülki missiyalara ehtiyacı var. Əgər Aİ-nin "binokllu diplomatları" həqiqətən də müşahidə missiyasını həyata keçirmək istəyirlərsə, niyə münaqişənin davam etdiyi Rusiya–Ukrayna sərhədinə, məsələn, Xarkov və Belqorod vilayətləri arasında yerləşmirlər? Orada onlar qaynar cəbhə xəttini, əsl müharibəni və "gecə patrulları"nın risklərini tez bir zamanda hiss edəcəklər.

Bir daha reallığı əks etdirən əlahəzrət faktı xatırladaq: Azərbaycan Ermənistan üçün yük tranzitini açıb, heç bir hədə-qorxu gəlmir, rabitəni və nəqliyyatın qarşısını kəsmir. Əksinə, iqtisadi əməkdaşlıq imkanları yaradır ki, bu da özlüyündə siyasi yetkinliyin, məsuliyyətin, ən başlıcası isə sülh istəyinin sübutudur. Avropanın, nəhayət, bu mövqeyinin səmimiliyinə inanması üçün Azərbaycan başqa hansı addımları atılmalıdır? Bəlkə öz sərhədlərinin açarlarını EUMA-nın patrullarına təhvil verməlidir?

Bu məqamda xatırladılması zəruri sayılan bir məqam var: Bakı artıq bütün dünyaya sülhə xələl gətirən üçtərəfli, çoxtərəfli formatların mənasızlığını sübut edib. Təxminən otuz il ərzində ATƏT-in Minsk qrupu regionu illüziyalarla qidalandırdı. Həmsədrlər gəldilər, tərəflərlə görüşdülər, hesabat-protokollarını yazdılar, bəyanatlarını verdilər və çıxıb getdilər. Amma sonda bölgəyə sülhü gətirən Avropanın kreslo diplomatları deyil, Azərbaycanın "Dəmir yumruğu" oldu.

İndi unudulmaq uçurumunda olan Minsk qrupunun aqibətinin EUMA üçün də görk olacağına inanmaq istərdik. Bu missiyanın mövcudluğunun heç bir fayda gətirmədiyini Bakı kimi İrəvan da yaxşı anlayır. Əksinə, missiyanın sərhəd zolağında qalması həqiqi sülhə yalnız ziyan vurur, etimad mühitini zədələyir. Avropanın barmağını Cənubi Qafqazın nəbzində saxlamağa hesablanmış bu siyasi təzyiq alətinin aradan qaldırılmasının, missionerlərin çamadanlarını toplamalarının vədəsi yetişib. Bu gün Azərbaycanın Ermənistandan bu missiyanın fəaliyyətini dayandırmasını tələb eməyə tam haqqı çatır.

Əgər İrəvan həqiqətən Vaşinqtonda imzaladığı Birgə Bəyannamənin müddəalarına, yəni sülhə sadiqdirsə, nəqliyyat və iqtisadi əlaqələri inkişaf etdirmək istəyirsə, qarşılıqlı etimadın yaradılmasında maraqlıdırsa, o zaman şərti sərhədə Brüsseldən göndərilən "durbinli diplomatlara", şübhəli təlimatları yerinə yetirən "mülki" müşahidəçilərə "Çamadanlarınızı hazırlayın!" deməyi bacarmalıdır.

***İ.HƏSƏNQALA***
***XQ***

# Milli Məclisdə elmi-praktik konfrans

**Oktyabrın 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr edilən "Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik" mövzusunda konfrans keçirilib.**



Komitə sədri Azər Əmiraslanov tədbiri açaraq, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, müzəffər Ordumuzun rəşadəti nəticəsində Azərbaycanın Vətən müharibəsində Qələbə qazanaraq dövlət suverenliyini bərpa etdiyini, regionda yeni reallıqlar yaratdığını bildirib. Komitə sədri suverenliyin iqtisadi əsaslarının möhkəmləndirilməsinin qarşıda duran mühüm vəzifələrdən biri olduğunu deyib. Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsasının Ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Ziyad Səmədzadə bu gün Azərbaycan dövlətinin dünyada mövqelərinin möhkəmləndirilməsinin, ölkəmizin qlobal təhdidlərə qarşı mübarizəsinin, milli maraqlara uyğun siyasətin həyata keçirilməsinin, hərtərəfli tərəqqinin təməlində Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strategiyanın dayandığını, iqtisadi müstəqilliyimizin formalaşmasında onun əvəzsiz rolunu vurğulayıb.

Auditorlar Palatasının sədri Vahid Novruzov bildirib ki, iqtisadi müstəqilliyin mahiyyəti dövlətin müstəqil iqtisadi siyasətin həyata keçirilməsində, təbii sərvətlərdən səmərəli istifadənin təmin edilməsində rolunu nəzərdə tutur. O, iqtisadi müstəqilliyin qarşısında duran məsələlərin dövlət quruculuğu prosesində əhəmiyyətindən danışıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli də mövzu ilə bağlı fikirlərini açıqlayıb. O, iqtisadi münasibətlərin hüquqi normalarla tənzimlənməsi, ölkədə iqtisadi və hüquqi sahədə islahatların paralel olaraq həyata keçirilməsi nəticəsində uğurların əldə edildiyini bildirib. Komitə sədri Azərbaycanın müstəqilliyinin, o cümlədən iqtisadi baxımdan müstəqilliyimizin ideya müəllifinin Ümummilli lider Heydər Əliyevin olduğunu vurğulayıb.

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov bildirib ki, müstəqilliyin ilk illərində Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində qısa müddət ərzində atəşkəsə nail olundu. Heydər Əliyev "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" ideyasına insanları inandırdı və sağlam qüvvələri öz ətrafında birləşdirdi. Hazırda Heydər Əliyev kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi, siyasi, hərbi islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı və makroiqtisadi sabitlik təmin olunub, torpaqlarımız işğaldan azad edilib, dövlət suverenliyimiz və müstəqilliyimiz tam bərpa edilib.

Konfransda Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Mərkəzi Bankın sədr müavini Əli Əhmədov, Maliyyə nazirinin müavini Azər Bayramov, Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov, Milli Məclisin deputatları Günay Ağamalı, Əli Məsimli, Asif Əsgərov, Tahir Mirkişili, Rizvan Nəbiyev, Mübariz Qurbanlı, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Dövlət Neft Fondunun icraçı direktorunun müavini Bəhruz Bəhramov, Dövlət Gömrük Komitəsi sədrinin müavini Güloğlan Muradlı çıxış ediblər. Çıxışçılar iqtisadi suverenliyin hüquqi, iqtisadi, fiskal, struktur və sosial dayaqları barədə danışıblar, dövlət müstəqilliyinin iqtisadi əsaslarının gücləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər. Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar və strateji proqramlar Azərbaycanın iqtisadi müstəqilliyini və suveren inkişaf modelini möhkəmləndirir.

*XQ*

# Azərbaycan–Estoniya əməkdaşlıq müzakirəsi



**Oktyabrın 22-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Estoniyanın xarici işlər naziri Marqus Tsahkna ilə görüşüb.**

Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Görüşlərdə – Azərbaycan–Estoniya ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər, habelə regional və qlobal məsələlər müzakirə edilib. Ölkələrimiz arasında siyasi dialoqun və qarşılıqlı səfərlərin davam etdirilməsi, hüquq-müqavilə bazasının gücləndirilməsi və eləcə də parlamentlərarası təmasların intensivləşdirilməsi imkanları xüsusunda fikir mübadiləsi aparılıb.

Azərbaycan ilə Estoniya arasında iqtisadi əməkdaşlığın inkişaf perspektivlərinə toxunulub, qarşılıqlı ticarət və investisiyaların artırılması üçün böyük potensialın mövcud olduğu bildirilib. Ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlıq əlaqələrinin vacibliyi vurğulanıb.

Sonra birgə mətbuat konfransında nazirlər görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış ediblər.

*XQ*

# Estoniyanın xarici işlər naziri Zəfər parkını ziyarət edib

**Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahkna oktyabrın 22-də Bakıdakı Zəfər parkını ziyarət edib.**

Burada qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Nazir parkdakı Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

*XQ*

# Türk dünyasında elmin perspektivləri: AMEA-nın yeniləşmə kursu kontekstində

## IV MƏQALƏ

### Rəqəmsallaşmanın elm və təhsilə təsiri

Məsələnin bu cür qoyuluşu göründüyü kimi sadə və bəsit həll edilə bilən deyildir. Çünki söhbət cəmiyyət və dövlətin mövcudluğu ilə yanaşı, təkamülünün fundamental özəlliklərindən gedir. Artıq elmi camiyə rəqəmsallaşma və süni intellektin təhsillə elmin mahiyyətinə nüfuz etdiyini təhlil edir. Bunun mümkün sosial, hüquqi, təfəkkür və bütövlükdə insan kimliyi kontekstlərində düşünülməsi belə həyəcanlandırıcıdır. İnsan şüurlu varlıq kimi tamamilə dəyişə bilər ki, bu zaman variantlardan biri də toplumun və dövlətçiliyin özünəməxsusluğunun yox olması ola bilər. Buradan hər bir ölkədə elmi fəaliyyətin yaradıcılıq və institutlaşma kontekstində təşkilinin nə dərəcədə əhəmiyyətli olduğu aydınlaşır. Qısa müqayisə aparaq.



Müstəqil dövlət elə elmi yaradıcılıq və fəaliyyət (institutlaşma anlamında) istiqaməti seçə bilər ki, sürətlə texnoloji-praktiki uğura çatar, ancaq cəmiyyətin mənəvi-mədəni və sosial-psixoloji identikliyini (kimliyini, özünütəsdiq sərhədlərini) itirə bilər. Bu inkişafdır yoxsa deqradasiya? Fəlsəfi tədqiqi gərəkdir.

Başqa bir ssenaridə isə ön sıraya cəmiyyətin mənəviyyatı, əxlaqı, sosial-psixoloji, tarixi və dövləti xüsusiyyətləri kimi faktorlar çıxarıla bilər. Bu halda, elmi inkişafın sərhədlərini necə müəyyən etmək olar? Hansı faktorlar və kriteriyalar bu yanaşmada səmərəli olar? Bu suallara da cavab axtarışları zəruridir.

Ancaq söhbət konkret zaman çərçivəsində praktiki tətbiqi zərurət olan strateji fəaliyyət məqamlarını da ehtiva edən kursların hazırlanmasından gedəndə, bütövlükdə situasiya dəyişir. Çox əsaslı və məharətlə təməl prinsiplər müəyyən edilməli və elmi fəaliyyətin çərçivəsi elə müəyyənləşməlidir ki, dövlət, cəmiyyət və fərdin inkişafı təmin olunsun. Burada AMEA-nın vurğuladığımız ilk üç prioritet istiqamətlərinin başqa çox əhəmiyyətli funksiyası üzərində dayanmaq lazımdır.

Bu baxış bucağında hansı səbəblərdən elmi təşkilat rəhbərliyinin rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik kimi dəbdə olan məsələləri birinci və ya ikinci deyil, məhz üçüncü sıraya çəkmişdir. Həm də bu vacib elmi inkişaf xəttini Prezident İlham Əliyevin strateji inkişaf kursu çərçivəsində Azərbaycançılıq və Türk Dövlətləri Təşkilatında (TDT) elmi tərəqqi məsələlərindən dərhal sonra təqdim etmişdir. Bu məqamın fəlsəfəsi nədən ibarətdir?

### Dövlətçilik "sahəsi"ndə kəsişmə "zonası"

Bu mövzuda öncəki məqalələrimizdən aydın görünür ki, AMEA üçün yeniləşmənin əsas istiqaməti Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu ilə bağlıdır. Bu bağlılıqda AMEA azərbaycançılıq məfkurəsini əhatəli tədqiq etməklə bütövlükdə ölkə elmi camiyəsində Azərbaycanşünaslığın mərkəzi (yəni aparıcı, əsas, istiqamətverici təşkilat) olmağı hədəfləmişdir.

Bu yanaşmanın fəlsəfəsinin nüvəsini ölkənin baş elmi təşkilatının sosio humanitar elmlər üzrə (yaradıcılıq və elmi fəaliyyətin təşkilinin sintezində) fəaliyyətinin bütün hallarda Azərbaycançılığın ideya, məfkurə və hədəf kimi idrakı və dövləti "hüdudlarından" kənara çıxmayacağı təşkil edir. Təkrar vurğulamaq istərdik: bu, ideoloji çərçivə deyil, Azərbaycan aliminin və elmin insitutlaşması ruhunun rasional, məntiqi, tam elmyüklü dərketmə və institutlaşma ontologiyasıdır (söhbət sosio humanitar elmlərdən gedir). Bu sərhəddən kənara çıxan ən yaxşı ideya belə, sual yarada bilər və qeyri-adekvat hesab oluna bilər.

Bu Ana Magistral Elm Yolunun strateji hədəfi də dəqiq müəyyən edilmişdir: Azərbaycanşünaslıq tariximizdə ilk dəfə olaraq ideoloji təməldən ayrılıb, dövlətçilik naminə elmi dərketmə müstəvisində ön sıraya çıxarılır. Bu anlamda Azərbaycanşünas olmaq siyasi-coğrafi sərhədlər daxilində "idrakı funksionallıq" hüdudlarında var-gəl etmək demək deyildir. Həmin xəyali sərhəddən kənara çıxmamaq kimi yaradıcılıq qarşısına sərhəd qoymaq demək deyil.

Əksinə, elmi yaradıcılığı və institusional formalaşmanı daim inkişaf etdirmək, təkmilləşdirmək yolu ilə müasir sosio mədəni elmin yüksək üfüqlərinə can atmaqdır. Bu zaman, anlamaq və unutmamaqdır ki, elm müstəqil güclü dövlətçilik fonunda Azərbaycançılıq, Azərbaycanşünaslıq "qiyafəsi"ndə alimliklə məfkurəçiliyi sintez etməlidir.

Burada ideyadan nəzəri təlimə (konsepsiyaya, nəzəriyyəyə) əhəmiyyətli transformasiya əsasında məfkurəçiliyin ontologiyasına keçid məqamı mövcuddur. Bununla azərbaycançılıq-azərbaycanşünaslıq-məfkurəçilik "məntiqi-rasional" idraki xəttində elmi yaradıcılıqda biliyin alınması ilə onun dövlətçilik aspektində konseptuallaşmasının "elmi ontolojiləşməsi"nin təməli qoyulur. Müasir elmi idrakımız üçün strateji mahiyyətli tarixi hadisədir.

Yeniləşmə kursunun ilk iki müddəasının fəlsəfi mahiyyətinin mühüm bir cəhəti isə üçüncü prioritetin məzmunu fonunda aydın görünür.

### Elmi vizyonun genişlənməsi

Birinci prioritet istiqamətin idraki "hüdudu" maraqlı tərzdə ikinci istiqamət vasitəsilə genişlənmişdir. Burada əhəmiyyətli cəhət ondan ibarətdir ki, AMEA rəhbərliyi bu idraki genişlənməni də dövlətçilik strategiyası çərçivəsində həyata keçirməyi bacarmışdır. Belə ki, elmi yaradıcılığın nəzəri-konseptual və metodoloji əhatəlilik miqyasının Türk dünyası kontekstində genişlənməsi, birinci prioritet istiqamətdəki Azərbaycançılıq və Azərbaycanşünaslığın idrakı və ruhani hüdudları üzərində həyata keçirilir.

Belə ki, TDT miqyasında da Azərbaycançılıq məqamı mərkəzi yer tutur. Çünki eyni səviyyə və ortaq məqsəddə olduğu türkiyəçilik, qazaxıstanlılıq, özbəkistançılıq, qırğızıstançılıq və digərləri ilə ziddiyyət təşkil etmir. Əksinə, onlarla sinerjidə Türk dünyasında elmi tədqiqatları və elmi fəaliyyətin təşkilini ən müasir səviyyəyə yüksəltmək üçün imkanlar yaradır.

Buna görə də ikinci istiqamət kimi akademiyada da Türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsini, bu sahədə konkret proqramların hazırlanıb həyata keçirilməsini ehtiva etməsi nəzəri-metodoloji özəlliklərin geosiyasi aspektdə yaradıcı fəaliyyətə transformasiyanın maraqlı nümunəsidir. Bununla AMEA yeniləşməsi kursunun yaradıcı və təşkiledici sferalarında birinci istiqamətin ümumi çətiri altında ikinci "müdafiə-sərhəd" xətti qurulmuş olur. Bunun dövlətçilik və elm üçün faydası nədir?

### Mənəviyyatsızlaşma riskinin sıfırlanması

Əlbəttə, müasir yüksək texnologiyalar və yeni sosial memlər (kodlar, obrazlar) olmadan davamlı tərəqqidən danışmaq mücərrəd işdir. Rəqəmsallaşma, süni intellektin tətbiqi və kibertəhlükəsizlik məsələsi bu sırada aparıcı rol oynayırlar. Deməli, AMEA üçün üçüncü prioritetin bu kimi ən müasir elmi yeniliklər kontekstində müəyyən edilməsi tamamilə zəruri və rasionaldır.

Burada üçüncü prioritetin ilk iki prioritet istiqamət fonunda koqnitiv və motivəedici funksiyası xüsusi məna daşıyır. Belə ki, yüksək elmi-texnoloji trend bütün hallarda həm elmi yaradıcılığın, həm də AMEA-nın yeniləşmə miqyasının iki prioritetin müəyyən etdiyi sərhədlərdən kənara çıxması riskini sıfırlayır. Bütün hallarda güclü dövlət quruculuğu strategiyası və Azərbaycançılıq şərtləri əsas götürülür. Üstəlik, Türk dünyası miqyasında dövlətlərin birliyi və məfkurəvi tərəqqi sərhədi aşılmamalıdır. Deməli, AMEA faktiki olaraq elmi yaradıcılıq və elmi fəaliyyətin həm milli, həm də ümumtürk miqyaslarında yeni tələblərə uyğun təşkili modelini hazırlamışdır.

Burada vurğulanan üç prioritet elmi yaradıcılıq və fəaliyyətin təşkili kontekstlərində tam olaraq bir-birini tamamlayır. Üçüncü prioritetin cəmiyyəti mənəviyyatsızlaşdırmaq riskini ilk iki prioritet konkret kriteriyalar üzrə minimuma endirir.

Onu vurğulayaq ki, toplumsal tərəqqi ilə mənəvi-əxlaqi və digər dəyərlərin inkişafı vacib fəlsəfi-elmi problem kimi bütün dünya dövlətləri qarşısında durur. Bu əsasda sinergetiklər "NBİKS texnologiyalar"ın fəlsəfəsi məsələsini çox aktuallaşdırmışlar. NBİKS - nano-, bio-, info-, koqnitiv (nəzəri idraki)-, sosio- texnologiyaların vəhdətini ifadə edir. Buraya sonuncu "sosio"nun əlavə edilməsi məhz cəmiyyətin mümkün mənəviyyatsızlaşması riskini aradan qaldırmaq üçündür.

Bizim üçün əhəmiyyətli olan məqam ondan ibarətdir ki, AMEA Türk dünyasında məsələni bu cür geniş əhatədə və harmoniyada qaldıraraq, onu konseptullaşdıran, nəzəri ilə praktiki-tətbiqi aspektləri vahid ziddiyyətsiz struktur-funksional formaya salan ilk elmi təşkilatdır!

### Yekun qənaət

Türk dünyasında elmin perspektivləri konseptual və sistemli yanaşma tələb edən problemdir. Bizcə, bu, hər şeydən öncə, iki səbəbə görə problemdir. Birincisi, elm Türk dünyası üçün strateji mahiyyət kəsb edən sahədir və nə qədər ki, bu dünya var həmin vəzifə də qarşıda dayanacaqdır. Yəni həlli kəsilməz prosesdir. İkincisi, hər tarixi mərhələdə bu problemin uğurlu həlli uyğun konsepsiya nümunəsi hazırlamağı tələb edir. Çünki həm elmdaxili məntiqi özəllik, həm də geniş miqyasda geosiyasi dinamika daim yenilənir. Deməli, buna uyğun da konsepsiyalar hazırlanmalıdır ki, real şərtlər daxilində konkret fəaliyyət göstərməyin "elmi kompası" türklərdə olsun. İndiki mərhələdə elm bəşəriyyət üçün o dərəcədə əhəmiyyətli olmuşdur ki, faktiki olaraq bütün kosmosa insan elmi-texnoloji "eynəkdən" baxır. Hazırda alimlər "kosmotexnisizm"dən bəhs edir, inkişafı bu kriteriya prizmasında qiymətləndirir.

Hətta bir sıra tədqiqatlarda bütövlükdə bəşəriyyətin Böyük Antropoloji Keçid edəcəyini proqnozlaşdırırlar. Yəni süni intellekt, yeni yüksək texnologiyalar insanın özünün mahiyyətini, psixologiyasını, yaşam fəlsəfəsini, dünyagörüşünü, sosial-mədəni həyatını kökündən dəyişə bilər. Bu Böyük Keçidi "sinqulyarlıq", yəni tamamilə yeni keyfiyyət səviyyəsinə yüksəliş adlandırırlar. Bu o deməkdir ki, sinqulyar nöqtədə və ya zonada ona qədər olan heç bir fəlsəfi və elmi krtiteriya yaranmış vəziyyəti adekvat dərk etməyə yetərli olmayacaq.

Bu fikirlərin işığında AMEA-nın yeniləşmə kursu, 2030-cu ilə qədər olan strateji inkişaf konsepsiyası və 2025-2030-cu illər üçün elmi-təşkilati fəaliyyəti üzrə Yol Xəritəsi ən azı dörd mühüm məsələni aktuallaşdırır və predmetik reallaşma kontekstində gündəmə gətirir.

Birincisi, AMEA milli miqyasda elmin davamlı (qalıcı) tərəqqisinin dövlət quruculuğu strategiyası çərçivəsində əsas parametrlərini müəyyənləşdirir.

İkincisi, ölkənin digər təşkilatlarını analoji addımlar atmağa dəvət edir.

Üçüncüsü, bu prosesi Türk dünyası səviyyəsinə genişləndirməyin nəzəri, konseptual və predmetik-tətbiqi şərtlərini formalaşdırır.

Dördüncüsü, hər bir türk dövlətinin elmi təşkilatının bütövlükdə elmi fəaliyyətə daha faydalı ola bilməsi üçün qiymətləndirmə modeli təklif edir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 299**

**Bakı şəhəri, 13 oktyabr 2025-ci il**

**"İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 iyun tarixli 180 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 iyun tarixli 180 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 843 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə "və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti" sözləri ", "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"nın 2.7-ci bəndində "və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti" sözləri ", "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (işğaldan azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarına münasibətdə)" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2131 nömrəli Fərmanının 1-ci hissəsinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarına istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara istehlak olunan kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) üzrə maliyyə yardımının 2023-cü il yanvarın 1-dən ödənilməsi üçün tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 302**

**Bakı şəhəri, 20 oktyabr 2025-ci il**

**"Xudat şəhərinin 2042-ci ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xudat şəhərinin 2042-ci ilədək inkişafına dair Baş planı" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 305**

**Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

**"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 110-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 332 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 110-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 332 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"na 3 nömrəli Əlavə - "Əmək pensiyasına qulluq stajına görə əlavələrin hesablanması üçün arayış"ın cədvəl hissəsinə "İxtisas dərəcəsinə" sözlərindən sonra "(xüsusi və ya diplomatik rütbəyə)" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 341 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1075 (Cild I); 2025, № 4 (I kitab), maddə 389) ilə təsdiq edilmiş "Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası"nın 1.1-ci bəndində və 2.1.1-ci yarımbəndində "əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin" sözləri "orqanı əməkdaşlarının" sözləri ilə əvəz edilsin.

**3.** "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 319 (Cild I); 2024, № 4, maddə 454; 2025, № 6, maddə 598) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

3.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nın 1.1-1.3-cü bəndlərində ismin müvafiq hallarında "əməkdaşları və inzibati-texniki xidməti həyata keçirən şəxslər" sözləri ismin müvafiq hallarında "orqanı əməkdaşları" sözləri ilə əvəz edilsin.

**4.** "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 62 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 325 (Cild I); 2024, № 4, maddə 454; 2025, № 6, maddə 598) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

4.2. həmin Qərarla təsdiq edilmiş "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası" üzrə:

4.2.1. 1.1-ci və 1.3-cü bəndlərdə "əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin" sözləri "orqanı əməkdaşlarının" sözləri ilə əvəz edilsin;

4.2.2. 7.1.4-cü yarımbənd üzrə:

4.2.2.1. "əməkdaşları və inzibati-texniki xidməti həyata keçirən şəxslər" sözləri "orqanı əməkdaşları" sözləri ilə əvəz edilsin;

4.2.2.2. 1-ci abzasda "başçısı" sözü "rəhbəri" sözü ilə əvəz edilsin;

4.2.2.3. 2-ci abzasda "vəzifə tutan şəxslər" sözləri "xidmət əməkdaşları" sözləri ilə əvəz edilsin;

4.2.2.4. 3-cü abzasda "xidməti həyata keçirən şəxslər" sözləri "xidmət əməkdaşları" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 308**

**Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

**"Ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İcra xidmətinin icra məmurlarının xüsusi Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2000-ci il 19 iyun tarixli 105 nömrəli və "Cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" 2021-ci il 28 aprel tarixli 120 nömrəli qərarlarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 iyul tarixli 445 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

**2.** "İcra xidmətinin icra məmurlarının xüsusi Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 19 iyun tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 470 (Cild I); 2025, № 8, maddə 800) ləğv edilsin.

**3.** "Cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 aprel tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 423 (Cild I); 2024, № 3, maddə 303) ləğv edilsin.

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, ədliyyə orqanlarının xüsusi xəzinə hesabının açılması ilə eyni gündə icra xidməti icra məmurlarının xüsusi fondunda qalan vəsaitin və cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin xəzinə hesablarında qalan hissəsinin ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 304**

**Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 iyun tarixli 299 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 333 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 iyun tarixli 299 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 719; 2025, № 7, maddə, 730) ilə təsdiq edilmiş "Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 3.6-cı bəndinin ikinci cümləsində "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 306**

**Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

**"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169; 2025, № 2, maddə 182, № 4 (II kitab), maddə 412, № 7, maddə 721) 2-ci hissəsində "2025-ci il oktyabrın" sözləri "2026-cı il yanvarın" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 307**

**Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

**"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172; 2025, № 2, maddə 183, № 4 (II kitab), maddə 413, № 7, maddə 724) 2-ci hissəsində "2025-ci il oktyabrın" sözləri "2026-cı il yanvarın" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Cızzaxda III Özbəkistan–Azərbaycan Akademik Forumu

**Cızzax Dövlət Pedaqoji Universitetində III Özbəkistan–Azərbaycan Təhsil, Elm və İnnovasiyalar Akademik forumu keçirilib.**

Özbəkistan və Azərbaycanın akademik əməkdaşlığı: qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir. Cızzax Dövlət Pedaqoji Universitetinin rektoru Məqsudcon Yuldaşev isə çıxışında qeyd edib ki, üç il ərzində forum



"Təhsil diplomatiyanın körpüsü kimi: Özbəkistan–Azərbaycan akademik və mədəni əməkdaşlığının 30 illiyi" mövzusunda keçirilən tədbir Özbəkistan və Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi, Azərbaycanın Müstəqilliyin Bərpası Günü və özbək dilinin dövlət dili kimi qəbul edilməsinin ildönümü münasibətilə təşkil edilib.

Tədbirin təşkilatçıları sırasında Özbəkistan Ali Təhsil, Elm və İnnovasiyalar Nazirliyi, Cızzax Dövlət Pedaqoji Universiteti, Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi yer alıb.

Özbəkistan Ali Məclisi Senatının Elm, təhsil və səhiyyə məsələləri komitəsinin sədri Baxrom Abdullayev çıxışında qeyd edib ki, bu kimi elmi platformalar yalnız akademik əlaqələrin inkişafına deyil, həm də gənclərin intellektual potensialının artırılmasına, iki ölkə arasında dostluq və Özbəkistan və Azərbaycanın akademik çevrələri arasında səmərəli dialoq üçün sabit və etibarlı platformaya çevrilib.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru, tarix üzrə fəlsəfə doktoru Akif Marifli Azərbaycanla Özbəkistanı birləşdirən ortaq tarixi kökləri, mənəvi dəyərləri, ortaq dil birliyimizi və çoxəsrlik dostluğu xatırladaraq, bu kimi tədbirlərin humanitar sahədə qarşılıqlı anlaşmanı və mədəni yaxınlığı daha da gücləndirdiyini qeyd edib.

Forumun bölmə iclaslarında 100-dən artıq professor, müəllim və alim iştirak edib, təhsil, diplomatiya, tarix, ədəbiyyat və folklor mövzularında məruzələr edərək ölkələr arasında elmi və mədəni əlaqələrin inkişafında görülən işləri yüksək qiymətləndiriblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Baltikyanı ölkələrin də Azərbaycana marağı artır

**Bakıda "Mərkəzi Baltikyanı – Azərbaycan" biznes forumu keçirilib. Məclisdə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş katibi Ziya Hacılı bildirib ki, Azərbaycan, Latviya, Estoniya və Finlandiya sahibkarlarının B2B formatında keçirilən görüşləri çərçivəsində təşkil olunan işgüzar forum və imzalanan sənədlər ölkələrimizin biznes subyektləri arasında iqtisadi tərəfdaşlığın möhkəmlənməsində yeni mərhələ olacaq.**




Qeyd olunub ki, Baltik və Şimali Avropa ölkələri innovativ iqtisadiyyatları, dayanıqlı sənaye modelləri və qabaqcıl rəqəmsal həlləri ilə bütün dünyada tanınır. Azərbaycan isə öz növbəsində Cənubi Qafqazın iqtisadi mərkəzi, enerji, nəqliyyat, logistika və müasir kənd təsərrüfatı sənayesində regional lider kimi yeni əməkdaşlıq imkanları təqdim edir. Ziya Hacılının sözlərinə görə, bu razılaşmalar sadəcə rəmzi xarakter daşımır, əksinə, işgüzar dairələr arasında uzunmüddətli və institusional əməkdaşlıq üçün praktiki bir "yol xəritəsi" rolunu oynayır.

Forumda bildirilib ki, birgə fəaliyyət üçün real potensial "yaşıl enerji" və bərpaolunan texnologiyalar, rəqəmsal iqtisadiyyat və innovativ ekosistemlər, o cümlədən startap sahəsində əməkdaşlıq, eləcə də kənd təsərrüfatı və qida sənayesi kimi əsas istiqamətlər də mövcuddur.

Estoniyanın Azərbaycandakı səfiri Vayno Reynart çıxışında qeyd edib ki, Azərbaycan regionda baş verən son geosiyasi dəyişikliklər fonunda logistika baxımından getdikcə daha vacib rol oynayır və Asiya ilə Avropa arasında körpü funksiyasını yerinə yetirir. Səfir, həmçinin ölkəsinin Şərq-Qərb arasında nəqliyyat dəhlizlərinin, o cümlədən Azərbaycan üzərindən keçən Orta Dəhlizin inkişafını dəstəklədiyini vurğulayıb. O, foruma qatılan Estoniya şirkətlərinin azərbaycanlı tərəfdaşlarla əməkdaşlığa, xüsusilə rəqəmsal transformasiya və "yaşıl texnologiyalar" sahəsinə maraq göstərdiyini bildirib.

Latviyanın ölkəmizdəki səfiri Edqars Skuya isə Mərkəzi Baltik dövlətləri ilə Azərbaycan arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu, bunun biznes, texnologiyalar və "yaşıl enerji" sahəsində tərəfdaşlığın uğurlu nümunəsinə çevrildiyini diqqətə çatdırıb. Səfir 2 il əvvəl oktyabr ayında Estoniya, Finlandiya və Latviyadan olan şirkət nümayəndələrinin ilk dəfə Azərbaycana səfər etdiklərini və həmin vaxt forumlar, müzakirələr və B2B görüşlərinin keçirildiyini xatırladaraq bunun 4 ölkənin sahibkarları arasında möhkəm əlaqələrin qurulmasına, bilik və təcrübə mübadiləsinə, bazar imkanlarının öyrənilməsinə töhfə verdiyini, ticarət-iqtisadi əməkdaşlıq üçün yeni perspektivlər açdığını bildirib.

Finlandiyanın Cənubi Qafqazdakı səfiri Kirsti Narinen isə çıxışında ölkəsinin "yaşıl enerji", enerji səmərəliliyi və liman infrastrukturunun rəqəmsallaşması sahələrində Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu vurğulayıb. Qeyd olunub ki, Finlandiya Avropa İttifaqının layihələri, o cümlədən "yaşıl enerji" dəhlizləri çərçivəsində Avropa ilə Qafqaz arasında nəqliyyat və enerji əlaqələrinin gücləndirilməsini dəstəkləyir.

Finlandiyanın energetika sahəsində özünü təmin edən ölkə olduğunu vurğulayan səfir bu şəbəkələrin necə qurulması və bərpaolunan enerji mənbələrinin inteqrasiyası ilə bağlı Azərbaycan tərəfi ilə texniki təcrübəni bölüşə biləcəklərini bildirib. Kirsti Narinen Azərbaycanda fəaliyyət göstərən "Wärtsilä" fin şirkətinin istilik elektrik stansiyalarının modernləşdirilməsi ilə məşğul olduğunu xatırladıb: "Biz bərpaolunan enerji və onunla bağlı texnologiyalar istiqamətində, eləcə də enerji səmərəliliyinin artırılması yönündə irəliləyirik. Bu da Avropanın "yaşıl keçid" çərçivəsində əməkdaşlığın əsas istiqamətidir", – deyə o qeyd edib. Diplomatın sözlərinə görə, bu cür biznes-forumlar və görüşlər hər iki ölkənin şirkətləri arasında əlaqələrin qurulmasına kömək edir.

"Mərkəzi Baltikyanı – Azərbaycan" biznes forumu çərçivəsində, həmçinin Azərbaycan, Latviya, Estoniya və Finlandiyanın işgüzar dairələri arasında əməkdaşlığın inkişafına yönəlmiş qarşılıqlı anlaşma memorandumları imzalanıb.

### *Ekspert rəyi*

**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**



Baltikyanı ölkələr – Azərbaycan biznes forumunun əhəmiyyəti bir neçə əsas aspektdən qiymətləndirilməlidir. İlk növbədə, bu tədbir Baltik ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin genişlənməsinə, eləcə də regionlararası ticarət dövriyyəsinin artmasına mühüm imkanlar yaradır. Digər tərəfdən, Baltik ölkələri Avropa İttifaqının üzv dövlətləridir və bu baxımdan, onlar Azərbaycan üçün Avropa bazarına çıxışda mühüm körpü rolunu oynaya bilərlər.

Azərbaycanın ixrac potensialı əsasən enerji, kənd təsərrüfatı və metallurgiya kimi sahələrdə cəmləşib. Bu istiqamətlər üzrə məhsullara Baltik regionunda da tələbat yüksəkdir. Eyni zamanda, ölkəmiz beynəlxalq nəqliyyat dəhlizlərinin əsas iştirakçılarından biridir. Baltik ölkələri isə Şimali Avropaya çıxış nöqtəsi kimi strateji mövqeyə malikdir. Bu forum çərçivəsində Bakı, Riqa, Vilnüs və Tallin limanları arasında yükdaşımaların koordinasiyası, liman və dəmir yolu əlaqələrinin inkişafı kimi məsələlər müzakirə olunub. Düşünürəm ki, bu, Xəzər dənizindən Baltik dənizinədək uzanan ticarət marşrutlarının formalaşmasına xidmət edəcək.

Forumun üçüncü əsas istiqaməti investisiya və texnoloji mübadilədir. Baltik ölkələri innovasiya və rəqəmsal iqtisadiyyat sahəsində qabaqcıl təcrübəyə malikdir. Bu təcrübənin Azərbaycanda tətbiqi "startap ekosistemi", rəqəmsal xidmətlər və "ağıllı şəhər" layihələrinin inkişafına mühüm töhfə verə bilər.

Eyni zamanda, Azərbaycan enerji infrastrukturu sahəsində Baltik ölkələri üçün etibarlı və sabit investisiya mühiti yaradır. Enerji təhlükəsizliyi və "yaşıl keçid" istiqamətində əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, Baltik ölkələri Rusiyadan enerji asılılığını azaltmağa çalışır və bu kontekstdə Azərbaycan etibarlı enerji tərəfdaşı kimi ön plana çıxır.

Forumda, həmçinin bərpaolunan və alternativ enerji sahələrində əməkdaşlıq imkanları da müzakirə olunub. Bundan əlavə, turizm və mədəni əlaqələrin genişləndirilməsi, təhsil və elmi mübadilələrin təşviqi forumun diqqət mərkəzindədir. Nəticə etibarilə, bu forum təkcə böyük iqtisadi hadisə deyil, həm də geosiyasi və strateji baxımdan mühüm əhəmiyyət daşıyır. O, Azərbaycanın Avropa ilə iqtisadi əlaqələrini daha da dərinləşdirir, Cənubi Qafqaz və Baltik regionları arasında iqtisadi körpü rolunu gücləndirir.

**Azərbaycan Mərkəzi Bankı (AMB) bu il ölkə iqtisadiyyatının 2,2 faiz, o cümlədən qeyri-neft-qaz iqtisadiyyatının 3,7 faiz böyüyəcəyini proqnozlaşdırır. Bununla yanaşı, bank gələn il iqtisadiyyatın 2 faiz, qeyri-neft-qaz iqtisadiyyatının isə 4,4 faiz artacağını gözləyir. Bu və digər məsələlər barədə Mərkəzi Bankın faiz dəhlizinin parametrləri ilə bağlı qərarına həsr olunmuş mətbuat konfransında ətraflı məlumat verilib.**

# Mərkəzi Bankın inkişaf gözləntiləri

## *9 ayda valyuta ehtiyatları 14,7 faiz artıb*




Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov bildirib ki, Azərbaycanın strateji valyuta ehtiyatları 81,5 milyard ABŞ dollarına çatıb ki, bu da ilin əvvəli ilə müqayisədə 14,7 faiz çox, ötən 9 ayda isə 10,5 milyard ABŞ dolları artım deməkdir. Ölkəmizin strateji valyuta ehtiyatlarının 37 aylıq idxalı maliyyələşdirməyə kifayət etdiyini vurğulayan bank rəhbəri bunu inanılmaz yüksək göstərici kimi dəyərləndirib: "Həm bizim, həm də Dövlət Neft Fondunun valyuta ehtiyatlarının artması göstərir ki, xarici valyuta bazarında təklif tələbi üstələyir. 9 ayda müsbət saldo 230 milyon ABŞ dolları olub. Yəni əhali daha çox valyuta satır, nəinki alır".

Manatın dayanıqlılığına şübhə olmadığını vurğulayan bank sədrinin sözlərinə görə, son zamanlar əhalinin milli valyutamıza inamı xeyli artıb. Qeyd olunub ki, hazırda ölkədə dollarizasiya səviyyəsi 29 faizə düşsə də, bu sahədə əsas hədəf prosesi 20-25 faiz səviyyəsində idarə etməkdir. T.Kazımov, həmçinin bildirib ki, hazırda strateji valyuta ehtiyatlarımız geniş manat kütləsini 3,7 dəfə üstələyir.

İnflyasiyanın mövcud səviyyəsindən bəhs edən bank sədri Azərbaycanla ticarət tərəfdaşı olan ölkələrdəki bahalaşmanın ölkə daxilində qiymət artımına bu il 3,12 faiz bəndi artırıcı təsir göstərdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, daxili amillərə gəlincə isə dövlət və ev təsərrüfatlarının istehlakının artması inflyasiyaya 3,35 faiz bəndi, kənd təsərrüfatı məhsullarının bahalaşması 4,28 faiz bəndi artırıcı təsir edib. "Nəzərə alsaq ki, gələn il də dünyadakı qeyri-müəyyənliklər davam edəcək, ola bilər ki, əvvəlki templə olmasa da, qiymət artımı davam etsin", – deyə o bildirib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Mərkəzi Bankının yenilənmiş proqnozlarına əsasən, ölkəmizdə illik inflyasiyanın 2025-ci ildə 6 faiz, 2026-cı ildə isə 5,7 faiz ətrafında olacağı gözlənilir. Yeri gəlmişkən, bank iyul ayında illik inflyasiyanın bu il 5,7 faiz, gələn il isə 5,3 faiz ətrafında olacağını açıqlamışdı.

Taleh Kazımovun sözlərinə görə, bank gələn il dünya bazarında neftin 1 barelinin orta qiymətinin 64 dollar, təbii qazın min kubmetrinin orta qiymətinin isə 288 dollar olacağını proqnozlaşdırır. Xatırladaq ki, AMB-nin bu ilin iyul ayında açıqladığı proqnozlara görə, 2026-cı ildə neftin 1 barelinin və təbii qazın min kubmetrinin orta qiymətlərini müvafiq olaraq 64,6 dollar və 290 dollar səviyyəsində müəyyənləşdirmişdi.

Azərbaycan Mərkəzi Bankı tərəfindən bu il cari əməliyyatlar balansında 3,7 milyard dollar, gələn il isə 3 dollar profisit proqnozlaşdırdığını diqqətə çatdıran qurum rəhbərinin sözlərinə görə, 2025-ci ilin sonuna proqnoz cüzi artırılıb, 2026-cı ilin sonuna isə sabit saxlanılıb.

Mərkəzi Bankın öz mandatına uyğun kapital bazarları ilə bağlı işlər gördüyünü bildirən T.Kazımov ilk yarımillikdə beynəlxalq konsultantla qiymətli kağızlara dair bütün hüquqi, normativ qanun çərçivəsi beynəlxalq təcrübə ilə müqayisə etdikdə bütün fərqlərin tapıldığını diqqətə çatdırıb. "Qanunvericiliyimizdə bu istiqamətdə 300-dək təkmilləşdirmə işlərinə ehtiyac var. Sentyabr ayından başlayaraq kapital bazarlarına aid bütün qanunlara ən pis halda gələn ilin may ayında kapital bazarlarında mümkün dəyişikliklərlə bağlı artıq aidiyyəti qurumlarla son versiyanı paylaşmağı və gələn ilin sonunadək təsdiqlənməsini planlaşdırırıq", – deyə bank rəhbəri bildirib.

# BP-nin Azərbaycan ali təhsilinə növbəti töhfəsi

**BP daha beş beynəlxalq dərsliyin Azərbaycan dilinə tərcüməsini təqdim edib. Bununla da şirkətin dünyanın ən qabaqcıl akademik resurslarının Azərbaycana gətirilməsi məqsədilə nəşr etdiyi kitabların ümumi sayı 29-a çatıb.**




Bu layihə BP-nin yerli universitetlərə dünyada tanınmış qabaqcıl akademik materiallara, bilik və təcrübələrə çıxış imkanı təmin etməklə tədris və təlim prosesinin gücləndirilməsinə dəstək olmaq üçün həyata keçirdiyi geniş təhsil proqramının bir hissəsidir və şirkətin bu yöndə uzunmüddətli öhdəliyi çərçivəsində növbəti əhəmiyyətli addımdır.

Yeni nəşrlərin ictimaiyyətə təqdimatı münasibətilə keçirilmiş tədbirdə çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Bu beş yeni kitabın təqdimatı ilə BP-nin Azərbaycandakı ən əhəmiyyətli təhsil təşəbbüslərindən birinə yekun vururuq. İllər ərzində bu layihə elm və təhsil ictimaiyyətinə beynəlxalq aləmdə ən çox istifadə olunan 29 dərslik bəxş edib. Bu dərsliklərin hər biri bizim yerli universitetlərin mütəxəssis heyətləri ilə sıx əməkdaşlıqda, tədris müəssisələrimizin real akademik ehtiyaclarını qarşılayacaq şəkildə seçilib. Bu kitablar tərcümədən daha artıq məna kəsb edir – onlar qlobal biliklərə körpüdür. Bu yüksəkkeyfiyyətli resursları Azərbaycan dilində əlçatan etməklə ölkə universitetlərinin öz tədris və təlim proseslərini beynəlxalq standartlara uyğunlaşdırmasını dəstəkləmək istəmişik. Ümid edirik ki, BP-nin hədiyyəsi olan bu kitablar nəsillər boyu tələbələrə və müəllimlərə davamlı və əhəmiyyətli təsiri ilə real dəyər yaradacaq".

Təqdim edilən yeni kitabların siyahısına Ekonometrikaya giriş. Müasir yanaşma (müəllif: Cefri M.Vuldric. Nəşriyyat: Cengage Learning, 2020, 7-ci nəşr), Biznes və iqtisadiyyat üçün statistika (müəlliflər: Anderson, Svini, Vilyams, Kem, Kokran, Frey, Olmann. Nəşriyyat: Cengage Learning, 2017, 14-cü nəşr), Statistik nəticəçıxarma (müəlliflər: Corc Kasella, Rocer L.Berger. Nəşriyyat: Brooks/cole, Cengage Learning, 2002, 2-ci nəşr), Korporativ maliyyə. Əsas prinsiplər (müəlliflər: Riçard A.Bril, Stüart K.Mayers və Franklin Allen. Nəşriyyat: McGraw-Hill/Irwin, 2014, 12-ci nəşr), İqtisadi idarəetmə və strategiya (müəlliflər: Cefri Perlof, Ceyms A.Brander Nəşriyyat: Pearson, 2014, 3-cü nəşr) daxildir.

Bu nəşrlər yerli universitetlər, kitabxanalar və müvafiq elm və təhsil müəssisələri üçün nəzərdə tutulub. Hər bir dərsliyin çap edilmiş 2 min nüsxəsi ilə yanaşı, rəqəmsal versiyaları da TEAS PRESS NƏŞRİYYAT EVİ-nin onlayn platformalarında yerləşdiriləcək.

Bütövlükdə, dərsliklərin nəşri layihəsinin ümumi dəyəri 2 milyon 140 min manatdan (təxminən 1 milyon 260 min ABŞ dollarından) çoxdur. Bu məbləğ son 9 il ərzində nəşr edilmiş 29 dərsliyin hamısına aid olan xərcləri, o cümlədən müəlliflik hüquqlarının alınması, qonorar ödənişləri, tərcümə, ekspert redaktəsi, korrektə, dizayn və çap, rəqəmsal versiyanın hazırlanması və layihənin idarə olunmasını əhatə edir.




# Zəngəzur dəhlizi regiona yeni yükdaşıma potensialı gətirəcək



**Zəngəzur dəhlizinin inkişafı region üçün böyük perspektivlər açır və bu, ümumi yükdaşıma potensialına əlavə 15 milyon tonluq imkan qatacaq. Bu fikri Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev V Tbilisi İpək Yolu Forumunda çıxışı zamanı bildirib.**

Nazirin sözlərinə görə, Azərbaycan nəqliyyat marşrutlarının imkanlarını şaxələndirməkdə maraqlıdır və bu baxımdan Cənub marşrutu – Zəngəzur dəhlizi xüsusi əhəmiyyət daşıyır: "Biz, bir ölkə olaraq marşrutların imkanlarını şaxələndirməyə çox maraqlıyıq. Zəngəzur dəhlizi artıq, sadəcə, müzakirə mövzusu deyil, cari il avqustun 8-də bu layihə faktiki olaraq reallaşdı". R.Nəbiyev onu da bildirib ki, müstəqillik dövründən və Ermənistanla müharibə vəziyyətindən sonra ilk dəfə olaraq Azərbaycan ərazisindən bu ölkəyə taxılın tranzitinə icazə verilib.

# "Neptun" "Ümid" yatağına aparılır

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinə (ASCO) məxsus gəmilərin iştirakı ilə "Neptun" özüqalxan qazma qurğusunun dənizdə fəaliyyət göstərəcəyi sahəyə – "Ümid" platforması ərazisinə yedəklənməsi əməliyyatı başlayıb. Qurğunun dənizə yola salınması əməliyyatında ASCO-nun "Mərdəkan", "Zirə" və "Andoqa" təchizat-yedək gəmiləri iştirak edirlər.**



Xatırladaq ki, "Neptun" özüqalxan qazma qurğusu bu ilin iyun ayında modifikasiya işləri üçün ASCO-nun gəmilərinin dəstəyi ilə Xəzərin Türkmənistan sektorundan ölkəmizə gətirilib. Həmin əməliyyat "Hövsan", "Hövsan-2", "SOCAR-1", "Andoqa", "Şüvəlan" və "Mərdəkan" gəmilərinin iştirakı ilə həyata keçirilib.

*Səhifəni hazırladı:*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Cənnət Qarabağın azadlıq dastanı



**Doğma Qarabağımızda 30 il qəlbimizi didib-tökən tarixi haqsızlığa rəşadətli Azərbaycan Ordusu 5 il əvvəl Ali Baş Komandanına, xalqına arxalanaraq son qoydu. Torpaqlarımızı qansız düşmənin əlindən döyüşərək aldı. Diplomatik yollarla mümkün olmayan haqq-ədaləti hərb yolu ilə həll etdi igid Azərbaycan əsgəri. Azadlıq, müstəqillik, suverenlik kimi bəşəri dəyərləri ordumuzun qazandığı zəfərlə doya-doya yaşadıq. Üstündən 5 il keçməsinə baxmayaraq, bu qürurlu anların, hisslərin təsirindən hələ də çıxmamışıq, o hisslər bu gün də qəlbimizi sonsuz sevincə bürüyür, bu gün də bir uşaq kimi onun təsiri altında kövrəlirik.**

44 günlük qələbədən sonra təbii ki, mən də Qarabağda olmuşam, Şuşada onu bizlərə yenidən bəxş edən şəhid əsgərlərimizin ruhunu ehtiramla yad etmişəm, Suqovuşanın sularına baxaraq onu yenidən bizə qovuşduran igid oğullarımızın xatirəsinə kövrəlmişəm, Xudafərin körpüsünün yanında Arazın sularına boylanaraq şəhidlərimizin ruhu qarşısında diz çökmüşəm. Xan Arazın sularının sevinclə çağlamasını görmüşəm. Bir də dağıdılan, viran qalan yurd yerlərimizi görmüşəm. İnsan vəhşiliyinin hüdudsuz olduğunu onda bütün varlığımla hiss etdim.

Bütün bunlar qələbədən 1 il sonra idi, Zəfər yolu yenicə istifadəyə verilmişdi və mən də bu yolla Şuşaya gedən ilk qrupun tərkibində idim. O vaxtdan bu günə qədər Qarabağda elə möhtəşəm işlər görülüb ki, onları gözlərimlə görmək, bu işlərdən yazmaq bir jurnalist kimi mənim də boynumun borcu olduğunu bilirəm. Bu gün Qarabağa getmək daha da asanlaşıb. Portaldan qeydiyyatdan keçərək hər kəs bu müqəddəs yerləri ziyarət edə, şəhidlərimizin ruhunu yad edə bilir. Bu dəfə Şuşaya Ağdam istiqamətində getməyi planlaşdırdım. Çünki 44 günlük müharibədən sonra həm Üçtərəfli razılaşma əsasında, həm də antiterror əməliyyatı ilə azad edilən torpaqlarımızda olmamışdım.

## Hanı sənin ağ damların, qoca Ağdamım?

Bərdədən yeni çəkilən Ağdam yoluna keçirik. Yolun başlanğıcında bir anlıq işğal dövründə bu yola tökülən qum anbarının qarşısında dayanıb kövrələn, Ağdam istiqamətinə baxaraq göz yaşlarını içinə axıdan Milli Məclisin deputatı Aqil Abbasın ekranın bu tayında bizləri də kövrəldən halını xatırladım. Evin-eşiyin bir addımlığında ola, yurdun-yuvanın həsrətini çəkəsən, amma əlin çatmaya. Bəlkə də bizlərə bu sınaq lazım idi. Bu sınaq çox qaranlıqların üstünü açdı, bu sınaq hər şeydən əvvəl gözümüzü açdı. Öz insanpərvərliyimiz, humanizmimiz bizləri lap kor edibmiş.

Ağdam yolu indi bizi azad, lakin daşı daş üstə qalmayan Ağdama apardı. Yola söz ola bilməz, yolboyu hələ də mina təhlükəsi olduğundan girişi qadağan olunan torpaqlarımızın payız büsatını seyr edirik. Ağdama çatırıq. Ağdam dağıntılardan kənarda yenidən inşa edilir. Ağdamın Ağ damlarından əsər-əlamət qalmayıb. Respublikanın ən abad, ən firavan şəhəri olan Ağdamdan bu gün yalnız xarabazarlıqlar qalıb. Ağdamlılar bu 30 ildə nələr yaşadılar bir özləri bilirlər. Təkcə ağdamlılarmı? Bu işğal, eyni zamanda, muğam beşiyimiz olan Ağdama bir zərbə idi. Milli-mənəvi dəyərlərimizə bir zərbə idi. Həmkarlarımdan biri o illərdə yazmışdı ki, çadır şəhərində Qədirlər, Saralar doğulmaz. İlk qarşımıza çıxan yenicə inşa edilərək istifadəyə verilən Ağdam Muğam Mərkəzi oldu. 2023-cü ildə inşasına başlanan bu bina bu il may ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılıb. Burada 474 yerlik konsert zalı var. Muğam Mərkəzinin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib. Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin özünə qaytarılmasında böyük rol oynayacaq.



## Əriyən nisgillər

Ağdam Cümə məscidini 1868-1870-ci illərdə Memar Kərbəlayi Səfixan Qarabaği tikmişdir. 1993-cü il işğalından sonra digər tarixi abidələrimiz kimi, Ağdam Cümə məscidi də yandırılıb, ciddi dağıntılara məruz qoyulub. 2022-ci ildə burada konservasiya və restavrasiya işləri aparılıb. Ağdam məscidinə digər ziyarətçilər kimi mən də daxil oluram. Əvvəlcədən burada namaz qılmağı niyyət etmişdim. Lakin elə ilk duanı oxumuşdum ki, məni qəhər boğdu, özümü ələ almağa nə qədər çalışsam da mümkün olmadı. Hər iki əlimlə üzümü tutdum və bu hisslərimi başqalarından gizlətməyə çalışdım. Çünki məscidin içi insanlarla dolu idi, bəziləri namaz qılır, bəziləri isə bu anları əbədiləşdirmək üçün şəkil çəkdirirdilər.

Kövrək xatirələr məni 1993-cü ilin aprel ayına apardı. O illərdə Azərbaycan radiosunda çalışırdım. Qarabağda baş verənlər hamımızı sarsıdırdı. Ağdama gəlmişdim, buradan silsilə verilişlər hazırlamalı idim. Mənimlə gələn mədəniyyət işçiləri döyüşçülər qarşısında çıxış edəcək, onların döyüş ruhunu qaldıracaqdılar. Bizi Rayon Partiya Komitəsində qarşıladılar və döyüş bölgələrinə getmək üçün bələdçi verdilər. Lakin dönə-dönə bildirdilər ki, bu çox təhlükəlidir və düşmən Ağdamın bir addımlığındadır.

Biz Muğanlı və Papravənd kəndlərində olduq, qəhrəman döyüşçülərlə, könüllülərlə görüşdük. Bu döyüşçülər bu cür təminatla, bu cür idarəetmə ilə irəli getməyin mümkün olmadığını bilsələr də, bir addım geri dayanmırdılar. Papravənddə könüllü diviziyanın yerləşdiyi məktəbin həyətində bir ədəd tankı görüb sevinmişdik, lakin bu sevinc uzun sürmədi. Tank döyüşçülərin işinə yaramamışdı, xarab idi. Ağdamın girişində 1 nömrəli məktəbdə yerləşən hərbi hospitalda da olduq. Əgər bunu hospital adlandırmaq mümkün olarsa... Heç bir şəraiti olmayan bu divarlar arasında vaxtında ilkin yardım göstərmək mümkün olmadığından onlarla igid oğlumuz dünyasını dəyişmişdi. Qarabağdan, Ağdamdan ürəyimdən ağır bir daş asılmış kimi qayıtdım.

Bir neçə ay sonra Ağdam işğal olundu, mənim görüşdüyüm könüllülərin sağ qalanı demək olar ki, olmadı. Bunu dəqiq bilirəm, çünki onlar Zaqataladan olan könüllülər idi. İndi mən Ağdam məscidində bunları xatırlayaraq hıçqırıqlarımı içimə tökürdüm. Qoy bu hıçqırıqlarım şəhidlərimiz qarşısında ibadətim olsun.

20 noyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri Ağdam şəhərinə daxil olur. Bununla Ağdam şəhərinin işğalına son qoyulub. Prezident İlham Əliyev Ağdamın işğaldan azad edilməsi ilə bağlı xalqımıza müraciətində demişdir: "Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir".

... Ağdam məscidindən Ağdam Şəhidlər xiyabanına gəlirik. İşğaldan sonra Ağdama gələn hər bir ağdamlının ilk işi doğmalarının məzarlarını axtarmaq olmuşdur. Təəssüf ki, yağı düşmən qəbiristanlıqları elə bir hala salmışdır ki, orada hər hansı bir qəbiri müəyyən etmək çox çətin idi. Qəbirlərin mərmər daşları sökülərək daşınmış, "qoreşənlər" bununla da kifayətlənməmiş, qəbirləri qazaraq meyitlərin üzərindəki qızıl əşyaları, xüsusilə qızıl dişləri söküb götürmüşdülər. Ətrafdakı dağıntılardan elə sarsılmışıq ki, heç kəs dinib-danışmırdı. Ağdam işğal olunandan qabaq Ağdam məscidində nə qədər ölü kəfənlənmişdi, bunun sayı-hesabı yoxdur. Bəs Milli Qəhrəmanımız Allahverdi Bağırovun düşmən əsarətindən qurtardığı insanların, müxtəlif yollarla dəyişdiyi insan cəsədlərinin sayı varmı? Bu cəsədlər də məscidə gətirilir və orada doğmalarına təhvil verilirdi.

Ağdam Şəhidlər xiyabanında bu igid insanın qəbrini ziyarət edirik. Bir faktı yazmaq istəyirəm, Allahverdi Bağırov üç gün ərzində təkcə 1003 xocalılını əsirlikdən xilas etmişdi. Bundan başqa, o, həm də Ağdamın "Qarabağ" futbol klubunun şərəfini qoruyub. 1976-cı ildə klubun baş məşqçisi təyin olunub və həmin ildə keçirilmiş Ümumittifaq birinciliyində Azərbaycanın 4-cü yeri tutmasında böyük səy göstərib. Bu gün "Qarabağ" futbol komandası dünyanı heyran qoyur. Ağdam Şəhidlər xiyabanını hər gün yüzlərlə insan ziyarət edir, şəhidlərin ruhuna dualar oxuyur.

## Xankəndi, sən bizimsən!

Ağdamdan sonra Əsgəran yolu ilə Xocalı, Xocavənd yaxınlığından keçərək irəliləsək də, xalqımızın yaşadığı faciənin miqyasını elə buradan da görmək mümkün olur. Bu ərazilər Xocalı faciəsinin törədildiyi yerlərdir. XVIII əsrdə Pənahəli xanın öz xanlığının şərq sərhədində tikdirdiyi "Əsgəran qalası" adı ilə tanınan sədd, Qarqarçayın bu gün aramla axan suları o faciənin əbədi şahidləridir. Xocalının azad edilməməsi bir nisgil kimi ürəyimizdə qalmışdı. 2023-cü il sentyabr ayının 19-dan 20-nə keçən gecə həyata keçirilən antiterror əməliyyatı xalqımıza ikinci dəfə qələbə sevinci yaşatdı. Bu əməliyyat nəticəsində torpaqlarımız işğaldan tam azad edildi, müstəqilliyimiz, suverenliyimiz tam bərpa olundu. Nəinki Xocalı, Xanın kəndi belə öz azadlığına qovuşdu. Xankəndidən ermənilərin bir nəfər kimi baş götürüb getməsi çox təbii idi. Çünki orada elə bir erməni yox idi ki, onun əli azərbaycanlıların qanına bulaşmış olmasın. Ali Baş Komandan qəti şəkildə bildirirdi ki, biz bu cinayətləri bilirik, cinayətkarların hər birinin adı bizə məlumdur.

Bu gün Bakıda məhkəməsi gedən Dağlıq Qarabağ hərəkatının liderlərinin dəmir barmaqlıqlar arasındakı "aciz" durumları da buna sübutdur. Hər məhkəmədə onlarla şahid danışır, bu insanabənzər vəhşi xislətlilərin üzünə onların törətdikləri cinayətləri bir-bir deyirlər. Artıq dünya bunu inkar edə bilmir. Çünki şahidlərimiz sağdır, çünki törədilən cinayətlər qeyri-insanidir və onlar ədalət məhkəməsi qarşısındadırlar.

Sevincimiz nə qədər çox olsa da, bu ağrı düşüncələrdən xilas olmaq mümkün deyildir. Çünki bunlar müharibə cinayətləri idi və Qarabağın hər qarış torpağında onun izləri qalmaqdadır. Bu yaranı sarımaq üçün bizə hələ uzun illər lazım gələcək. Yaranı sarıyacağıq, şəhərləri yenidən tikəcək, kəndlərə yenidən həyat verəcəyik, lakin bir daha keçmişi unutmayacağıq. Çünki unutqanlığın dərsləri çox ağır olur. Uzaqdan gördüyümüz XANKƏNDİ sözləri üzümüzü güldürdü. Bu, gerçəyə çevrilən yuxu idi. Bu, Tanrının bir lütfü idi. Bu, niyyəti saf, qəlbi təmiz Azərbaycan xalqının sidqi-ürəkdən apardığı mübarizənin Tanrı tərəfindən verilən bir mükafatı idi. Xankəndi öz övladlarına qovuşan müdrik bir qoca kimi hər gün yüzlərlə qonaq qəbul edir, qoynunda onlara yer verir. Biz də o müdhiş sevinci yaşayırdıq. Şuşadan sonra Xankəndi qələbənin tamamlanması, bütövlənməsi idi. Xankəndidə bayrağımızın dalğalanması haqqın-ədalətin zəfər çalması idi.

Təsadüfə bax ki, biz Xankəndiyə orada şəhər gününün keçirildiyi bir vaxtda qədəm basırdıq. Öncə Qarabağ Universitetinin qarşısında dayanırıq. Universitet binasının özü belə möhtəşəmdir. Dərslər yenicə başlandığından universitetdə həyat qaynayırdı. Universitetin qarşısındakı bağda əyləşərək ətrafı seyr edirəm. Hər tərəf yamyaşıldır. Bu yaşıllığın içərisindən isə qızılı payız boylanır. Təbiətin bu əsrarəngiz gözəl çağında gənc tələbələrin böyük fəxrlə bu universiteti seçmələrinin nə qədər doğru yol olduğunu düşünür və onlara həsəd aparıram. Əgər gənc olsaydım, mən də bu seçimi edərdim deyə düşünürəm.

Bu ab-havadan içimə doyunca çəkərək bu günləri bizlərə bəxş edən Ali Baş Komandana, igid əsgərlərimizə, şəhidlərimizə, qazilərimizə nə qədər minnətdarlıq borcumuzun olduğunu bir daha xatırlayıram. Qarabağ Universiteti elə ilk gündən aparıcı elm mərkəzləri ilə bir sırada addımlamağa başlayıb. Onun məzunlarının sorağının gələcəyin ən nüfuzlu ünvanlarından gələcəyinə heç şübhəm yoxdur.

## Şuşa – ucalığın aynası

...Şuşadan, Cıdır düzündən həsrətlə Xankəndiyə boylandığımız vaxtı xatırlayıram. 4 il əvvəl idi. Təşkilatçılar həmin istiqamətə çox yaxınlaşmağımızı istəməmişdilər, dedilər ki, yüksəkliklərdə erməni postları var, onlara güvənmək olmaz. Hər halda, biz Xankəndi istiqamətinə boylandıq, dağların arxasındakı Əsgəranı, Xocalını nisgillə xatırladıq. Sən demə, bu nisgilimiz nahaq imiş və ordumuz bizi hələ bir çox sürprizlərlə də sevindirəcəkdi. Bütöv Azərbaycanı, suveren Azərbaycanı bizə bəxş edəcəkdi. İndi budur, biz yenə Şuşadayıq, onun dəyişən hüsnünü seyr etməkdən doymuruq.

Şuşa – mədəniyyət mərkəzimiz, Şuşa – duyğularımızın ən kövrək yeri, Şuşa – ucalığın zirvəsi. Onun işğaldan azad olunması da adına layiq oldu. Bu gün burada aparılan işlər də adına layiqdir. "Zəfər yolu", həqiqətən, zəfərimizi tamamladı. Şuşaya və işğaldan azad olunan şəhər və kəndlərimizə hər gün yüzlərlə insan səfər edir. Bu səfərlərin mənəvi dəyəri çox dərindir. Bu insanları buraya, eyni zamanda igid əsgərlərimizin keçdiyi döyüş yolunu, düşmənin dağıdıb viran qoyduğu yurd yerlərimizi görmək istəyidir çəkib gətirən. Onlar bu vəhşilikləri öz gözləri ilə gördükcə, düşmənə nifrətləri bir az da artır, şəhidlərimizin ruhunu daha böyük ehtiramla yad edirlər. Qarabağda gedən tikinti-quruculuq işləri isə onların qəlbini dağa döndərir.



## Dağların döşündə məğrur Laçınım

Şuşa-Laçın yolu. Laçın dəhlizi. Bu yolu getməyi necə arzulayırdıq. Bu yolla Ermənistan separatçıları silah-sursatla təmin edirdi, bu yolla xarici havadarların Qarabağa yardımları daşınırdı. Bu yol cinayətkar qruplaşmaların şah damarı idi. Qarabağın sərvətini də məhz bu yolla talayırdılar. Öncə bu yolda qurulan sərhəd keçid məntəqəsi ermənilərin niyyətlərini pozdu. Sonra təbiətsevərlər və könüllülər bu yolda uzunmüddətli aksiya keçirdilər. Qarabağa və Qarabağdan daşınan yüklərə nəzarəti tələb etdilər. Təbii sərvətlərimizin qanunsuz yolla talan edildiyini bütün dünyaya car etdilər.

Aksiyada iştirak edənlər soyuq, şaxta demədilər, qara, çovğuna dözdülər, çünki onların qəlbini vətən sevgisi isidirdi. Düşmənə nifrət onlara güc verirdi. Nəhayət, 2023-cü ilin sentyabr ayındakı antiterror əməliyyatından sonra erməni separatçıları üçün bu yoldan sonuncu gediş oldu. Bəlkə də ermənilər öz mövcudluqları dövründə ilk dəfə öz cinayətlərini dərk edərək Qarabağı tərk etdilər. Çünki onlar bu qanlı cinayətlərin birbaşa iştirakçıları idilər.

Bu düşüncələrə elə dalmışdım ki, Laçına çatdığımızı fərq etməmişdim. Laçını uzaqdan seyr etmək belə insanı kövrəldir. Laçın həsrətimiz çox böyük idi. Düşmən dədəsinin qoyub getdiyi sərvət kimi Laçına yiyələnmişdi. Laçınlıların evlərinə girib orada rahatca yaşayırdılar. Laçın rayonu Azərbaycan Respublikası BMT-yə üzv qəbul edildikdən (1992-ci il martın 2-si) 77 gün sonra - mayın 18-də işğal edilmişdi. Ermənistan rəhbərliyi belə bir fikiri həmişə aşılanmağa çalışıb ki, əvvəllər, ümumiyyətlə, ermənilər yaşamayan Laçın rayonu Ermənistana qalmalıdır. Ali Baş Komandan isə deyirdi: "Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qayıtmasa, heç bir razılaşma ola bilməz".

10 noyabr razılaşmasına əsasən 2020-ci il dekabrın 1-də Laçın rayonu öz yurisdiksiyasına qaytarıldı. Ali Baş Komandan Laçında Azərbaycan bayrağını yüksəltdi. Azad Laçına, gözəl Laçına daxil oluruq. Gözlə görülən həqiqətləri təsvir etməyin çətinliyini indi daha aydın hiss edirəm. Laçın ucalıq mücəssəməsi kimi öz əzəmətini saxlayıb. Bu əzəməti daha da təsirli edən burada gedən yenidənqurma işləridir. Özünəməxsus arxitekturası olan yaşayış binaları, dağların qoynundan qıvrılaraq keçən yollar, möhtəşəm mənzərələr rahatlıqla Avropa şəhərləri ilə iddiaya girə bilər.

Yenə möhtərəm Prezidentimizin sözlərinə istinad etmək istəyirəm: "Düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq".

Bu reallığı Həkəri çayı sahilində salınan istirahət mərkəzində, Zabux kəndində də gördük. Laçın adının əzəmətini hər gün doğruldur. Burada insan əlləri ilə xarüqələr yaradılır.

## Unudulmaz xatirələr

Laçından Zəngilana, Ağalıya doğru irəliləyirik. Hava yağışlıdır. Hərdən yağış dayanır, dağların arxasından boylanan günəşin şəfəqləri ətrafı nura boyayır. Ətrafda payızın min bir rəngini görmək olur. Bu gözəl ovqatımız uzun sürmür, Uzaqdan o məşhur Laçın dəhlizi görünür. Artıq Həkəri çayı sərhəd rolunu oynayır. Biz Qubadlının kəndlərinin xarabalıqlarının arası ilə irəliləyirik. Burada Nizami Gəncəvinin "Nuşirəvan və bayquşların söhbəti" hekayəsi yadıma düşdü. Qısaca demək istəyirəm ki, qızını digər bayquşun oğluna vermək üçün ata bayquş cehiz olaraq çoxlu xarabazarlıq istəyir. Digər bayquş isə deyir ki, nə qədər ki, Nuşirəvan hökmdardır sənə nə qədər istəsən xarabazarlıq verərəm. Nə qədər ki, yer üzündə erməni xislətlilər var, gözəl dünyamızda da belə xarabazarlıqlar olacaq. Ta ki, Azərbaycan əsgəri kimi igidlərimiz onu susdurunca.



Yol Avropa standartları səviyyəsindədir. Yeni salınan kəndləri görəndə ürəyimiz açılır. Ağalı isə bir başqa aləmdir. Ağalı "ağıllı kənd"dir. Onun salınması və idarə olunması müasir tələblərə tam uyğundur. Artıq bir çox dövlətlər şəhərsalmada bu təcrübədən faydalanmaq üçün buraya gəlirlər. Ağalıya çatdığımızda saat 3-ü keçirdi. Kəndin mərkəzindəki yeməkxanada nahar etdik. Zəngilan aşının ləzzəti damağımızda qaldı.

...Yağış ara vermədən yağır. Artıq Bakıya doğru yol almışıq. Bu yol isə Cəbrayıldan, Füzulidən, Araz sahilindən, Xudafərinin bir addımlığından keçir. Qəlbimizdə işğalçıya nifrət hissi ilə yeni tikilən, qurulan yurd yerlərimizi qürurla seyr edirik. Görülən hər bir işə bir dastan həsr etmək olar. 30 illik işğaldan sonra torpağa həyat verilir, yeni məskunlaşma aparılır, işğalın acı görüntüləri göz önündən təmizlənir. Biz indi keçmişi daha aydın xatırlayırıq və həyatın gedişini qiymətləndirməyi daha yaxşı bilirik. Biz yeni tarix yazırıq.

*Elmira MEHDİYEVA,*
*jurnalist*

**Zaqatala**

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası

## *23 oktyabr*



• Prezident, Ali Baş Komandan İlham Əliyev rəsmi “Twitter” səhifəsində Azərbaycan Ordusunun Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilanın Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etdiyi barədə məlumat verib.

• Dövlətimizin başçısı İlham Əliyev rəsmi “Twitter” səhifəsində Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərinin işğaldan azad olunduğunu bildirib.

• Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Qəhrəman, Qubadlının azadlığı uğrunda şəhid olmuş Şükür Həmidovun atası Nəriman Həmidovla telefonla danışıb. Dövlətimizin başçısı Şükür Həmidovun həlak olması ilə bağlı başsağlığı verib. Xatırladıb ki, Şükür Həmidov hələ Aprel döyüşləri zamanı göstərdiyi şücaətə görə, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb və Azərbaycan Prezidenti şəxsən özü ona Qəhrəman ulduzunu təqdim edib.

• Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusu cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr endirib, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, mühüm ərazi və yüksəkliklər azad edilib. Bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna zərər vurulub. Düşmən qoşunlarının idarə edilməsi praktiki olaraq itirilib. Ermənistanın Tavuş və Sisian rayonundan gətirilmiş şəxsi heyət döyüşlərə girməkdən boyun qaçırıb, mövqelərini tərk ediblər.

Oktyabrın 22-si gün ərzində və 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Düşmən bölmələrində döyüş texnikası, silah və sursat, ərzaq çatışmazlığı müşahidə edilib. İşğalçının idarə edilməsi praktiki olaraq pozulub. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilib.

• Ermənistan silahlı qüvvələrinə məxsus iki pilotsuz uçuş aparatı (PUA) zərərsizləşdirilib, digər iki PUA isə xüsusi texniki vasitələrlə yerə endirilib. Ağcabədi rayonu istiqamətində uçuş keçirməyə cəhd göstərən bir taktiki pilotsuz uçuş aparatı məhv edilib.

• Baş Prokurorluğun məlumatına görə, Ermənistan ordusunun yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 23-ü saat 12:00-dək 63 mülki şəxs həlak olub, 298 nəfər xəsarət alıb, 2156 ev, 90 çoxmənzilli yaşayış binası və 398 mülki obyekt yararsız vəziyyətə düşüb.



Baş Prokurorluq Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 23-ü saat 17:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin son statistikasını açıqlayıb.

• Müdafiə Nazirliyi Ermənistan ordusunun qüvvə və vasitələrinin darmadağın olunmasının, həmçinin yerdəyişmə etməyə hazırlaşan düşmənin canlı qüvvəsi və zirehli texnikasının məhv edilməsinin videogörüntülərini paylaşıb.



• Müdafiə Nazirliyi cəbhənin Xocavənd və Füzuli istiqamətlərində Ermənistan silahlı qüvvələrinin könüllülərdən ibarət dəstələrinin və döyüş texnikalarının, artilleriya bölmələrinin və komanda məntəqəsinin məhv edilməsi ilə bağlı videogörüntülər yayıb.

***Mustafa KAMAL***
***XQ***

# “Dəmir məntiq” “Dəmir yumruğ”a siyasi dəstək qazandırırdı



## *Azərbaycan liderinin informasiya savaşı xarici təxribatları zərərsizləşdirirdi*

Prezident İlham Əliyev Vətən müharibəsi günlərində dünyanın nüfuzlu media orqanlarına verdiyi müsahibələrdə “dəmir məntiq”ə əsaslanan arqumentləri ilə işğalçının bu sahədə apardığı yalan, heç bir həqiqətə əsaslanmayan böhtan dolu təbliğatını alt-üst edirdi. Təkcə bu dövrdə 30-dan artıq xarici KİV-in suallarını cavablandıran dövlətimizin başçısı Azərbaycan həqiqətlərini beynəlxalq aləmə çatdırmaqla ölkəmiz haqqında dünya ictimaiyyətində müsbət rəy formalaşdırırdı.

İllərlə davam edən Qarabağ münaqişəsi, müharibənin başlama səbəbləri, gedişi barədə analitik şərhlərlə, eləcə də qərəzli, təxribat xarakterli suallara verdiyi təmkinli, səbirli, eləcə də əsaslandırılmış cavablarla Ermənistanın işğalçı, təcavüzkar mahiyyətini açıb göstərdi, terrorun bu ölkə tərəfindən dövlət səviyyəsində dəstəkləndiyini sübuta yetirdi.

2020-ci ilin payızında 44 gün davam edən Vətən müharibəsi yalnız cəbhədə deyil, həm də informasiya meydanında böyük mübarizə ilə yadda qaldı. Azərbaycan Ordusu torpaqlarımızı azad edərkən dövlətimizin başçısı siyasi və diplomatik müstəvidə, xüsusilə beynəlxalq informasiya məkanında əsl mübarizə aparırdı. Prezident İlham Əliyevin məhz həmin dövrdə informasiya diplomatiyası Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında həlledici rol oynadı. Qısa müddətdə dövlət başçısı “BBC”, “CNN”, “Al Jazeera”, “Euronews”, “France 24”, “TRT”, “Russia Today”, “RIA Novosti” və digər aparıcı media qurumlarına verdiyi müsahibələr informasiya məqsədi daşımaqla yanaşı, həm də strateji əhəmiyyətə malik idi. Ümumiyyətlə, ölkə rəhbəri hər bir müsahibəsində Ermənistanın təcavüzkar, işğalçı siyasətini ifşa edir, eyni zamanda, beynəlxalq hüquqa və tarixi ədalətə söykənən Azərbaycan mövqeyini əsaslandırırdı.

Prezident İlham Əliyevin müsahibələrinin uğuru onun emosiyaya deyil, məhz “dəmir məntiq”ə və sübutlara söykənməsi ilə bağlı idi. Azərbaycan lideri hər sualı, hətta qərəzli və təxribat xarakterli olmasına baxmayaraq sakitliklə, əsaslandırılmış arqumentlərlə cavablandırırdı. Dövlət başçısı beynəlxalq ictimaiyyətin diqqətini illərlə davam edən işğal faktına, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, lakin reallaşdırılmayan qətnamələrə yönəldirdi. O, bu yolla Ermənistanın “məzlum xalq” obrazı ilə gizlətdiyi təcavüzkar siyasəti diqqətə çatdırırdı.

Respublika rəhbərinin hər cavabı həm hüquqi, həm siyasi, həm də mənəvi müstəvidə Azərbaycanın üstün mövqeyini təsdiqləyir, münaqişənin başlanma səbəblərini və savaşın gedişini sadə, anlaşılan, eyni zamanda, dərin məzmunla izah edir, auditoriyaya hadisələrin real mahiyyətini çatdırırdı. Bununla da dövlət başçısının informasiya siyasəti nəticəsində dünya ictimaiyyətinin illərlə yanlış məlumatlar əsasında formalaşan təsəvvürü dəyişirdi. Beynəlxalq auditoriya Qarabağ münaqişəsinin mahiyyətinin dini və etnik qarşıdurma ilə bağlı olmadığını, Ermənistanın Azərbaycana qarşı işğal siyasətindən qaynaqlandığını anlayırdı. Prezident İlham Əliyevin çıxışlarında, müsahibələrində bu həqiqət faktlarla sübut olunur, münaqişənin kökləri, 1988-ci ildən bəri baş verən hadisələrin ardıcıllığı aydın şəkildə izah edilirdi.

Xatırladaq ki, əgər əvvəllər beynəlxalq mediada “Azərbaycan hücum edir” kimi qərəzli başlıqlara rast gəlinirdisə, artıq müharibənin ortalarından etibarən vəziyyət dəyişdi, aparıcı media qurumları dövlət başçısının arqumentlərinə istinad etməyə, Azərbaycan tərəfinin mövqeyini obyektiv şəkildə diqqətə çatdırmağa başladı. Bu, informasiya cəbhəsində qazanılmış mühüm strateji qələbə idi.

Prezident İlham Əliyevin müsahibələrində dövlət başçısının qətiyyətli, eyni zamanda, təmkinli, emosiyasız, prinsipial liderliyi xüsusi diqqət çəkirdi. Azərbaycan rəhbəri suallara cavab verərkən faktlara əsaslanır, əksər hallarda qarşı tərəfin təxribatını ifşa edirdi. Bu, ölkə Prezidentinin əsl dövlət rəhbəri olaraq uzaqgörənliyindən, müdrikliyindən xəbər verir, eyni zamanda, Azərbaycanın beynəlxalq hüququn bərpası, ərazi bütövlüyünün gerçəkləşdirilməsi uğrunda haqq mübarizəsi apardığını göstərirdi. Yeri gəlmişkən, respublikamızın informasiya cəbhəsində reallaşdırdığı bu mübarizə dövlətin kommunikasiya modelinin təkmilləşməsinə də yol açdı. Prezident İlham Əliyevin şəxsində informasiyanın necə dövlət maraqlarına xidmət göstərə biləcəyi nümunəsi yaradıldı.

Onu da qeyd edək ki, Ermənistan illər boyu beynəlxalq aləmdə özünün qurban obrazını formalaşdırmağa çalışmışdı. Lakin müharibə dövründə bu mif Azərbaycan liderinin məntiqli, sübutlu çıxışları qarşısında dağılırdı. Dünya auditoriyası gördü ki, əslində, Ermənistan Azərbaycan torpaqlarını işğal edib, etnik təmizləmə həyata keçirib, mülki əhaliyə qarşı müharibə cinayətləri törədib. Dövlət başçısının müsahibələrində bu faktlar, necə deyərlər, beynəlxalq hüquq dili ilə təqdim edilərək, Ermənistanın bütün iddialarının əsassızlığını diqqətə çatdırdı, həm tarixi, həm hüquqi, həm də siyasi baxımdan qarşı tərəfin saxtakarlıqlarını ifşa etdi.

Burada mühüm bir məqamı da xatırlatmaq istərdik. Prezident İlham Əliyev Vətən müharibəsi günlərində dünyanın nüfuzlu media orqanlarına verdiyi müsahibələrlə bərabər, xalqa da müntəzəm müraciətlər edir və bu, beynəlxalq aləmdə Ermənistanın işğalçılıq siyasəti, eləcə də terrorçu dövlət olması haqqında aydın təsəvvür yaradırdı. Bu müraciətlər, eyni zamanda, Azərbaycan xalqını daha da birləşdirir, müharibənin gedişatına və taleyinə güclü təsir göstərirdi. Hər bir müraciət növbəti qələbənin müqəddiməsinə çevrilirdi. Yeri gəlmişkən, Prezident İlham Əliyev 2020-ci il sentyabrın 27-də – Vətən müharibəsinin başlandığı gün xalqa ilk müraciətində bütün cəmiyyəti “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”, – deyə qəti qələbəyə köklədi.

2020-ci il oktyabrın 4-də xalqa ikinci müraciətində dövlətimizin başçısı Azərbaycanın öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə apardığını, döyüş meydanında əsgər və zabitlərimizin qəhrəmanlıq göstərdiyini, işğalçıya sarsıdıcı zərbələr endirdiyini, düşməni yerinə oturtduğunu, canı-qanı bahasına torpaqlarımızdan qovduğunu bildirərək dedi: “Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində – 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar”.

Dövlətimizin başçısı daha sonra ermənilər tərəfindən dağıdılan bütün şəhərlərimizin, məscidlərimizin bərpa olunacağını, bu bölgələrə həyatın qayıdacağını, işğalçının saxtalaşdırdığı yaşayış məntəqələrinin tarixi adlarının bərpasının tamamilə başa çatdırılacağını əminliklə vurğulayıb. Azərbaycan Prezidenti xalqa üçüncü – 2020-ci il oktyabrın 9-dakı müraciətində status-kvonun artıq olmadığını və təmas xəttinin yarıldığını elan etdi: “Mən dəyişdirdim status–kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini… Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz”. Ölkə rəhbəri 2020-ci il oktyabrın 17-də xalqa növbəti müraciətində isə raket hücumlarına məruz qalan Azərbaycanın dinc şəhərlərinin Ermənistanın terrorizmi və vandalizmi ilə üzləşdiyini diqqətə çatdıraraq dedi: “Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik”.

Azərbaycan lideri 2020-ci il oktyabrın 20-də xalqa beşinci müraciətində isə Vətən müharibəsində əldə edilən uğurların düşünülmüş və vaxtında atılmış addımların nəticəsi olduğunu, tələskənliyin yolverilməzliyini diqqətə çatdırdı: “Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbərlər çatdırıram. Eyni zamanda, demək olar ki, hər gün öz “Twitter” hesabımda işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm. Mən bilirəm ki, Azərbaycan xalqı bu xəbərləri hər gün gözləyir, hər gün! Hər gün, hər saat ki, nə vaxt bu xəbər olacaq, nə vaxt bu xəbər çıxacaq? Amma istəyirəm, əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi böyük rəşadət tələb edir. Çünki təkcə orada qurulmuş istehkamlar deyil, eyni zamanda, azad edilmiş torpaqların hərbi relyefi də ermənilər üçün daha sərfəlidir. Çünki biz indi həm onların istehkamlarına, onların toplarına, onların raketlərinə qarşı, eyni zamanda, təbii relyefə qarşı vuruşmalıyıq və torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik”.

2020-ci il oktyabrın 26-da xalqa altıncı müraciətində dövlət başçısı Azərbaycanın həlledici qələbəyə yaxın olduğunun müjdəsini verdi: “Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik”.

Nəhayət, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Zəfər günündə – 2020-ci il noyabrın 8-də və Ermənistanın kapitulyasiya aktı – “Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı” imzalananda – 2020-ci il noyabrın 10-da xalqa müraciətlərində də respublikamızın ədalətli mövqeyini, xalqımızın ötən 30 illik bir dövrdə işğalla barışmadığını və ərazi bütövlüyü uğrunda sarsılmaz əzm göstərdiyini bir daha diqqətə çatdırdı. Prezident İlham Əliyev rəhbərliyi dövründə yetişən, formalaşan vətənpərvər gənclərin Vətəni qorumaq üçün hər cür fədakarlığa hazır olduqlarını dönə-dönə vurğuladı.

Azərbaycan lideri informasiya cəbhəsində müsahibələri ilə Ermənistanın bütün təbliğatının üzərindən dünyanın aparıcı media qurumlarına xətt çəkdiyini də xatırlatdı: “Bu müharibə dövründə 30-a yaxın müsahibə vermişəm. Ömrümdə bəlkə də bu qədər müsahibə verməmişəm. O müsahibələrdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik”.

Prezident İlham Əliyev yuxarıda sözügedən müsahibələri, müraciətləri ilə həm xalqımızda tarixi Qələbəyə əminliyi gücləndirdi, həm də dünya ictimaiyyətini Azərbaycanın Vətən savaşında atdığı bütün addımların beynəlxalq hüququn norma və prinsiplərinə əsaslandığını, intiqamımızın işğalçıdan alındığını, eyni zamanda, Ermənistandan fərqli olaraq ordumuzun mülki vətəndaşlara toxunmadığını, düşmənin məskunlaşdığı, gizləndiyi şəhərlərdə böyük dağıntılara yol vermədiyini bildirdi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Göytəpənin gözəl çağı...

**Ölkəmizdəki peyk-şəhərlərdən biri də Cəlilabad rayonundakı Göytəpədir. Burada qohumlarımgildə qonaq qalmışam və kiçik şəhərin özəlliklərinə bələd olmuşam. Bir çox sakinləri, parkı, bazarı, abidələri ilə tanışam.**

Tarixi mənbələrə görə, bu yerin ilk adı Sibilcan yaylağı olub. Rusiya imperiyası XIX əsrdə Azərbaycan xanlıqlarını ilhaq edəndən sonra bölgəyə Volqaboyundan 250 min nəfərdən çox rus köçürüb. Onların bir hissəsi də Lənkəran qəzasının Astraxanbazar (indiki Cəlilabad) ərazisində yerləşdirilib. Bu məntəqəyə kazak dəstəsinin başçısı Pristan Şilovun adına uyğun olaraq, Prişib adı verilib. SSRİ dağılandan sonra gəlmələrin çoxu Rusiyaya köçüb getsə də, Göytəpədə rus üslubunda tikilmiş palıd evlərin çoxu durur. Rus pravoslav kilsəsi də əsrayarımdır ki, köhnə Bakı–Lənkəran yolunun qırağında qorunub saxlanır. Göytəpə 1976-cı ildən şəhər statusu daşıyır. 1992-ci ildə Azərbaycan parlamentinin qərarı ilə şəhərin tarixi adı Göytəpə bərpa edilib. Geniş iqtisadi və sosial infrastrukturu var.



Göytəpəlilər müxtəlif sahələrdə dövlət və özəl müəssisələrdə çalışırlar. Əkinçilik daha çox inkişaf edib. Ərazidə əsasən çiyələk, kartof, üzüm, taxıl, yonca əkilir. Burada yetişdirilən kartof və çiyələk öz dadı ilə seçilir və xarici bazarlara da ixrac olunur. Vaxtilə burada avtotəmir zavodu və digər müəssisələr olub. Şəhərin 3 mək-



təbi, mədəniyyət evi, seçki dairəsi, Cümə məscidi mövcuddur. Cəlilabad Texniki Peşə Mərkəzi də bu ərazidədir. Xəstəxana köhnə olduğu üçün yenisi tikilib qurtarmaq üzrədir. Bu səhiyyə ocağı 3 mərtəbəli, 60 çarpayıdan ibarət olacaq. Heydər Əliyev Fondu tərəfindən tikilən Vasif Hüseynov adına 2 nömrəli tam orta məktəb isə ötən ay yeni binasında şagird və müəllim kollektivini qəbul edib.

Göytəpə çayının sahilində inşa edilmiş Heydər Əliyev parkı şəhərin əsas istirahət mərkəzidir. 10 il əvvəl Prezident İlham Əliyevin iştirakı ilə bu park-bulvarın açılışı olub. Ərazisində Ümummilli liderin büründən abidəsi ucaldılıb. Məkanının ümumi ərazisi 30 min kvadratmetrdir. Musiqili fəvvarə, müasir işıq dirəkləri, rahat oturacaqlar , yaşıllıq zolağı parkın gözəlliyini artırır.

Yaxınlıqdakı Şəhidlər xiyabanını sakinlər və qonaqlar daim ziyarət edirlər. Yeri gəlmişkən, göytəpəlilər Azərbaycanın Milli Qəhrəmanları Vüqar Mürsəlovun (1963-1992) və Rəşad Abdullayevin (1998-2020), eləcə də digər şəhidlərin həmyerliləri olmaları ilə qürur duyurlar. **Xiyabanda görüşdüyümüz şəhər sakini Ehsan Əliyev dedi:**

– Allah bütün şəhidlərimizə rəhmət eləsin. Təkcə bizim küçənin 3 şəhidi burada uyuyur. Bunlar Birinci Qarabağ savaşında nəşi tapılmayan, itkin Etiram Əmirxan oğlu Əmirov, Vətən müharibəsində 17 şəhidi, 247 yaralını döyüş meydanından çıxaran həkim leytenant Mirlətif Mirislam oğlu Ağayev və 2022-ci il 16 sentyabrda şəhid olan Kəlbəcər fatehi İsa Rəhim oğlu Kəlbiyevdir. Ərazimizin hər iki hissəsindəki küçələr şəhid adlarını daşıyır. Rayonumuzda əbədiyyət yolçularımızın ruhuna böyük ehtiram bəslənilir.



İctimai fəal, iş adamı Rafiq Abisov şəhid məzarlarının yenidən qurulmasını həyata keçirməkdə aztəminatlı ailələrə maddi dəstək göstərməkdə nümunədir. Vətən müharibəsi zamanı öz maşını ilə cəbhəyə ərzaq yardımları çatdıraraq ordumuzun zəfərinə töhfə verib. Göytəpədə aparılan abadlıq-quruculuq işlərinə də köməyini əsirgəmir.

– Bura bizim doğma ünvanımızdır, – deyə o bildirdi. – Gərək hər birimiz yurdumuzun qədrini bilək, gözəlliklərini artırmağa çalışaq. Rayon rəhbərliyinin Göytəpəyə diqqətindən çox razıyıq.

İnişil Göytəpə şəhərinin yeni Baş planının təqdimatı olub. Qeyd edilib ki, ərazinin kompleks qiymətləndirilməsinə nəqliyyat, su, qaz, istilik və elektrik təhcizatı, kanalizasiya sistemlərinin hazırlanması daxildir və bütün bu işlər Baş plana uyğun aparılacaq. Bu il mayın 16-da Nazirlər Kabineti "Göytəpə şəhərinin 2040-cı ilədək inkişafına dair Baş plan"ın təsdiq edilməsi haqqında qərar verib.

Ötən ay şəhər ərazisində əhalinin rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə bir sıra küçə və yollarda asfaltlama işlərinə başlanılıb. Əvvəlki illərdə də davam etdirilən bu layihələr həm nəqliyyat sisteminin ahəngdar işləməsinə, həm də şəhərin səliqə-sahmanının artırılmasına, əhalinin rahatlığının təmin olunmasına xidmət edir. Uzunmüddətli perspektivdə Göytəpənin daha gözəl, təhlükəsiz və yaşanılan məkana çevrilməsinə zəmin yaranır. Artıq Rövşən İsmayılov, İnqilab Niftullayev, Yusif Məmmədəliyev, Akif Xanışov küçələrində, N.Nərimanov küçəsi ilə Savalan küçəsini birləşdirən döngədə və 2 saylı tam orta məktəbin həyətində 1500 metrdən artıq asfaltlama işləri yekunlaşıb...

**Ə.DOSTƏLİ**
**XQ**

*Üzeyir Hacıbəyli – 140*

# Ağcabədi - dahi bəstəkarın dünyaya göz açdığı məkan

**Elə dahilər var ki, hansı kənddə, şəhərdə, ölkədə, hətta hansı qitədə doğulmasından asılı olmayaraq, bütün planetin nadir şəxsiyyətləri sayılırlar. Azərbaycan professional musiqi sənətinin və milli operanın banisi Üzeyir Hacıbəyli də onlardan biridir. Amma dəqiqlik sevənlər onun doğum ünvanının çox vaxt iddia edildiyi kimi, musiqi beşiyimiz Şuşa deyil, Ağcabədi olduğunu qeyd etməyi zəruri sayırlar. Bu isə həqiqətən də, belədir.**



Üzeyir bəyin atası – şuşalı Əbdülhüseyn bəy Xan qızı Natəvanın Ağcabədidəki təsərrüfatına rəhbərlik edirdi. O vaxtlar rahat yol və nəqliyyat olmadığından, Əbdülhüseyn bəyin xidməti işlə əlaqədar gedib qalmaq üçün Ağcabədidə (o cümlədən Rəncbərlər kəndində) yaşayış yeri vardı.

**Üzeyirşünas Səadət Qarabağlı:**

– İndi çox mübahisələr gedir, şuşalılar deyirlər ki, Üzeyir bəy Şuşada doğulub, ağcabədililər isə deyirlər Ağcabədidə. Əslində Üzeyir bəyin bacı-qardaşları Şuşada, özü isə Ağcabədidə doğulub. Bunun da səbəbi odur ki, anası Şirin xanım ona hamilə




olanda Ağcabədidə olan həyat yoldaşına baş çəkmək istəyir. Şirin xanımın bacıları Ağdamda ərdə idilər. Əvvəlcə Ağdama gəlir, bacılar hərəsi bir az onu qonaq saxlayırlar, sonra Ağcabədiyə gedir, elə orada da Üzeyir bəy anadan olur. Bir aydan sonra isə dəvənin üstünə kəcavə qoyurlar və Şirin xanım kəcavədə balaca Üzeyirlə bərabər Şuşaya qayıdır.

**Mətbuat Şurasının sədri, şair-publisist Rəşad Məcid:**

– Doğulduğum Ağcabədi ilə Üzeyir bəyin bağlılığı mənim üçün məxsusi fəxarətli bir məqamdır. Orta məktəb çağımda Üzeyir Hacıbəylinin bioqrafiyasını hər dəfə oxuyanda onun məhz Ağcabədidə doğulmasına görə çox qürurlanırdım və dahi bəstəkarın xatirəsinə ithaf etdiyim şeir o vaxt Ağcabədi rayon qəzetində çap olunmuşdu:

***Böyük sənətiylə, istedadıyla,***
***O keçdi ən çətin, uca səddi də.***
***Yanaşı yazıldı dahi adıyla:***
***"Dünyaya gəlibdir Ağcabədidə***
***O burda cahana açıb gözünü,***
***Torpaqla ilk dəfə burda görüşüb.***
***Böyük sənətinə Üzeyir bəyin,***
***Bir çınqı alov da bu yerdə düşüb.***

Üzeyir bəyin Rəncbərlər kəndinin sakinləri – tanınmış şəxslər Mirzə Vəli və Seyid Məhəmməd ağa ilə yaxın qohumluq əlaqələri vardı. Onun həm də Qori seminariyasında tələbə yoldaşı olmuş Mirzə Vəliyə hədiyyə etdiyi şəxsi tarı və dairəvi eynəyi də illərcə Rəncbərlər kəndində qorunub saxlanılıb. Mirzənin gəlini – ağbirçək Ağca nənə ilə musiqi müəllimi olan nəvəsi Hafiz Üzeyir bəyə aid yadigarları qonaqlara fəxrlə göstərirdilər.

Ağcabədidə 2008-ci il sentyabrın 20-də dahi bəstəkarın adını daşıyan Qarabağ Muğam Mərkəzinin və park-kompleksin açılışı olub. Orada Üzeyir bəyin qranit büstü, eləcə də qəhrəmanlarının fiqurları qoyulub. Böyük sənət korifeyinin ruhuna bu ehtiram Heydər Əliyev Fondunun təşəbbüsü və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin dəstəyi ilə ifadə edilib. Bu mərkəz Qarabağda muğam ifaçılıq sənətinin inkişafında, təbliğində müstəsna rol oynayır.

Ötən ay Ağcabədidə "18 sentyabr – Üzeyir Musiqi Günü" təntənə ilə keçib. Rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov deyib ki, şuşalı olan, amma Ağcabədidə dünyaya göz açan bəstəkar dünya musiqisinə olduqca qiymətli və tükənməz xəzinə bəxş edib. Ağcabədililər onun adı ilə qürur duyurlar. Bayramda musiqi kollektivlərinin ifasında əksəriyyəti Üzeyir bəyin ölməz əsərlərindən ibarət rəngarəng konsert proqramı təqdim olunub.

Əlbəttə, bu gün Azərbaycanın hansı nöqtəsinə baxsaq, dahi Üzeyir bəyi görərik. Bu dünyada cəmi 63 il yaşamış böyük şəxsiyyət Ağcabədi, Şuşa, Bakı ilə bərabər, əbədiyyət adlı ünvanda qərar tutub.

**Əli NƏCƏFXANLI**
**XQ**

# Biləsuvarın bərəkət mövsümü, bolluğa töhfəsi

**Qədim Muğam düzünün mərkəzində pərvəriş tapmış aqrar rayonlarımızdan olan Biləsuvarda əsasən taxılçılıq, pambıqçılıq və heyvandarlıq sahələri inkişaf etdirilir.**

Ötən mövsümdə 7 min 562,9 hektar taxıl sahəsindən 24 min 441 ton buğda, 24 min 114,9 hektar sahədən isə 71 min 553,1 ton arpa biçilib. Məhsuldarlıq müvafiq olaraq 32,3 və 29,7 sentner olub. Bu əkin mövsümündə sahələrə daha çox – 32 min hektar taxıl toxumu səpini nəzərdə tutulub. Bunun 8 min hektarı buğda, 24 min hektarı isə arpadır. İndiyədək arpanın üçdə-biri artıq səpilib.

Rayonun qabaqcıl fermer təsərrüfatları yenə də ön sırada gedərək nümunə göstərirlər. Taxılçı fermerlərdən Rüstəm Əzizov, Vidadi Həsənov, Ramiz Əliyev, Mirsahib Zəkiyev, Rafiq Bədəlov və başqaları yüksək məhsuldarlıq üçün zəruri tədbirlər həyata keçirirlər.

**Səmədabad kənd sakini Ramiz Əliyev** 25 ildən artıqdır ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğuldur. Əməksevər fermer bu illər ərzində torpağa sədaqətli münasibəti, zəhmətə sevgisi və aqrar sahədə yeniliklərə açıq baxışı ilə seçilib. Onun fədakar əməyinə verilən ən yüksək qiymətlərdən biri də 2-ci dərəcəli "Əmək" ordenidir.

Ramiz Əliyev ötən mövsüm 120 hektar sahədə yüksək reproduksiyalı taxıl sortları yetişdirib. Müsahibimiz dedi ki, dövlətin aqrar sahəyə göstərdiyi davamlı dəstək, təşviq olunan yeni əkin və becərmə texnologiyaları məhsuldarlığın artmasına mühüm təsir göstərib. "Bir vaxtlar hər hektardan 25 sentner məhsul götürəndə sevinirdik. İndi isə Türkiyə və Azərbaycanda istehsal olunan regionlaşmış elit sortlar sayəsində bu göstərici 45 sentnerə çatıb".

Ramiz Əliyev hesab edir ki, aqrar sahədə tətbiq olunan elmi yeniliklər və müasir




texnologiyalar yaxın illərdə daha böyük nailiyyətlər qazanmağa imkan verəcək. Qarşıdakı hədəflər daha böyükdür. Məhsuldarlığı artırmaqla yanaşı, ixrac imkanları da genişləndiriləcək.

Pambıqçılıqda da vəziyyət yaxşıdır. Ötən il 915, 8 hektar tarladan 24 min 798,6 ton "ağ qızıl" toplanıb. Orta məhsuldarlıq 35,9 sentner olub. Bu il isə 18 min 028 hektardan hələlik 4 min tonadək məhsul yığılıb. Bu sahədə Fəxrəddin Quliyevin, Fazil Musayevin, Anar Abbasovun, Yunis



və Əliyar İbayevlərin, Hikmət Kərimovun fermer təsərrüfatları öndə gedirlər.

**Hikmət Kərimov** ömrünü aqrar sahəyə həsr edən əsl zəhmət adamlarındandır. İxtisasca aqronomdur, həm biliyi, həm də təcrübəsi ilə pambıqçılıqda yüksək nəticələrə imza atır. "Prime-Cotton" MMC-nin tarlalarında gecə-gündüz çalışan Hikmət Kərimovun məqsədi birdir: torpağın bərəkətini artırmaq, keyfiyyətli məhsul yetişdirməkdir. Bu mövsüm onun 18 hektarlıq sahəsində gözlənilən 50 sentnerdən artıq məhsul isə bu zəhmətin layiqli bəhrəsidir...

Heyvandarlıq sahəsinə gəlincə isə Biləsuvarda hazırkı vaxta 30 min baş iribuynuzlu qaramal, 140 min baş davar saxlanır. Biləsuvarda, eyni zamanda, çəltik, tərəvəz, bostan bitkiləri, kartof, şəkər çuğunduru, paxlalı bitkilər, qarğıdalı sahələri mövcuddur. Meyvə bağlarından bu il 3 min 635 ton məhsul yığılıb. Bağlarda yığılası meyvələr hələ də olduğu üçün yekun məhsuldarlıq həcmi bir qədər sonra müəyyənləşdiriləcək.

Kartofçuluqda da göstəricilər yüksəkdir. Əgər ötən il Biləsuvarda 132,5 hektarda kartof əkilirdisə, bu il həmin rəqəm 147,2 hektar olub. Yığılan məhsul 227,4 ton təşkil edib. Hər hektardan orta məhsuldarlıq 152,2 sentner təşkil edib. Müqayisə üçün qeyd edək ki, 2020–2022-ci illərdə rayonda kartof əkini sahələri aşağı-yuxarı 100 hektar idi.

Biləsuvarda tərəvəz sahələri də ilbəil genişləndirilir. Əgər 2021-ci ildən bu sahələr 1175 hektar idisə, bu il ikiqat artıq – 2290 hektardır. Ötən il əhali təsərrüfatlarında paxlalı bitkilər üzrə heç bir göstərici qeydə alınmamışdı, bu il isə 298,7 hektardan 899 ton məhsul yığılıb. Bu da 30,1 sentner məhsuldarlıq deməkdir. Onu da deyək ki, rayonda son 10 ildə belə məh-



suldarlıq qeydə alınmayıb. Bostan bitkiləri üzrə vəziyyət də ürəkaçandır: 1731,8 ton və 142,6 sentner məhsuldarlıq.

Günəbaxan məhsulu üzrə də yüksəliş var. Əgər bu sahə 2021-ci ildə cəmi 74 hektar idisə, bu il təxminən 3 dəfə geniş, yəni 210,6 hektar olub. Məhsuldarlıq ən yüksək həddə çataraq, 22,2 sentner qeydə alınıb.

**Ə.ƏLİYEV**
**XQ**

*Günün “yaşıl” çağırışı*

# Meşələr həyat beşiyi, tarixin xalqımıza əmanətidir



## *Bu zənginliyi qorumaq isə sağlam gələcək uğrunda savaşdır*

**Şəhərlərin, xüsusilə meqapolislərin sakinləri yaşadıqları məkandan ayrılıb ecazkar təbiətin, xüsusilə də zümrüd meşələrin, axar çayların əhatəsinə düşəndə, sanki, başqa bir planetə gedibmiş kimi heyrətamiz hisslər yaşayırlar. Belə məqamlarda anlamağa başlayırlar ki, Yer kürəsi təkcə insan zehninin və əməlinin yaratdıqları ilə deyil, Tanrının bəxş etdiyi əsrarəngiz təbiəti ilə daha gözəl, cazibədar, maraqlı və səxavətlidir.**

Bu hissləri payızın ilk günlərində qısa səfərə çıxdığım doğma yerlərin, Talış dağlarının ətəklərinə səpələnmiş zümrüd meşələrin sehrinə düşəndə daha dərindən duydum. Bir tərəfdən dağlara, bir yandan sıx meşələrə, o biri səmtdən də göyə bülənd olmuş ağaclara həzin zümzüməsi ilə laylay çalan çayların yaratdığı gözəlliyin harmoniyasından bir gerçəyi anladım ki, biz təbiətdən uzaqlaşdıqca, onunla amansız davrandıqca, çox şey itiririk.

Bu səfərimdən sonra xüsusilə, meşələrin bəşəriyyətin və insanlığın həyatında oynadığı rol haqqında materiallarla da tanış oldum. İlk qənaətim belə oldu: insanların əksəriyyəti meşələrin yerin tarazlığı və daimi mövcudluğu üçün nə qədər əhəmiyyətli olduğunu unudurlar. Ən azından onu yaddan çıxarırlar ki, planetimizdə canlı həyatın dəstəklənməsində meşələr xüsusi rol oynayır. “Planetin ağciyərləri” hesab edilən meşələr biomüxtəlifliyin yuvası sayılır, iqlim və su dövranının tənzimlənməsi, torpağın qorunması və insanlar üçün resursların təmin edilməsində əsas rol oynayır.





Meşələr şəhərlərin birbaşa və ya dolayı yolla istehlak etdikləri çay sularının keyfiyyəti və su dövranının tənzimlənməsində son dərəcə əhəmiyyətli bir funksiya daşıyırlar. Unudurlar ki, ağac kökləri torpağı gücləndirir və eroziyaya nəzarət edir, bununla da fırtına və daşqınların təsirlərini minimuma endirir. İnsanların meşələrə illərlə davam edən amansız münasibəti indi dünyada bir çox kataklizmlərə, xüsusilə yüzlərlə yaşayış məntəqəsini cənginə alıb dağıdan daşqınlara gətirib çıxarıb.

Alimlər qeyd edirlər ki, dünyadakı biomüxtəlifliyin 100-də 80-ni meşələrdədir. Bir qismini söylədiyim bu amillər meşələrə münasibətin dəyişməsini, onların qorunmasının mühüm əhəmiyyət daşıdığını göstərmirmi?

Elə haqqında bəhs edəcəyim dəniz səviyyəsindən 2 min 200 metr yüksəklikdə bütöv bir bölgənin yaşıl libasına çevrilmiş Talış meşələrini götürək. Yurdumuzun 150 min hektar sahəsini əhatə edən və zənginliyi ilə seçilən bu meşələrin son dərəcə böyük əhəmiyyət daşıdığını göstərən arqumentlərdən biri odur ki, bu yaşıl zolaq 3-cü buzlaşma dövründən dövrümüzə gəlib çatan, dünyada çox az rast gəlinən müxtəlif növ bitki və ağaclardan ibarətdir. Buzlaşmaya məruz qalmadıqları üçün bu bitkilər planetimizin keçmişinin tədqiqində çox dəyərli mənbə hesab edilir.

**Səfər günlərində təsadüfən ekoloq-jurnalist, regionumuzun təbiətinin son dərəcə cəfakeş müdafiəçilərindən olan, tələbə dostum Bəxtiyar Hüseynovla qarşılaşanda təəssüratımı bölüşdüm. Sanki söylədiklərimi gözləyirmiş kimi söhbətə başladı:**

– Meşələr, xüsusilə Talış meşələri müstəqil Azərbaycanımızın ən dəyərli sərvətlərindən biridir. Nə yaxşı ki, bunu hələ sovet dönəmində böyük ekoloq-alimimiz, mənim mənəvi müəllimim, akademik Həsən Əliyev əsərlərində dönə-dönə qeyd edib. Yurdsevər alim ölkə mətbuatında təbiətimizə, xüsusilə meşələrimizə qarşı amansızlığı dayandırmaq haqqında həyəcan təbili çalıb.

Elə bu səbəbdən də respublikaya rəhbərlik etdiyi bütün dönəmlərdə ulu öndər Heydər Əliyev təbiət vurğunu olan alimimizin gələcəyə ünvanlanan bu çağırışını əsas götürərək Azərbaycanda meşələrin qorunması haqqında mühüm sənədlər imzalamış və təsirli qərarlar qəbul etmişdir. Məni bir ekoloq kimi ümidləndirən artıq 22 ildən bəri bu siyasəti möhtərəm Prezidentimiz İlham Əliyevin qətiyyətlə, yüksək prinsipiallıqla davam etdirməsidir.

Mən konkret olaraq Cənub regionunun zümrüd meşələri haqqında bir neçə faktı diqqətinizə çatdırım. Növ zənginliyinə görə Talış meşələri Qafqazın 18 flora əyaləti içərisində birinci yerdədir. Bizim meşələrdə 1000 hektara 32 bitki növü düşür. Bu da Qafqazda ən yüksək rəqəmdir. Meşələrimizdə mövcud olan 174 növ ağac və kolun 36 növü endemdir. Hirkan meşələrində Xəzər lələyi, Hirkan armudu və ipək akasiyasının mövcudluğu bu meşələrin vaxtilə Şərqi Asiya və Himalay florası ilə genetik əlaqəsi olduğunu göstərir.

Cənub regionunda, eyni zamanda, Hirkan tipli subtropik meşələr də mövcuddur. Diabar müstəsna olmaqla, Talış meşələrində 36 min 900 hektarlıq sahədə 1167 növ bitki qeydə alınmışdır. Burada 1 kvadratkilometr ərazidə 35 növə yaxın ağac və kol növlərinə rast gəlinir. Onların arasında əsasən şabalıdyarpaq palıd, fıstıq, vələs, dəmirağac, qızılağac, azat ağacı, Qafqaz xurması və s. ağac növləri xüsusi yer tutur. Bu ağacların orta yaşı 120-150 ildir.

Talış meşələrində ayıdöşəyi, dəmirağacı, azat, vələs, cökə, Lənkəran akasiyası, Hirkan bigəvəri, şümşadı vəənciri, adi qoz, şabalıdyarpaq palıd, ipək akasiya, ağcaqayın, Xəzər lələyi, Hirkan ənciri, Qafqaz xirniyi, pırkal və müxtəlif lianlar (sarmaşıq bitki növləri) geniş yayılmışdır. Eyni zamanda, ərazidə Azərbaycan Respublikasının “Qırmızı kitab”ına daxil edilmiş endemik ağaclar, müxtəlif bitkilər də geniş yayılmışdır.



Ekoloq dostumdan bu məlumatları dinlədikcə, fərəhdən köksüm qabarırdı. Əlbəttə, Vətənimiz Azərbaycanın təbiəti zəngin, torpağı bərəkətli və məhsuldardır. Amma bu sərvətlərimizlə öyünmək azdır, onları qorumaq, tamahları naminə biomüxtəlifliyə qənim kəsilənlərə qarşı mübarizə aparmaq, bu qiymətsiz varlığımızı gələcək nəsillərə sağlam ötürmək hər birimizin borcudur. Nə yaxşı ki, bu çətin və şərəfli işin önündə gedən, yaşıllıqlarımızı, meşələrimizi qoruyan fədakar meşəçilərimiz var.

Ekoloq-jurnalisti narahat edən və qayğılandıran da elə budur. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 1 saylı Lənkəran Regional İdarəsində çalışdığı dönəmdə fəaliyyətinin ana xətti də məhz bu olub. İndi dövlət qulluqçusu kimi təqaüdə çıxsa da, bu sahədə fəaliyyətini əsla dayandırmayıb. Meşələrin qorunmasının hazırkı vəziyyəti ilə maraqlananda əvvəlki dönəmlərdən fərqli olaraq bir qədər ümidli danışdı:

– Etiraf edim ki, nazirliyin son kadr təyinatı məni çox ümidləndirir. Bilirsiniz ki, kollektivin fəaliyyətinin səmərəliliyi rəhbər kadrın işə münasibətilə birbaşa bağlıdır. Bu mənada Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bir müddət əvvəl Meşələrin İnkişafı Xidmətinin 1 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinə direktor təyin etdiyi Habil Əliyevin fəaliyyəti ilk gündən diqqətimi çəkdi və məni razı saldı. Görürəm ki, Habil Əliyev kollektivi ilə birlikdə meşələrin mühafizəsində, zənginləşməsində xüsusi əzmkarlıq göstərir.



Ən əhəmiyyətli məqam ondan ibarətdir ki, o, daşıdığı vəzifənin məsuliyyətini həm bir məmur, həm də mütəxəssis olaraq gözəl dərk edir.

Bəxtiyar müəllimin bu qeydlərindən sonra görülən işlərlə maraqlandım. Öyrəndim ki, ötən illərdə Talış meşələrinə dəyən ziyanı, qanunsuz kəsilmiş əraziləri bərpa etmək üçün yeni rəhbərliyin təşəbbüsü ilə ciddi işlər görülür. Meşələrin inkişafı xidmətinin 1 saylı Regional Meşə Təsərrüfatı Mərkəzi təkcə bu ilin payız mövsumu üzrə 48 hektar ərazidə yeni meşələrin salınması üçün aqrotexniki tədbirlər həyata keçirib. Ərazi tam çəpərlənib, torpaq işləri və digər zəruri aqrotexniki işlər görülüb.

Əlbəttə, bu gün Azərbaycanın bir çox yerlərində olduğu kimi, Lənkəran, Lerik, Astara meşə sahələrinin genişləndirilməsi ilə bağlı bilavasitə dövlət başçısının tapşırığı ilə çox genişmiqyaslı layihələr həyata keçirilir. Minlərlə ting torpağa qovuşur, yeni yaşıllıq zolaqları salınır, qanunsuz kəsilmiş və yaxud qurumuş, seyrəkləşmiş sahələr bərpa edilir. Ən əsası da odur ki, bu işi Habil Əliyevin rəhbərlik etdiyi kollektiv əzmlə həyata keçirir. Onları belə cani-dildən işləməyə sövq edən bir yandan Azərbaycan Prezidenti İlham Əliyevin bu işə xüsusi diqqət və qayğısıdırsa, başqa səbəb meşələrə olan hədsiz sevgidir.

Amma bir gerçəyi də unutmaq olmaz ki, bir tingin, ağacın, sadəcə, torpağa əkilməsi kifayət deyil. Onun böyüməsi, kök atması, nəhəng ağaca çevrilməsi böyük zəhmət, fədakarlıq və səbir tələb edir. Hər tingin arxasında meşəçinin zəhməti, alın təri var.

Bəxtiyar Hüseynov söhbət əsnasında bir məsələyə xüsusi diqqət çəkdi: “Atalar deyib: “Kənardan döyüş asan görünür”. Bəzən kənardan baxan elə bilir ki, ağac əkib böyütmək, yaşıllıq salmaq çox sadədir. Amma əsla belə deyil. Bir ağacı qorumaq, bir meşəni yetişdirib boya-başa çatdırmaq, bəlkə də ən çətin mübarizələrdən keçir”.

Dostum “mübarizə” deyəndə, bir anlıq fikrim dolaşdı. Sonra özü bu məsələyə aydınlıq gətirdi və bildirdi ki, son illərə qədər bizim meşələrə qənim kəsilən bəzi məmurların adı meşəçi olsa da, özləri meşələrə qənim kəsilənlər idilər. Onlar meşələrin qanunsuz qırılmasına həm şərait yaradır, həm də öz tamahlarını doyururdular. Çünki rəhbər yerində olmayanda, meşəçi olmayanda, bu ağaclara öz övladı kimi qayğı göstərməyəndə, əlbəttə, meşə kütləvi məhvə məruz qalır. Onlara elə gəlir ki, meşə 4-5 ağac kəsilməklə qurtaran deyil. Amma anlamırlar ki, həmin 4-5 ağacı yetişdirmək, böyütmək üçün 15-20, bəzən 30-40 il lazım gəlir.

Sağ olsun, direktor Habil Əliyev ilk gündən prinsipiallığı ilə seçilir və qanunsuzluqlara qarşı çox sərt tədbirlər görür. Artıq qanunsuz ağac kəsimlərinə son qoyulub, meşələrimiz rahat nəfəs alır. Onun təşkilatçılığı sayəsində meşələrimiz yeni həyatını yaşayır desəm, səmimiyyətimə inanın. Ən əsası budur ki, onun idarəçiliyi və işə vicdanlı münasibəti sayəsində işgüzar, qayğıkeş, səmimi, mehriban bir kollektiv formalaşıb.

Bəxtiyar müəllim qeyd edir ki, Habil Əliyevin prinsiplərinin ən mühümü işi peşəkarlara və vicdanlı kadrlara etibar etməsidir. Bu mütəxəssislərdən biri də Sərraf Quliyevdir. Eşidəndə ki, Sərraf yanğından mühafizə üzrə əməkdaşdır bir qədər təəccübləndim. Amma son illər bütün dünyada olduğu kimi, Azərbaycanda da meşə yanğınlarının mütəmadi hal aldığını xatırlayanda təəccüblənmədim. İş yoldaşları deyirlər ki, Sərraf çox məsuliyyətli, peşəkar meşəçidir. Rəhbərlik tərəfindən tapşırılan işlərin öhdəsindən layiqincə gəlməklə yanaşı, özü də meşələrin yanğından qorunması sahəsində şəxsi təşəbbüskarlıq göstərir.

Sərrafla bir qədər yaxından tanış olduq. Öyrəndik ki, Lənkəranın Gəgiran kənd orta məktəbini əla qiymətlərlə bitirmiş Sərraf meşəçi ailəsində böyüyüb. Babası Musa Quliyev, atası Mürsəl kişi də bütün ömürlərini bu meşələrə xidmətdə keçiriblər. Ömrünün sonuna qədər Lənkəran Meşə İdarəsində müxtəlif vəzifələrdə çalışan atası Mürsəl Quliyev dünyasını dəyişəndən sonra, Sərraf Belarusun Brest şəhər İnşaat Mühəndisləri İnstitutundakı təhsilini yarımçıq qoyaraq Vətənə dönüb və atasının şərəfli yolunu davam etdirib.

Hazırda Lənkəranın, Astaranın, Lerikin meşələrini qoruyan 1 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru Habil Əliyev vəzifəsinə başlayandan az sonra Sərrafa ən çətin bir vəzifəni - Lerik rayonunun Kürdəsər meşəbəyliyini həvalə edib. Bu meşə sahəsində son illər daha çox ağac kəsilməsi faktları qeydə alınırdı. Habil müəllim indi bu ərazidən arxayındır. Lakin işin təkcə mühafizə ilə bitmədiyini bildiyindən meşələrin bərpası üçün qarşıda ciddi vəzifələr qoyub.

Ekoloq dostum deyir ki, bu torpağı, onun üstündəki nemətləri, xüsusilə bu yerlərə əsrarəngiz gözəllik verən meşələri sevmədən, onlar üçün məsuliyyət daşıdığını dərk etmədən ümumi işə fayda verə bilməzsən. Habil müəllim kollektivdə çalışanlara bu keyfiyyətlərə görə dəyər verir və etibar edir. Meşələrin qorunmasında isə etibar hər şeydən vacibdir.

Bəxtiyar müəllim bir qədər də qayğılanaraq əlavə etdi ki, indi meşəyə uzanan əllər “kəsildiyi” üçün orda-burda dedi-qodu yayırlar. Bu, təbiidir. Amma bu nə 1 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru Habil Əliyevi, nə də onun rəhbərlik etdiyi kollektivi narahat edir. Yaxşı deyiblər ki, vicdan təmizdirsə, ləkə götürməz. Meşəçi ona görə çətin peşədir ki, ağaclara uzanan əlləri kəsməyəndə onun sahibləri sənə çirkab atır, mane olanları yollarından təmizləmək istəyirlər. Gərək belə təzyiqlərə də sinə gərib mübarizədən geri çəkilməyəsən. Çünki meşəni qorumaq da bir döyüşdür. Qalib gəlmək istəyirsənsə, gərək təmiz olasan və geri çəkilməyəsən.

Xanbulançay dəryaçasının sahilində durub göz işlədikcə uzanan, payızın gəlişi ilə min bir rəngə boyanan canlı tabloya, əsrarəngiz Talış meşələrinə nəzər salıram. Nəfəs aldıqca ruhum təzələnir və özümdən ixtiyarsız deyirəm: “Allahım, axı bu gözəlliyə, bu ilahi varlığa necə qıymaq olar?! Biz bunu qorumasaq, gələcək nəsillərə nəyi miras qoyub gedəcəyik?! Nə yaxşı siz varsınız, əziz meşəçilər. Allah sizi qorusun ki, siz də meşələrimizi, bu ilahi gözəlliyi qoruyasınız!”.

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Çağdaş dini təhsilin aktual problemləri

**Ölkəmiz dünyada ənənə ilə müasirliyi birləşdirən nadir məkanlardan sayılır. Sözü ilə iz qoyan, əməli ilə gələcəyə yön verən insanların yetişdiyi bu diyarda həm milli irsin, həm də qlobal mənəvi düşüncənin təntənəsi duyulur.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu (AİI) və Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) birgə təşkilatçılığı ilə "Müasir din təhsili modelləri: mənəvi dəyərlər və qlobal çağırışlar kontekstində" mövzusunda keçirilən beynəlxalq simpoziumun açılış mərasimində iştirakçılar təcrübələrini, müasir din təhsili modelləri və mənəvi dəyərlərin qorunması mövzusundakı fikirlərini bölüşdülər, qlobal çağırışlara uyğun yeni yanaşmalardan bəhs etdilər.



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov** Prezident İlham Əliyevin tolerantlıq və multikulturalizm siyasətinin dini, mədəni müxtəlifliyi qorumaqla, ölkəmizi dünyaya beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi təqdim etməyə imkan yaratdığını dedi. O qeyd etdi ki, din təhsili nə konservativ şəkildə keçmişə qapanmalı, nə də mənəvi dəyərləri inkar edərək kor-koranə modernliyə tabe olmalıdır. Bizə ənənələrlə çağırışlar arasında qızıl orta xətt üzərində qurulmuş yeni model lazımdır. İslam dünyası mənəvi dərinliyi, Qərb isə metodoloji strukturu ilə fərqlənir. Bu iki təcrübənin sintezi qlobal səviyyədə inklüziv, lakin dəyərlərə sadiq modelin yaranmasına şərait yarada bilər.

**Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov** vurğuladı ki, bəzi ölkələrdə mənəvi dəyərlər deqradasiyaya uğrayır. Buna görə də dini təhsili elə təşkil etməliyik ki, həm mənəvi dəyərlərə uyğun olsun, həm də müasir dünyanın çağırışlarına cavab versin.

**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov** müzakirə edilən məsələlərin elmi, mənəvi, ictimai baxımdan vacib olduğunu dedi: "Bu məlumatlar həm tədris proqramlarında, həm də dərs vəsaitlərində xüsusi bölmələr şəklində yer alır, gənclərin müxtəlif dinlər haqqında biliklər qazanmasına, onlarda tolerantlıq mədəniyyətinin formalaşmasına xidmət edir. Azərbaycan xalqı müxtəlif dinlərə hər zaman ehtiramla yanaşıb".

Simpoziumun gənc iştirakçıları da diskussiyalara qoşuldular. **AİI-nin 1-ci kurs tələbəsi Lumu Süleymanlı** söylədi ki, dini biliklərin çatışmazlığı radikal düşüncələrə meyil yaradır. Bu səbəbdən təhsilin rolu əvəzsizdir.

**Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa** bildirdi ki, dinin siyasi məqsədlərə alət olunması təhlükəli nəticələr doğurur. Bu, həm dövlətin sabitliyinə, həm də ictimai münasibətlərə mənfi təsir göstərir: "Azərbaycan dünyəvi dövlətdir və buna görə də dini fəaliyyətlər dünyəvilik prinsipi üzərindən qiymətləndirilməlidir. Konstitusiyanın 48-ci maddəsində vicdan azadlığı dövlət səviyyəsində tanınır və hər bir şəxs istədiyi dinə inanmaqda və ya inanmamaqda azaddır. Dövlətin vəzifəsi insanların dini inancını müəyyənləşdirmək deyil, sadəcə bu fəaliyyətlərə nəzarət və balans mexanizmini təmin etməkdir".

**Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayevin** sözlərinə görə, insanların öz əqidələri ətrafında birləşməsində din təhsili mühüm rol oynayır. Azərbaycanın tolerantlıq və məzhəblərarası münasibət ənənələri bir çox dövlətlər üçün nümunə hesab olunur.

**Pakistanın Müsəlman İnstitutunun rəhbəri Sahibzadə Sultan Əhməd Əli** məsələyə belə aydınlıq gətirdi: "Müasir təhsil artıq süni intellekt və rəqəmsal texnologiyalar vasitəsilə formalaşır və bu yanaşmalar müsəlman dövlətlərində də tətbiq olunur. Bu yanaşma təhsili öncədən müəyyən edilmiş biliklər və mövzular çərçivəsində formalaşdırır, lakin onun həyatla, mənəviyyatla və fərdi inkişafla əlaqəsini nəzərə almır".

İki gün davam edəcək beynəlxalq məclisdə dövlət rəsmiləri, dini konfessiyaların, yerli ali təhsil və tədqiqat müəssisələrinin nümayəndələri ilə yanaşı, Türkiyə, Özbəkistan, Qazaxıstan, Pakistan, İndoneziya, Malayziya, Gürcüstan, Albaniya, ABŞ, Rusiya, İsveçrə, BƏƏ, Misir və İraqın nüfuzlu universitetlərinin rəhbərləri, alim və mütəxəssislər, ümumilikdə 70-ə yaxın xarici qonaq iştirak edir.

*Fidan ƏLİYEVA,*
*Rauf İBRAHİMOV (foto)*
*XQ*

# Gizli izdivacların aşkar bəlası

## *Son 5 ildə Azərbaycanda nikahdankənar 83 min uşaq doğulub*



**Bu fikirləri XQ-yə eksklüziv açıqlamasında Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Fazil Mustafa** bildirib. Onun sözlərinə görə, bu, çox ciddi məsələlərdən biridir, eyni zamanda, Azərbaycanda ailə institutunun mövcud vəziyyətini açıq şəkildə göstərir: "Plenar iclasda çıxışım zamanı da bildirdim ki, bu çox ciddi və təhlükəli mövzudur. Azərbaycanda beş ildə 83 min nikahdankənar uşaq doğulub. 9 min uşağı 15-19 yaşlı qızlar dünyaya gətirib. Bu, ailə institutu üçün olduqca böyük problemdir. Biz bu istiqamətdə cəmiyyətdə ictimai müzakirə yaratmalıyıq. Fikirləşməliyik ki, ailə institutunu qoruya bilək. Təsəvvür edin ki, 83 min uşaq valideyni məlum olmayan və ya sənədləşdirilməmiş vəziyyətdədir. Bu nə deməkdir? Bu nəslin yetişməsi üçün kim məsuliyyət daşıyacaq?".

Müqayisə üçün qeyd edək ki, Azərbaycanla qonşu ölkələrdə nikahdankənar doğumla müxtəlif yanaşmalar sərgilənir. Türkiyədə uşaq hüquqları qanunla tam bərabərdir, lakin cəmiyyətin bəzi bölgələrində mənəvi qınaq qalmaqdadır. Cənub qonşumuz İranda şəriət qanunlarına əsasən nikahdankənar doğum "zina" sayılır, qadın və uşaq həm hüquqi, həm də sosial baxımdan ciddi məhdudiyyətlərlə üzləşir. Rusiyada isə əksinə, bu hal geniş yayılıb və sosial norma kimi qəbul edilir. Uşaqlar tamhüquqlu və dövlətin sosial müdafiəsi altındadır. Gürcüstanda qanun liberal olsa da, pravoslav dəyərlər hələ də öz təsirini saxlamaqdadır. Kiçik icmalarda bu hal mənfi qarşılanır. Ermənistanda hüquqi bərabərlik mövcuddur, lakin ənənəvi düşüncə tərzi səbəbindən nikahsız dünyaya uşaq gətirməyə qarşı sosial damğalanma halları qalır.

*XQ*



# Gürcüstanlı soydaşlarımıza humanitar yardım





**Sentyabrın son günlərində qonşu Gürcüstanda Qabal çayının daşması nəticəsində baş vermiş təbii fəlakətdən zərər çəkmiş Laqodexi Bələdiyyəsinin Qabal, Gəncəli, Uzuntala, Qaracalar və digər kəndlərinin sakinlərinə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Diaspora Dəstək Fondu humanitar yardım göstərib.**

"Qabal İnkişaf Mərkəzi" göndərilmiş ərzaq mallarını və məişət əşyalarını təbii fəlakətdən zərər çəkmiş sakinlərə paylayıb. Mərkəzin rəhbəri Yavər Məmmədov XQ-yə bildirdi ki, fəlakətdən sonra Azərbaycan Diasporuna Dəstək Fonduna müraciətimiz cavabsız qalmadı. İndiyədək 120 ailəyə humanitar yardım çatdırılıb. Daşqında zərər çəkmiş qonşu gürcü kəndlərinin sakinlərinə də yardım çatdırdıq.

Laqodexi Bələdiyyəsinin Qabal ərazisi üzrə nümayəndəsi Ramiz Amirov isə dedi ki, göstərilən diqqət və qayğıya, maddi dəstəyə görə Azərbaycan Diasporuna Dəstək Fonduna minnətdarlığımızı bildiririk. Vazisubani gürcü kəndinin sakinləri də göstərilən humanitar yardımdan çox razı qaldılar.

*P.ƏMİRCANOV*
*XQ*

*Fazil Güney – 80*

# Qələmlə savaş fədakarlığı

**Tanınmış yazıçı-publisist, Əməkdar jurnalist, ərəb filologiyası üzrə fəlsəfə doktoru Fazil Güneyin 80 illik yubileyi münasibətilə Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda mərasim düzənlənib.**




Məclisi AYB sədrinin müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid açaraq, yubilyarın tərcümeyi-halı, ictimai fəaliyyəti və yaradıcılıq yolundan danışdı və ona Mətbuat Şurasının yubiley diplomunu təqdim etdi.

Məclisin aparıcısı – "Xalq qəzeti" baş redaktorunun müavini, Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədri, Əməkdar jurnalist Tahir Aydınoğlu Fazil Güneyin şərqşünas, yazıçı, media təşkilatçısı, həssas insan və ziyalı kimi keyfiyyətlərini sadaladı və yubilyara təbriklərini çatdırmaq üçün sözü iştirakçılara verdi.

Görkəmli şərqşünas, ictimai xadim, filologiya elmləri doktoru Tofiq Məlikli Fazil Güneyi gənclik, tələbəlik dostu və qələmdaşı kimi xarakterizə etdi. Onun çalışqanlığı, ictimai fəallığı, milli ruh və ana dilinin saflığı uğrunda çabaları barədə danışdı və yazıçının bir-birindən sanballı əsərlərinin ideya məzmununu təhlil etdi. Yazıçının "Qara qan"ını fundamental bir nəşr nümunəsi kimi dəyərləndirdi və çağdaş Qarabağnamə olduğunu söylədi.

Xalq şairi Sabir Rüstəmxanlı yubilyara – vaxtilə universitetin şərqşünaslıq fakültəsində cəmi bir semestr birlikdə oxusa da, bir ömür dostluq etdiyi gözəl ziyalı şəxsiyyətə xoş arzularını çatdırdı. Vətəndaş həmrəyliyini özünün əsas məslək yolu sayan Fazil Güneyin Xalq yazıçısı Süleyman Rəhimovun "Şamo"sundan sonra ən boyük roman olan "Qara qan"ını və digər əsərlərini dəyərləndirdi.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, tanınmış yazıçı-publisist Seyran Səxavət, Beynəlxalq Avropa Psixiatriya Assosiasiyasının, Psixoterapiya və Davranış Təbabəti Akademiyasının (ABŞ) Məsləhət Şurasının üzvü, professor Nadir İsmayılov, Slavyan Universitetinin professoru, tanınmış tərcüməçi Flora Naci, tanınmış hüquqşünas Adil Minbaşı, şair-publisist Nazim Əhmədli, yazıçının həmyerlisi Sahib Səfərov və başqaları Fazil Güney yaradıcılığının məziyyətlərini yüksək qiymətləndirdilər, onu obrazlı şəkildə "nəsrimizin güney yeri" kimi təqdim etdilər.

Qeyd olundu ki, Azərbaycanın tanınmış qələm sahiblərindən olan Fazil Güney bir vaxtlar Suriya, İraq və Liviyada hərbi və mülki tərcüməçi olduğu illərdən milli-mənəvi dəyərlərimizin, ədəbiyyatımızın təbliği istiqamətində mühüm işlər görüb. Zəngin biliyi, təcrübəsi, vətənpərvərliyi sayəsində dolğun, bitkin əsərlər yaradıb.

O da bildirildi ki, ömrünün 80-ci onilliyində də maraqlı bədii və araşdırma yazıları ilə gündəmdədir. Yazıçının Qarabağ münaqişəsindən bəhs edən "Qara qan" tarixi roman-trilogiyasının yenilənmiş 5-ci nəşri ədəbi aləmdə hadisəyə çevrilib.



Zəngin tərcümeyi-halı olan Fazil Güneyin jurnalistlik fəaliyyəti də əsl örnəkdir. O, 1991-ci ilin əvvəlində yaradılan "Assa-İradə" adlı ilk Azərbaycan Beynəlxalq Xəbər Agentliyinin, 1997-ci ildən çıxmağa başlamış ingiliscə "AzerNews" qəzetinin təsisçisi və baş redaktoru, "Azeri Observer" jurnalının direktoru kimi Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm işlər görüb. İslam Əməkdaşlıq Təşkilatı Ölkələri Jurnalistlər Assosiasiyasının sədri kimi də imkanlarından istifadə edərək, Azərbaycanın haqq işi dəstəkçilərinin sayının artmasına çalışıb, əcnəbi həmkarlarını Qarabağ haqqında dəyərli kitablar yazmağa yönləndirib.

Mərasimdə söylənilənlər bir daha göstərdi ki, ictimai və təşkilati işləri ilə bərabər, Fazil Güney fasiləsiz olaraq ədəbi fəaliyyətini davam etdirib və milli-mənəvi dəyərlər baxımından sanballı əsərlər yaradıb. Yubiley mərasimində onun özünəməxsus yaradıcılıq üslubunun "Ulduz sövdəsi" pamfletlər toplusunda, hekayə, esse və povestlərindən seçmələrin toplandığı "Yalanın gerçəkliyi" kitabında da təzahür etdiyi diqqətə çatdırıldı.

Sonda Fazil Güney yubiley mərasiminin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi.

*Əli NƏCƏFXANLI*
*XQ*

*Yeni kitablar*

# "Duyğuların gözü ilə"

**Publisist və araşdırmaçı Fazil Rəhmanzadənin yeni işıq üzü görən "Duyğuların gözü ilə…" kitabında onun son illərdə qələmə aldığı müxtəlif janrlı əsərlər toplanıb.**




Müəllif əvvəlki kitablarında olduğu kimi, yeni nəşrdə də qəhrəmanlarının daxili dünyasına, mənəvi keyfiyyətlərinə həssaslıqla diqqət yetirib. Elə buna görə də toplunu "Duyğuların gözü ilə" adlandırıb. Fazil Rəhmanzadə qeyd edir ki, Tanrı insanlara fiziki görmə qabiliyyətindən savayı, duyğuların gözləri ilə görməyi də bəxş edib. Kitabın əsas hədəfi də jurnalistin daxili görmə qabiliyyəti vasitəsilə illər boyu ətrafında cəmləşən sənət adamlarının mənəvi aləmini açıb göstərməkdir.

Bu toplu, sadəcə, görkəmli şəxslərin tərcümeyi-halları deyil, onların mənəvi-psixoloji portretləridir. Fazil Rəhmanzadənin söhbət açdığı şəxsiyyətlərin böyük əksəriyyəti həyatda olmasalar da, onların ölməz sənətləri və parlaq obrazları bu gün də yaşayır.

Kitab jurnalistin həyatının bir parçasına çevrilmiş, ləyaqətli, etibarlı, dürüst dostların ömür yolunun bədii-sənədli tarixçələridir. "Duyğuların gözü ilə..." toplusu həyatın mənasının dərinliklərinə nüfuz edərək bizə əsl dəyərləri görmək üçün qəlbimizə və duyğularımıza güvənməyin vacibliyini təlqin edir.

*Arzu ƏLİYEVA*
*XQ*

*Tarixdə qalan izlərimiz*

# Abbasabad qalasının sirri

## *1812-ci ildə Napoleon Bonapart bu qala ilə maraqlanırmış*

**Araz çayının sahilində, Yazdabadın yerində tikilən beşbucaqlı qala... Bu qala təkcə Naxçıvanın deyil, XIX əsrdə Qafqaz hərb tarixinin açar düyünlərindən biridir. Fransız mühəndisinin planı, britaniyalı zabitin xəritəsi, rus komandanlığının mühasirə taktikası – hamısı eyni koordinatda kəsişir.**

Sular altında qalan bu istehkamı kağız üzərində "dirildən" plan və xatirələr, əslində, bizi sərt faktlarla üz-üzə qoyur: 1810-cu ilin mühəndisliyi, 1827-ci ilin siyasi-hərbi həqiqəti və Araz su qovşağının yaratdığı yeni coğrafiya. Bəli, söhbət tarixin qaranlıq səhifələrində məqsədli şəkildə gizli saxlanılmış, araşdırılması üçün ilkin mənbələri "itirilmiş", lakin tədqiqatına böyük ehtiyac duyulan sirli, istehkam tipli qalalarımızdan biri – Naxçıvan şəhərindən altı kilometr cənub-şərqində, bir zamanlar Araz çayı sahilində əzəmətli duruşu ilə hər kəsi heyran edən, Araz su qovşağı inşa olunarkən (1967-1971) naməlum səbəblərdən su altında qalmış Abbasabad qalasından gedir.

Bu, rəvayət deyil, xəritələrdə yaşayan tarixin özüdür. Abbasabad qalası ilə bağlı AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, fəlsəfə doktoru Musa Rəhimoğlu-Quliyevin elmi araşdırmaları var. Məlumatlara rusdilli mənbələrdə rast gəlmək mümkündür. Abbasabad qalası tarixi-hərbi istehkamdır. Azərbaycan ərazilərinin işğalında "müstəsna" rolu olan Paskeviçin şəxsi arxiv fondunda bu qala barədə qiymətli məlumatlar əldə etmək mümkündür.





Qraf Paskeviç əvvəlcədən işğal edəcəyi ərazilərin, o cümlədən müdafiə qalalarının, xüsusən Abbasabad qalasının müfəssəl planını tərtib etmiş və onu tam məxfi saxlamışdı. Onun planında qalanın 3 girişi (qapısı) olduğu təsvir edilib: Naxçıvan, Araz, Nehrəm. Planda qalaya gedən yollar, Xan evi, Baş "hauptvaxt", məscid, kazarmalar, süvarilər üçün yer, dükanlar, digər tikililər, Araz çayını keçmək üçün araba körpülər qeyd olunub.

Abbasabad qalasının işğalında iştirak edən general-leytenant, knyaz M.Şerbatovun əsərində heç yerdə əks olunmayan yeni məlumatlar verilib, əsərə xəritələr əlavə edilib. Bu xəritələr rus–İran müharibələrinin gedişi barədə aydın təsəvvür yaratmaqla yanaşı, Abbasabad qalası ətrafında gedən döyüşlərin dəqiq koordinatlarını öyrənməyə imkan verir.

*

1816 və 1834-cü ildə Naxçıvanda olmuş baron Korf "İran haqqında xatirələr" kitabında yazır: "Bu ölkədə 25 il əvvəl Abbas Mirzə tərəfindən tikilmiş qalanı (Abbasabad qalası nəzərdə tutulur - Y.X.) gördüm. Qala Abbas Mirzənin xidmətində olmuş fransız mühəndislərin layihəsi əsasında inşa edilib". Qalanın fransız mühəndisləri tərəfindən tikilməsinə tarixi ədəbiyyatda rast gəlinsə də, bu günədək Azərbaycan oxucusuna onların adı və şəxsiyyətləri məlum deyil. Yeni sənədlərin izi ilə araşdırmalar edərkən mühəndislərindən birinin, həm də ən əsas fiqurun adını öyrənə bildik. Qaynaqlarda onun adı Armand-François Lamy (1781-1839) (ingilisdilli mətnlərdə "Lamy") kimi keçir. O, sonralar Marechal de camp rütbəli general, 1831-1839-cu illərdə Fransa Senatının deputatı olub. Lamy 1807-1809-cu illərdə Napoleonun General Gardane missiyasının tərkibində Qacarlara hərbi-mühəndis dəstəyi verən dörd zabitdən biri olub. Abbasabad qalası məhz onun layihəsi əsasında "Avropa modeli"ndə qurulub.

Bəzi müəlliflərin fərziyyəsinə görə, 1812-ci ildə Napoleon Bonapart bu qala ilə bağlı "xüsusi tədqiqat"la maraqlanıb. Həmin tarixdə Fransa–Qacarlar hərbi əməkdaşlığını təsdiqləyən faktlar olsa da, Napoleonun 1812-ci ildə qalaya dair "xüsusi tədqiqat" iddiasını təsdiqləyən sənəd yoxdur.

Vilyam Monteith 1810-cu ildə Sir John Malcolm səfirliyinin tərkibində Təbrizdə olarkən Abbas Mirzənin xahişi ilə Araz çayı boyu rus fortportlarını tədqiq edir. O, həm mühəndis-istehkamçı, həm də sahə müşahidəçisi kimi İran–Qafqaz hadisələrinin birbaşa içində olub. Abbasabad qalasının layihəsini təkmilləşdirməsi, Rus–İran müharibəsindəki təcrübəsi, sonrakı diplomatik fəaliyyəti, geocoğrafi məzmunlu tarixi yazıları onu region üçün vacib müəllifə çevirir.

Monteithin Abbasabad qalası planı ("Plan of the fortress of Abbasabad by W. Monteith") hazırda Böyük Britaniyanın Kew (The National Archives) Milli Arxivində "FO 60/14" qrifti altında saxlanılır.

Diqqətçəkən bir faktı da nəzərinizə çatdıraq. 1814-cü ildə bir müşahidəçi qalanın müəyyən vaxtlarda barıt anbarına çevrilməsi, habelə qala divarlarında "ağır daşların yuxarıya qoyulması" kimi texniki qüsurlar səbəbilə hər il uçuqlar barədə məlumat verib. Qalaya sonrakı əlavələr müdafiəni zəiflətmiş, zəlzələlər isə ciddi ziyan vurmuşdur.

Rus tarixçisi N.Nefedyevin Abbasabad qalası barədə qeydlərinə nəzər salmaq maraqlı olar: "Abbasabad qalası Naxçıvana gedən yolun qarşısındadır. Mən bu qalaya getməyi özümə borc bildim. Fransız mühəndisin bu əsərinə baxmaq ehtiram borcum idi. Dərin xəndəklər su ilə doldurulmuş, iki cərgəli divarlarda atəş açmaq üçün yerlər qoyulmuşdu. Sığınacaqlar və digər müdafiə mövqeləri xeyli gücləndirilmişdi. Onlar qalanı tikərkən uzaqgörənliklə nəzərə almışdılar ki, qalanın qarnizonu Arazın üstündəki körpünü görə və lazım olduqda geri çəkilərkən öz təhlükəsizliyini təmin edə bilsin".

*

Araşdırmalar onu deməyə əsas verir ki, beşbucaq formasında və bürcləri olmuş Abbasabad qalası 1809-1810-cu illərdə tikilib. Ehtimal var ki, qala köhnə bir qalanın yerində inşa edilib. Qala divarlarının hündürlüyü 4 metr 30 santimetr, qalınlığı 60 santimetr olub.

Qeyd edək ki, Rusiya–İran (1826-1828-ci illər) müharibəsi zamanı İranı tutmaq üçün rus hərbçiləri tərəfindən "ürək" adlandırılan Abbasabad qalasında gərgin döyüşlər gedib.

Qalanın planı ilə bağlı məlumatlara və xəritələrə nəzər saldıqda Araz çayından sağda xüsusi istehkam qeyd olunub və burada Xoy şəhərinə gedən yol göstərilir. Bu istehkam qalanın "Araz" darvazası ilə üzbəüzdür. Maraq doğuran məqamlardan biri də odur ki, Arazın o tayına qaladan gizli yolun olması o dövrün yaşlı adamları tərəfindən dilə gətirilib. Nəzərə alsaq ki, tarixdə hərbi məqsədlər üçün tikilən bu cür analoji istehkam qalalarının bir çoxunda yeraltı gizli yollar olub, o zaman Abbasabad qalasından da tunellər vasitəsilə keçidlərin olması ehtimalı ağlabatan və məntiqlidir.

**Tarix və arxeologiya üzrə mütəxəssis, general S.Alekseyevin fikridir:** "Abbasabad qalası barədə ölkənin (yəni keçmiş SSRİ-nin) Müdafiə Nazirliyinə məxsus "Xalqların milli xəritəçilik informasiya" idarəsində məxfi saxlanılan 142 səhifəlik material var". Təəssüflər olsun ki, əlimizdə sözügedən materialın varlığını təsdiq edən əlavə məlumatlar yoxdur.

Təəssüflər olsun ki, Abbasabad qalası ilə bağlı maraqlı araşdırmalar geniş ictimaiyyətə çatdırılmayıb. Hazırda qala haqqında tədqiqatını gözləyən, iki yüzdən artıq qədim əlyazmada son dərəcə maraqlı və dəyərli faktlar, eləcə də qalanın inşa şəraiti, plan-layihəsi, habelə qaladan gedən gizli yollar barədə məlumatlar, qalanın naməlum səbəblərdən su altında qalması ilə bağlı nüanslar hələ də təfərrüatlı şəkildə tədqiqini gözləyir.

***Yunis XƏLİLOV,***
***Naxçıvan Dövlət Universiteti***
***ümumi hüquq kafedrasının müəllimi***

*Beynəlxalq həyat*

# Tramp–Putin görüşü təxirə salına bilərmi?

**Son günlərdə dünya siyasiləri və mediasının diqqəti ABŞ Prezidenti Donald Tramp və Rusiyanın dövlət başçısı Vladimir Putin arasında Macarıstanın paytaxtı Budapeştdə keçirilməsi planlaşdırılan görüş üzərində cəmləşib. Vaşinqton, Moskva və Budapeştdən verilən məlumatlara görə, tərəflər əslində görüşə hazırlıq məsələləri ilə məşğuldurlar.**



Bununla yanaşı, görüşün təxirə salına biləcəyi ilə bağlı məlumatlar da yayılmaqdadır. Bu barədə CNN telekanalı özünün sammitə hazırlıqla məşğul olan mənbələrinə istinadən məlumat yayıb. Xəbəri "Anadolu" da təsdiqləyib.

Ağ Evin sözçüsü CNN-ə bildirib ki, ABŞ dövlət katibi Marko Rubio və onun rusiyalı həmkarı Sergey Lavrov arasında gözlənilən görüş hələlik təxirə salınıb. Amma bunun səbəbləri açıqlanmayıb. Mənbə qeyd edib ki, səbəblərdən biri Rusiya-Ukrayna münaqişəsinin mümkün həlli ilə bağlı tərəflərin mövqelərinin fərqli olmasıdır.

Mənbədə verilən məlumata görə, bu fikir ayrılıqları Rubionun Tramp və Putin arasında görüşü gələn həftəyə təyin etməsini çətinləşdirir. Ona görə də iki ölkənin diplomatik rəhbərləri bu həftə yenidən telefon danışığı apara bilər.

Qeyd edək ki, oktyabrın 16-da ABŞ və Rusiya prezidentləri təxminən iki saat yarım davam edən telefon danışığı aparıblar. Əsasən Ukrayna münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olunub. Tramp iki ölkə arasında ABŞ dövlət katibi Marko Rubionun iştirakı ilə "yüksək səviyyəli məsləhətçilər"in görüşünün keçiriləcəyini, daha sonra Budapeştdə Putinlə görüşəcəyini açıqlayıb. O, Putinlə görüşün "iki həftə ərzində" baş tuta biləcəyinə işarə edib.

Qarşıdakı mümkün görüşlə bağlı Rusiya tərəfinin mövqeyi də birmənalı deyil. RF XİN başçısının müavini Sergey Ryabkov deyib ki, dövlət katibi Marko Rubio ilə görüşlərin qrafiki əvvəlcədən planlaşdırılmalıdır: "İdeya olaraq, bu Lavrov və Rubio arasında görüş olacaq. Lakin qrafikdən danışmaq tezdir. Bu cür əhəmiyyət kəsb edən istənilən təmas düzgün hazırlanmalıdır. Bu, diqqətli ev tapşırığı tələb edir. Biz indi məhz bunu edirik".

"RİA Novosti"nin məlumatına görə, Ryabkov bildirib ki, oktyabrın 20-də onların telefon danışığı zamanı görüş məsələsi qaldırılmayıb. O, həm də Rubio və Lavrov arasında "Tomaqavk" raketlərinin Ukraynaya tədarükü ilə bağlı müzakirələri şərh etməkdən imtina edib, iki ölkə arasında belə yüksək səviyyəli danışıqların "ictimaiyyət üçün açıqlanmasının uyğun olmadığını" bildirib.

Xatırladaq ki, oktyabrın 20-də Lavrov və Rubio telefon danışığı zamanı Putin və Tramp arasında əldə olunmuş anlaşmaların həyata keçirilməsi üçün konkret addımları müzakirə ediblər. Amma Rubio və Lavrovun bununla bağlı mümkün görüşü, CNN-in məlumatına görə, təxirə salınıb.

Macarıstanda isə görüşə hazırlıq görülür. Əsas Hüquqlar Mərkəzinin analitiki Zoltan Koşkoviç əmin edib ki, Macarıstanın təhlükəsizlik xidmətləri Budapeştdə keçiriləcək sammit zamanı Rusiya Prezidenti Vladimir Putin və Ağ Ev rəhbəri Donald Trampın təhlükəsizliyini təmin edəcəklər: "Macarıstan xidmətləri yaxşı hazırlaşıb. Onlara amerikalı və rusiyalı mütəxəssislər də kömək edəcəklər".

***Paşa ƏMİRCANOV***
***XQ***

# "ParaBOKT" ASC-dən ƏSF-yə ötürülmüş kredit portfeli üzrə ödəniş üsulu imkanları genişləndirilib

"ParaBOKT" ASC-nin kredit portfelinin Əmanətlərin Sığortalanması Fonduna (ƏSF) ötürülmüş hissəsi üzrə ödəniş üsulu imkanları genişləndirilib. Bu portfelə aid olan borcalanlar kredit ödənişlərini ölkə üzrə geniş xidmət şəbəkəsinə malik "MilliÖn" ödəniş terminalları və mobil tətbiqi vasitəsilə də həyata keçirə bilərlər.

Ödəniş infrastrukturunun genişləndirilməsi borcalanlara göstərilən xidmətlərin daha əlçatan, rahat və çevik şəkildə həyata keçirilməsinə şərait yaradır. Qeyd edək ki, "MilliÖn" ödəniş sistemi ölkənin bütün inzibati ərazi vahidlərini əhatə edən terminallar şəbəkəsinə və mobil tətbiqə malikdir. Bu imkanlar borcalanlara kredit ödənişlərini həm terminallar vasitəsilə, həm də onlayn platforma üzərindən günün 24 saatı, həftənin 7 günü, istənilən yerdən rahat və növbəsiz şəkildə həyata keçirməyə şərait yaradır.

**Məlumat üçün bildiririk ki, ödənişlərin həyata keçirilməsi qaydası aşağıdakı kimidir:**

- *"MilliÖn" terminalında və ya mobil tətbiqdə <Bank xidmətləri> bölməsinə daxil olun;*
- *Siyahıdan Əmanətlərin Sığortalanması Fondunu – ADİF subbölməsini seçin;*
- *Müvafiq xanaya FİN kod və ya VÖEN daxil edin;*
- *Siyahıdan "ParaBOKT" ASC-ni seçin (habelə hesabınızı);*
- *Ödəniş məbləğini təsdiqləyərək əməliyyatı tamamlayın.*

Borcalanlar bilməlidir ki, "MilliÖn" vasitəsilə edilən ödənişlər real vaxt rejimində sistemdə əks olunur, bu da ödəniş prosesinin sürətli və etibarlı şəkildə icra edilməsinə imkan verir.

Əlavə olaraq qeyd edək ki, "ParaBOKT" ASC-nin sözügedən borcalanları kredit ödənişlərini "Azərpoçt" MMC-nin ölkə üzrə xidmət şəbəkəsi vasitəsilə də həyata keçirə bilərlər. Belə ki, "Azərpoçt" filial və şöbələrinə yaxınlaşaraq ödəniş etdikləri bankın adını və öz şəxsiyyət vəsiqələrini, fərdi identifikasiya nömrəsini (FİN) təqdim etməklə Manat, ABŞ dolları və Avro valyutalarında kredit ödənişlərini həyata keçirə bilərlər.

Əmanətlərin Sığortalanması Fondu "ParaBOKT" ASC-nin həmin borcalanları üçün göstərilən xidmətlərin keyfiyyətinin və əlçatanlığının artırılması, eləcə də ödəniş üsulu imkanlarının təkmilləşdirilməsi istiqamətində fəaliyyətini ardıcıl şəkildə davam etdirəcəkdir.




*Sadə peşə adamları*

# "Qızıl əllər"in keramik məharəti

Usta Ramin iri kafelləri səliqə ilə suvanmış divar boyu aramla düzürdü. Özünün icazəsi ilə bir neçə dəqiqə onun işini müşahidə edirdim.

... Budur, o, lazer mişarla dəqiq ölçüdə kəsdiyi nazik uzun kafel parçasını divara vurmağa hazırlaşır. Əvvəlcə divara sürtdüyü yapışqanı nazik dişli daraqla hamarlayır. Sonra kafeli yapışdırıb kiçik çəkiclə ahəstəcə döyəcləyir. Kafel parçasını yerində otuzdurandan sonra işindən razı halda başını tərpədir.

Həmin an kənd toylarında nağarasının iplərini çəkərək zərb alətinin səsini nizamlayan musiqiçilər yadıma düşdü. Ramin də həmin musiqiçilər kimi, həvəslə divara düzdüyü kafellərin sanki hər birinin səsini duyur və eşidirdi.

**– Ramin, zəhmət olamasa, de görək necə olur ki, sən şəhərdə minlərlə kafel ustasının arasında seçilərək hazırda ən yaxşılardan biri sayılırsan?**

– Buna bənzər sualı mənə sizin Fikrət müəllim (XQ-nin texniki direktoru–red) də verib. Məncə, burada elə sirr yoxdur. 19 ildir ki, bu sənətdə (usta gördüyü işi sənət adlandırır) hər bir xırda işi belə həvəslə, məsuliyyət hissilə görürəm.

Cavabı bir daha dəqiqləşdirmək istəyirik:

**– Ramin sən "Facebook"da böyük populyarlıq qazanan "Qızıl əllər" ustalar qrupunun rəhbərisən. Orada müştərilər sənin işlərinə çox yüksək qiymət verirlər. Axı bu boyda uğur, populyarlıq qazanmaq heç də asan deyil...**

– Əlbəttə, gərək işində, sözündə, əməlində düz olasan. Mən hətta sifariş götürdüyüm işlərin keyfiyyətinə müştərilərdə əminlik yaransın deyə videoya çəkərək onlara təqdim edirəm. Bəzi işləri sosial şəbəkələrdə də yerləşdirirəm. Yəni hər şey göz qabağında olur.

Söhbət zamanı öyrənirik ki, usta Ramin Mehrəliyev 1981-ci ildə Şamaxı rayonunun Məlhəm kəndində dünyaya göz açıb. Atası Təsəlli kişi gözəl dülgər kimi ad çıxarıb. Bu gün də atası böyük oğlu Eminlə birlikdə dülgərliklə məşğuldur.

Amma Ramin onlardan fərqli olaraq keramika sənətini seçib. Bunun üçün FAB ("Faydasını Alanlar Bilər") şirkətinin nəzdində fəaliyyət göstərən peşə dərnəyində 3 ay təcrübəli ustalardan dərs alıb. Ondan da əvvəl isə bir müddət Moskvadakı kafel zavodlarının birində çalışıb.

Ramin artıq 19 ildir ki, paytaxtda şəxsi evlərdə, ofislərdə kafel, metlax düzməklə məşğuldur. Yaxşı usta olduğu üçün müştəriləri də çoxdur. Allahın ona halal zəhməti müqabilində lütf etdiyi ruzidən çox razıdır. Deyir ki, bu il ailəsi üçün çox uğurlu il olub. Böyük qızı Fərqanə qəbul imtahanlarından 530 balla, ödənişsiz Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kimya mühəndisliyi fakültəsinə daxil olub. İkinci qızı Aysel isə indi 11-ci sinifdə oxuyur, o da dərslərindən əla qiymətlər alır.



Ailənin sonbeşiyi Cavidin isə 11 yaşı var, idmançıdır, məktəblilər arasında üzgüçülük üzrə milli yığma komandanın üzvüdür.

Ramin güləruz, mehriban insandır. Deyir ki, həyat yoldaşı Pərvanə xanım onu hər gün Müşfiqabaddakı həyət evində hazırladığı dadlı təamlarla işə yola salır. Və hər axşam ailə üzvləri onu böyük səbirsizliklə gözləyirlər.

Sonda Ramin ona xas olan ürəkaçıqlığı ilə dedi:

– İşimdən razıyam, övladlarım da, şükür Allaha, başımı uca edirlər. Bundan artıq insana nə lazımdır ki?

***Məsaim ABDULLAYEV,***
***Cavid QAÇAYEV (foto),***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 227 (30921) 23 oktyabr 2025-ci il, cümə axşamı

## İDMAN

## Boksçumuz Monteneqro yarımfinalında




**Azərbaycan millisinin daha bir boksçusu Monteneqronun Budva şəhərində keçirilən U-15 Avropa çempionatında yarımfinala vəsiqə qazanıb. Nəsrin Abdullazadə 1/4 finalda Esila Yıldırıma (Türkiyə) qalib gəlməklə bu hüquqa yiyələnib.**

40 kiloqram çəkidə mübarizə aparan millimizin üzvü 5:0 (29:28, 30:27, 30:27, 30:27, 29:28) hesablı qələbə qazanıb. O, yarımfinala yüksəlməklə özü üçün azı bürünc medalı da təmin edib.

Abdullazadə bu gün finala vəsiqə uğrunda Elliemay Feterstonla (İrlandiya) döyüşəcək.

Qeyd edək ki, 32 ölkədən 369 boksçunun qatıldığı Avropa çempionatına oktyabrın 25-də yekun vurulacaq.

## UEFA ÇL-də III tur



**UEFA Çempionlar Liqası turnirinin liqa mərhələsində III tura start verilib. İlk oyun günündə baş tutan qarşılaşmalarda "Barselona" İspaniyada Yunanıstanın "Olimpiakos" klubuna böyük hesabla qalib gəlib – 6:1. İngiltərənin "Arsenal" klubu öz meydanında İspaniyanın "Atletiko" komandasına, İtaliyanın "İnter"i isə Belçikada "Union"a 4 cavabsız qol vurub.**

Fransanın PSJ komandası Almaniyada "Bayer"ə 7:2 hesabı ilə qalib gəlib. Niderlandın PSV futbolçuları isə İtaliyanın "Napoli" komandasının oyunçularını 6 dəfə oyuna mərkəzdən başlamağa məcbur ediblər – 6:0.

Turun digər oyunlarında "Kayrat" (Qazaxıstan) – "Pafos" (Kipr) – 0:0, "Kopenhagen" (Danimarka) – "Borussiya" (Dortmund, Almaniya) – 2:4, "Nyukasl" (İngiltərə) – "Benfika" (Portuqaliya) – 3:0, "Vilyarreal" (İspaniya) – "Mançester Siti" (İngiltərə) – 0:2 hesabı qeydə alınıb.

Dünən axşam turun daha 9 oyunu baş tutub.

***Y.QABİL***
***XQ***

## "Səbail-Bazar" ATSC səhmdarlarının nəzərinə!

26 noyabr 2025-ci il saat 11.00-da "Səbail-Bazar" ATSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2024-cü ilin maliyyə hesabatlarının təsdiq edilməsi.

**2.** Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada qəbul edilməsi.

**3.** Müşahidə şuasının, icra orqanının və təftiş müfəttişinin seçilməsi.

**4.** Cəmiyyətin mövcud vəziyyəti və gələcək fəaliyyətinə dair məsələlərin müzakirəsi.

**5.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə həftənin iş günləri cəmiyyətə gəlməklə tanış ola bilərlər.

**Əlaqə telefonu**: +99455-272-99-55.

**Ünvan:** Bakı şəhəri, Səbail rayonu, Akademik Əhəd Yaqubov küşəsi 6.

*Yeni filmlər*

# İlk qadın gəmi kapitanı ekranda

**Azərbaycanın zəngin dənizçilik tarixində silinməz iz qoymuş qadınların fədakarlığı sənətdə də geniş əksini tapıb. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sifarişi ilə Azərbaycanın ilk qadın gəmi kapitanı, İkinci Dünya müharibəsi iştirakçısı Şövkət Səlimova haqqında yeni çəkilmiş "Şövkət" bədii filmi bu silsiləyə layiqli töhfədir.**

Nizami Kino Mərkəzində keçirilən təqdimat mərasimində filmin ideya müəllifi, Xəzər Dəniz Gəmiçiliyi İctimaiyyətlə əlaqələr departamentinin rəisi Mehman Mehdiyev layihənin təkcə tarixi bir şəxsiyyətin ömrünü ekrana gətirmək deyil, həm də Azərbaycan qadınının cəsarətini, lətafətini, sədaqətini və dənizçi iradəsini nümayiş etdirmək missiyası daşıdığını vurğuladı. O qeyd etdi ki, bu ilin dekabrında 105 illik yubileyi qeyd ediləcək Şövkət Səlimova İkinci Dünya müharibəsi illərində mülki gəmiləri idarə edən ilk azərbaycanlı qadın kapitan olub. Onun ömür yolu dəyanət, fədakarlıq və Vətən sevgisinin parlaq nümunəsidir.

Xəzər Dəniz Gəmiçiliyi İdarə Heyətinin sədri Rauf Vəliyev təqdimat mərasiminin qurumun 12 il əvvəl yenidən təşkili gününə təsadüf etdiyini vurğuladı. O, Azərbaycanda dənizçilik peşəsinin qədimliyindən və onun şöhrətini yaşatmaq üçün tarixi sənədləşdirmək, rəqəmsallaşdırmaq və gələcək nəslə çatdırmaq məqsədilə tədbirlər görüldüyünü qeyd etdi. Yeni çəkilmiş film də məhz bu nəcib məqsədə xidmət edir.

21 yaşlı xanımın dənizin ortasında, psixoloji gərginliyin yüksək olduğu şəraitdə gəmidə kapitanlıq etməsi və liderliyini sübuta yetirməsi filmdə əsas yer tutur. Filmin məqsədi həm də ənənəni davam etdirmək və xanımları dənizçilik peşəsinə cəlb etməkdir. Hazırda şirkətdə təxminən 594 xanım çalışır, onlardan 17-si üzən heyətdədir. Bu il 7 qız Dövlət Dəniz Akademiyasına qəbul olub.




Bildirildi ki, "Şövkət" filminin təqdimatı, Azərbaycanın dənizçilik sahəsindəki qəhrəmanlıq irsinə, İkinci Dünya müharibəsi illərindəki fədakarlıq tarixinə və qadınların liderlik potensialına verilən ən böyük qiymətdir. Bu cür sənət əsərləri tarixi yaddaşımızı gücləndirir, milli ruhumuzu yaşadır və gənc nəsil üçün dənizçi peşəsini cazibədar göstərir, Şövkət Səlimovanın timsalında dəyanətli, vətənpərvər və fədakar olmağın vacibliyini bir daha təsdiqləyir.

Filmin quruluşçu-rejissoru Asif Rüstəmov, təsvir rejissoru Rauf Qurbanəliyev, baş prodüsseri Tural İbrahimov, icraçı prodüsseri isə Səbinə Həsənovadır. Ekran işində Şövkət Səlimova obrazını gənc aktrisa Nəzrin Abdullayeva canlandırıb. Filmdə Xalq artisti Qurban İsmayılov, tanınmış aktyorlar Hikmət Rəhimov, Elsəvər Rəhimov, Nigar Mürsəlova və ümumilikdə, 70-dən çox yerli və xarici mütəxəssis iştirak edib. Çəkilişlər donanmanın gəmilərində və digər tarixi məkanlarda aparılaraq, filmə gerçək mənzərə bəxş edib.

Mərasimdə Akademiyanı bitirmiş və gəmidə matros işləyən Nuranə xanım gələcəyin Şövkət xanımı olmağa çalışdığını söylədi. Xalq artisti Flora Kərimovanın ifasında, Şərqin opera yazan ilk qadın bəstəkarı Şəfiqə Axundovanın musiqisinə bəstələnmiş "Sular qızı" romansının səsləndirilməsi mərasimə təntənə gətirdi.

***Arzu ƏLİYEVA***
***XQ***

# Çimərlik güləşçilərimiz Vətənə Dünya çempionu kimi qayıtdılar

**Misirin İsgəndəriyyə şəhərində dünya çempionu olan çimərlik güləşçilərimiz Vətənə qayıdıblar. Heydər Əliyev Beynəlxalq Aeroportunda komandanın qarşılanma mərasimi keçirilib. Millimizin baş məşqçisi və üzvləri mətbuta açıqlama veriblər.**





**Oyan Nəzəriani, baş məşqçi:**

– Çimərlik güləşi üzrə ilin son yarışı idi. Dünya Seriyasının final mərhələsində 2 çəkidə iştirak edirdik. 80 və 90 kiloqramda dünya çempionu olduq. Bu 5 seriyada toplanan xalların nəticəsində 80 kiloqramda 19 yaşlı Vüsal Əliyev dünya çempionu oldu. O, böyüklərdə ilk dəfə dünya çempionatına qatılırdı. Təcrübəli güləşçimiz İbrahim Yusubov isə artıq 4-cü dəfədir ki, dünya çempionu olur. Bizi yenə sevindirdi. 80 kiloqramda Sahib Dadaşov da iştirak edirdi. O da seriyanın son mərhələsində bürünc medal qazandı… Artıq gələn il üçün planlarımızı qurmuşuq. Yeniyetmələrin Yay Olimpiya Oyunlarında iştirak etməyə namizəd idmançılarımızı seçmişik. 2026-cı il bizim üçün çox məsuliyyətli ildir…

Çimərlik güləşi hər yaş qrupunda 4 çəki oğlanlar və 4 çəki qızlardan ibarətdir. Gələn il komanda hesabında dünya çempionu olmaq üçün kişilərdə 4 çəkinin hamısında iştirak etməyi planlaşdırırıq…

Yüksək nəticələrimizin əsas səbəbi Azərbaycan Güləş Federasiyasının çimərlik güləşinə peşəkarcasına və strateji yanaşmasıdır. Çünki çimərlik güləşi dünyada yeni formalaşır. Amma çox güclü rəqiblər gəlir. Bir çox ölkələr artıq öz yerini tutub. Ön sıralarda olan ölkələrdən biri də Azərbaycandır. Federasiyanın uğurlu fəaliyyəti sayəsində bu nəticələri əldə etmişik. Çimərlik güləşində iddiamızı





daha da artırmağa çalışacağıq.

**İbrahim Yusubov, dünya çempionu:**

– 4-cü dəfədir dünya çempionu oluram. Yarış çox yüksək səviyyədə keçirildi. Çox yaxşı hazırlaşmışdıq. Məşqlərdə əlimizdən gələni etdik ki, bayrağımızı ən yüksəklərdə dalğalandıraq, himnimizi səsləndirək. Çox şükürlər olsun ki, buna nail olduq. Üzərimizdə əziyyəti olan federasiya rəhbərliyinə, baş məşqçimizə və şəxsi məşqçilərimə minnətdaram. Oyan müəllimlə qərar verdik ki, bu, son yarışım olsun. Həm yaşı nəzərə aldım, həm də idmandan qələbəylə ayrılmaq daha rahat olur. Sevincli halda ayrılmaq nəsib oldu. Şükürlər olsun. Rəhbərlik məsləhət bilsə, milli komandada məşqçi kimi fəaliyyət göstərə bilərəm.

**Vüsal Əliyev, dünya çempionu:**

– Aylardır bu yarışa hazırlaşırıq. Şükürlər olsun ki, bu il Dünya Seriyasının 4 mərhələsində iştirak etdim. Heç birində də medalsız qalmadım. Final mərhələsi həlledici oldu, dünya çempionu oldum. Baş məşqçimizə və şəxsi məşqçim Qurban Novruzova təşəkkürümü bildirirəm. Gələn il də bu çəkidə qalmağı fikirləşirəm.

**Sahib Dadaşov, Dünya Seriyasının bürünc medalçısı:**

– İlk dəfə bu yarışda iştirak etdim. Çox məsuliyyətli və həyəcanlı idi. Buna baxmayaraq, yarış çox rahat keçdi. İnşallah, gələn il daha yüksək nəticələr göstərəcəyimə inanıram.

***Q.YUSİFOĞLU***
***XQ***

# "Qarabağ"ın əzmkarlığı "Atletik"ə gərginlik yaşatdı

**Çempionlar liqasının ilk iki turunda Avropa futbolunu heyrətə salan Ağdamın "Qarabağ" komandası dünən müasir dünya futbolunun mərkəzlərindən sayılan İspaniya La liqasının təmsilçisi Bilbaonun "Atletik" klubu ilə qarşılaşdı. Azərbaycan təmsilçilərindən fərqli olaraq basklar 2 turdan sonra bir xal belə əldə edə bilməyiblər. İlk oyunda Bilbao komandası evdə "Arsenal"a 0:2, "Borussiya Dortmund"a isə səfərdə 1:4 hesabı ilə məğlub olub. Amma buna baxmayaraq, "Atletik" bu oyunun fovariti hesab edilirdi.**



Buna baxmayaraq, Qurban Qurbanovun yetirmələri Bilbaoda da sensasiya yaratmağın bir addımlığında oldu. Oyun başlayar-başlamaz komandamız rəqibin qapısına sürətli hücum təşkil etdi. Matçın başlanmasının dəqiqəsi tamam olmamış - 54-cü saniyədə baskların müdafiəçiləri Laporte və Paredes meydanın özlərinə aid hissəsində bərbad oyun nümayiş etdirdilər və top cərimə meydançasının sağ tərəfinə sıçradı. Ağdam təmsilçisi Leandro Andrade topu ələ keçirib, qapıçı ilə təkbətək çıxdı və uzaq aşağı küncə dəqiq zərbə endirdi! 1:0.

Qarabağlılar bu hesabı ancaq oyunun 40-cı dəqiqəsinə qədər qoruya bildilər. Bu məqamda rəqiblərin ən fəal oyunçusu Quruseta ustalığını göstərdi. Hurehisar meydanın mərkəzində topu ələ keçirdi və Qarabağ müdafiəçilərinin arxasında tək qalan Qurusetaya əla ötürmə etdi. İspaniyalı forvard Medinanın təzyiqi altında sürətlə Kotarski ilə təkbətək çıxdı və 15 metrdən sağ alt küncə güclü zərbə endirdi. Basklar bərabərliyi təmin edib elə bu hesabla fasiləyə yollandılar.

İkinci hissədə "Qarabağ" nə qədər əzmkar oyun nümayiş etdirsə də, "Atletik"in təcrübəsi və oyunçularının yüksək ustalığı öz sözünü dedi. Oyunun 70-ci və 88-ci dəqiqələrində Valverdinin yetirmələri daha 2 dəfə fəqləndilər. "Atletik" Bilbao Novarra və Qrusetanın qolları ilə hesabı 3:1-ə çatdırdı.

Bütün bunlara baxmayaraq, Qurban Qurbanovun yetirmələri əzmkar oyunları ilə yenə diqqət çəkdilər. Komandamız növbəti matçını daha güclü klubla - İngiltərənin "Çelsi" komandası ilə doğma meydanda keçirəcək. Güman edirik ki, noyabrın 5-də Bakıda olacaq bu qarşılaşmada "Qarabağ" azarkeşlərini sevindirəcək.

***R.İLQAR***
***XQ***

*HAVA*

# Əsasən yağmursuz, bəzi yerlərdə qısamüddətli yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə çiskinli yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 13-16, gündüz 19-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 762 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85 faiz, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 10-14, gündüz 19-23, dağlarda gecə 3-8, gündüz 10-15 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Zərdab Rayon İcra Hakimiyyətinin kollektivi və Milli Məclisin deputatı Jalə Əliyeva Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadəyə əzizi

**İRADƏ CAMALOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3508**
**SİFARİŞ 2165**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Mehparə ƏLİYEVA**
**Çapa imzalanmışdır 00:00**